**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**XƏZƏR UNİVERSİTETİ**

---

**HUMANİTAR VƏ SOSİAL ELMLƏR FAKÜLTƏSİ**

İstiqamət şifri və adı 060204 - Beynəlxalq jurnalistika

Jurnalistika departamentinin magistrantı

**Mollayeva Aysel Məhəmməd qızının**

Magistr dərəcəsi almaq üçün

**MAGİSTR DİSSERTASİYASI**

# İCTİMAİ RƏYİN FORMALAŞMASINDA MEDİANIN ROLU

mövzusunda

**DİSSERTASİYA İŞİ**

**Elmi rəhbər: Cabir Məmmədli**

Bakı -2020

# ABSTAKT (İCMAL)

Cəmiyyətdə mövcud olan ictimai rəy müəyyən insan toplumu və ya icması üçün məqbul hesab edilərək qəbul edilən fikirlərin, münasibətlərin, inancların və digər sosial hadisələrin məcmusudur. Təbii olaraq, bu rəy müəyyən məsələ və ya hadisə üzərində formalaşan bir sosial fenomen hesab edilir. Media ictimai rəyi formalaşdırmaqla cəmiyyətin gələcəyinin müəyyən edilməsində iştirak edir. O, sosial gerçəklik faktlarına, müxtəlif qrupların və ayrı-ayrı şəxsiyyətlərin fəaliyyətinə münasibəti təsbit edir və özündə əks etdirir. Beləliklə, media qeyri-rəsmi kütləvi şüurun mövcud olması üsulu olan ictimai rəyin formalaşması və inkişafında həm məqsədyönlü, həm də kortəbii şəkildə iştirak edir. Təbii olaraq, bu qarşılıqlı əlaqə həyat hadisələrinin, sosial təcrübənin və ənənələrin bilavasitə təsiri altında cərəyan edir. Bəs medianın ictimai şüura təsiri mexanizmləri necə formalaşır?

Müxtəlif mərhələlərdən keçərək formalaşan ictimai rəy sosial bir fenomenə, gerçəkliyə və fakta çevrilir. Bu, media yarandığı vaxtdan etibarən bütün tarix boyu ictimai və sosial əlaqələrə və fəaliyyətə nüfuz etməklə öz mövcudluğunu qoruyub saxlamışdır. Deməli, qarşılıqlı təmas rejimlərinin olması daim önəm kəsb etmişdir. Bununla belə, ictimai rəyin formalaşmasından danışarkən, medianın ictimai siyasi sistemdə oynadığı rolun bütün təsir mexanizmlərini və yolunu düşünmədən qarşılıqlı əlaqələrin zəncirini müəyyən etmək mümkün deyildir, çünki media hətta özbaşına buraxılmış olsa belə ictimai rəy formalaşdırmaqda əhəmiyyətli rola malikdir.

Digər bir tendensiya da maraq kəsb edir; belə ki, bəzən formalaşan ictimai rəy də mediaya yeni orientirlər və yönənimlilik verir, ona əks-təsir edir və eyni zamanda, onun qaçınılmaz təsirinə məruz qalır.

Medianın ictimai qavrayışı müəyyənləşdirmə gücü, qənaət və mövqeləri dəyişdirmə və ya gücləndirmə qabiliyyəti vardır. İctimai rəy formalaşdırmaq

istəyən siyasi təşkilatlar, fərqli qruplar və ya qurumlar istədikləri şəkildə ictimai rəyə istiqamət verə bilmək üçün medianı ictimai rəyi formalaşdırma mərhələlərinin hər birindən istifadə edirlər.Media ictimai rəy formalaşdırmaqda şübhəsiz təsirlərə malikdir (hətta bu təsir mənfi olsa belə), amma formalaşmış bir qənaət də medianın strategiyasını müəyyənləşdirə bilir. İnsanların düşüncə və inanclarının formalaşmasında hakim olan siyasi qrupların cəmiyyəti nəzarətdə saxlaması üçün media əvəz edilməz vasitə hesab edilir. Odur ki, təbliğat vasitəsi olan medianın, fərdlərin manipulyasiya edilməsindəki müvəffəqiyyətləri sərhədsiz və sonsuzdur.

Qarşılıqlı təsirdə olan ictimai rəy və media, biri digəri olmadan, yanlış və zəif şəkildə təzahür edir, determinant rolunda çıxış edə bilmir.Bu dissertasiyanın **aktuallığı** – müasir dövrdə media tərəfindən ictimai rəyin yanlış yönləndirilməsi zamanı yaratdığı mənfi təsirlərlə bağlıdır.

Dissertasiya işinin **məqsədi** –ictimai rəyin doğru qavranılması, media ictimai rəy əlaqələrinin düzgün qurulması, medianın hər hansı bir təbliğat prosesində iştirakının ictimai rəyin formalaşmasına göstərəcəyi əks təsirləri aydınlaşdırmaqdır.

Məqsədin seçilməsi **qarşıya qoyulan aşağıdakı məsələlərin** araşdırılmasını şərtləndirir:

- İctimai rəy nəzəriyyəsinin mahiyyətinin açıqlaması;
- İctimai rəyin birbaşa və dolayı yolla formalaşmasına təsir edən ünsürlərin tədqiq edilməsi;
- Media və ictimai rəy arasında olan qarşılıqlı əlaqələrin müəyyən edilməsi;
- Medianın ictimai rəyə təsir prosesini, mexanizmini və bir təbliğat vasitəsi kimi ondan istifadə olunmasını, onun ictimai rəydə yaratdığı əks təsiri, ictimai rəyi bəzən yanlış yönləndirmə potensialının olması.

Dissertasiya işinin araşdırma **obyekti** – informasiya və ictimaiyyətdir. Araşdırma **predmeti** –ictimai rəy, onu formalaşdıran vasitə kimi medianın rolu ilə sıx bağlıdır.

Dissertasiya işinin **elmi yeniliyinə** aşağıdakı məsələlər daxildir:

- İctimai rəy və medianın qarşılıqlı təsirini araşdırmaq;
- Geniş təhlillərlə qarşılıqlı təsir nəticəsində yaranan mənfi təsirləri müəyyən etmək;
- Medianın təbliğat vasitəsi kimi istifadə olunmasını tədqiq etmək.

Dissertasiya işinin **nəzəri metodlarına** –tarixi nöqteyi-nəzərdən prosesə yanaşma, proses iştirakçılarının qarşılıqlı təsirinin analizi və müqayisəsi, proses nəticəsində yaranan vəziyyətin təzahürü daxildir.

Dissertasiya öz **quruluşuna görə** girişdən, 3 fəsil, nəticə, eləcə də ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya işinin girişində araşdırılan mövzunun **aktuallığı və elmi yeniliyi,** məqsəd və məsələlərin həyata keçirilməsi üçün məzmun, araşdırmanın obyekti və onun predmeti göstərilir. Eyni zamanda, onun ictimai rəy və media əlaqəsi barədə ilkin məlumat verilir, ictimai rəyin necə təzahür etməsi barədə danışılır.

**Birinci fəsil** - "İctimai rəy"adlanır. Bu fəsildə ictimai rəy anlayışının yaranması, tarixi inkişaf mərhələləri, ictimai rəyə yanaşmaların tarix boyunca dəyişməsi, ictimai rəyin ilk yarandığı vaxtlarda hansı məqsədlə istifadə olunduğu, necə təzahür etdiyi öz əksini tapmışdır. Birinci fəslin ikinci paraqrafında isə ictimai rəy konsepsiyası araşdırılmış, tədqiq edilmiş və araşdırmaçıların konsepsiyaya dair irəli sürdükləri müxtəlif anlayış apartaları və təriflər, fərqli nəzəriyyələr və yanaşmalar analiz olunmuşdur.

**İkinci fəsil** -"İctimai rəyi formalaşdıran amillər" adlanır. Bu fəsildə ictimai rəyin formalaşdırılmasında rol oynayan vasitələr, formalaşma prosesi, prosesə təsir edən amillər, ictimai rəyi formalaşdırmada istifadə olunan nəzəriyyələr, bu nəzəriyyələrin tədqiqi, ictimai rəyin ifadə olunma vasitələrinə yer verilmişdir.

**Üçüncü fəsil** - "Medianın ictimai rəyə təsiri" adlanır. Bu fəsildə media və ictimai rəy əlaqələri, ictimai rəyin formalaşdırılmasında önəmli rol oynayan medianın təsiri araşdırılmışdır. Burada, televiziya, radio və mətbuat vasitələrinin ictimai

rəyə təsir imkanları ayrı-ayrılıqda tədqiq edilmiş, sosial medianın ictimai rəyə təsir gücü və bu gücün yaratdığı inqilablar təhlil edilmişdir.

Dissertasiya işinin **“Nəticə”** bölməsində tədqiqata yekun vurulmuş və ən ümumi xüsusiyyətlər aşağıdakı kimi formalaşdırılmış və tövsiyələr irəli sürülmüşdür: Medianın ictimai rəyə təsiri haqqında nəzəri və təcrübi metodları toplamaq və sistemləşdirmək olduqca həyat əhəmiyyətli bir ictimai fenomendir; Medianın ictimai rəyə təsiri, ictimai rəyi yönləndirməsi, onun kənar təsirlərə məruz qala bilməsi, medianın ictimai rəyi yönəldirərkən doğurduğu nəticələr, azad ictimai rəyin formalaşması üçün lazım olan ünsürlərin araşdırılması mühüm təhlillər aparmadan mümkün hesab edilmir. Medianın ictimai rəyə təsirindəki mənfi cəhətlərin, eyni zamanda azad düşüncəli cəmiyyətin formalaşmasındakı əhəmiyyəti sübuta yetirilmiş faktlar hesab edilir, odur ki, hərtərəfli qarşılıqlı araşdırmalar daim diqqət mərkəzində saxlanılmalıdır.

## MÜNDƏRİCAT


**ABSTRAKT(İCMAL)..........................................................................2**

**MÜNDƏRİCAT……………………………………………………….6**

**GİRİŞ..........................................................................................7**

**I Fəsil. İctimai rəy konsepsiyası.................................................................11**

1.1. İctimai rəyin yaranma tarixi..................................................................11

1.2. İctimai rəy nəzəriyyəsi........................................................................18

**II Fəsil. İctimai rəyi formalaşdıran amillər.............................33**

2.1. İctimai rəyi dolayi yolla formalaşdıran vasitələr.....................33

2.2. İctimai rəyi birbaşa formalaşdıran vasitələr.........................40
2.3. İctimai rəyin formalaşmasında nəzəriyyələrin rolu..................45
2.4. İctimai rəy və onun ifadə vasitələriş……………………………………..53

**III Fəsil. Medianın sosial funksiyası və ictimai rəyin formalaşmasında rolu...........................................................................................................58**
3.1. Medianın ictimai rəy funksiyası haqda qısa məlumat 58
3.2. Televiziya və ictimai rəy ...........................................63
3.3. Radio, mətbuat və ictimai rəy.......................................67
3.4. Sosial medianın ictimai rəyə təsiri...................................69
3.4.1. "Ərəbbaharı".......................................................................73
3.4.2. Vikiliks...................................................................................75

**Nəticə...........................................................................................................78**
**İstifadə olunmuş ədəbiyyat........................................................................82**

## GİRİŞ

İctimai rəyi müəyyən bir məqsədə uyğun yönləndirməyə çalışmağın tarixi çox qədimlərə dayanmasına baxmayaraq təkmilləşən texnologiya və kütləvi informasiya vasitələrinin geniş yayılması ilə paralel olaraq önəmi zaman keçdikcə daha da artır. İndiki vaxtda, ictimai rəyin istifadə olunmadığı sahə demək olar ki, qalmamışdır. Dünyanın internet vasitəsilə insanın əlinin altına sığdığı bir vaxtda, ictimai rəyin mövcudluğuna biganə qalmaq mümkün deyil. İctimai rəyin əsas varolma səbəbi, qərar qruplarının qərar vermə prosesinə qatılaraq qəbul ediləcək qərarları öz lehinə istiqamətləndirməkdir.

Tarix boyu ictimai rəy anlayışı mövzusunda, ictimai rəyin nə olduğu necə formalaşdığı, ictimai rəyi formalaşdıran vasitələrin nələr olduğu mövzusunda araşdırmalar aparılıb. İctimai rəyin mahiyyəti və onun yaranması mexanizminə dair ümumi qəbul edilmiş bir fikir yoxdur. Lakin buna baxmayaraq, xeyli sayda müxtəlif sahədə çalışan mütəxəssislər bu məsələyə dair (ictimai rəy anlayış aparatı, struktur elementləri mahiiyətinə dair) bir sıra maraqlı nəzəri müddəalar irəli sürmüşlər. Məhz məsələnin çoxşaxəliliyi bəzi fərdi açıqlamaların hətta bir-birinə zidd olan sahələrinə toxunmuş, düşüncənin hökumətin diqqətini çəkənə qədər ictimai rəy kimi qəbul ediləməyəcəyini irəli sürmüşdülər. Bəziləri isə fikirlərin ancaq analiz edildikdən sonra ictimai rəy kimi qəbul ediləcəyini vurğulayırdı. Bu kontekstdə, ictimai rəy anlayışı ilə bağlı çoxlu fərdi fikir var və buna görə də, ictimai rəyin konkret olaraq qəbul ediləcək bir tərifi yoxdur. Filosoflar, sosioloqlar, politoloqlar, sosial psixoloqlar və başqaları ictimai rəy mövzusu ilə bağlı daha dərin tədqiqat aparmışdırlar. İctimai rəy nəzəriyyələri məhz bu elm sahələrinin tədqiqatçılarının işləyib hazırladıqları konsepsiyaların, faktların, tədqiqatların spesifik kompleksi hesab olunur.

Geniş xalq kütləsinin tarixin inkişafında rolu yüksəldikcə, onların müxtəlif sahələrdə - təhsildə, mədəniyyətdə, sosial fəallıqda yer tutması genişləndikcə, ictimai rəyin sosial mahiyyəti və vacibliyi də idarəetmə işlərində, cəmiyyətdə harmoniya yaratmaq kimi məsələlərdə xüsusi rolu daha da artırdı. Odur ki, ictimai rəy cəmiyyətdə idarəetmənin demokratik əsaslar üzərində idarə olunmasına daha geniş nüfuz edir, müxtəlif qrupların mənafelərinin, mövqelərinin konkret sosial-psixoloji formada ifadə etməklə özünə haqq qazandırır. Buna görə də, cəmiyyətdə demokratiya inkişaf etdikcə, ictimai rəyin formalaşması, öyrənilməsi də xüsusi əhəmiyyət kəsb edir. İctimai rəyin demokratik mahiyyətini səciyyələndirən cəhətlərdən biri ondan ibarətdir ki, o ictimaiyyətlə, ictimai münasibətlərin və sosial idarəetmənin tənzimlənməsi ilə bağlı vətəndaşların praktiki fəaliyyəti ilə əlaqə kəsb edir. İctimai idarə etmə ictimaiyyət tərəfindən rəylərdə ifadə edilən tələbat vasitəsilə həyata keçirilir. Dövlət idarəçiliyi hüquqa əsaslanmadan

mümkün olmadığı kimi, ictimai idarəetmə də ictimai rəyi nəzərə almadan mümkün deyildir. Demokratik ictimai rəyin dəyərli əlaməti ancaq ondan ibarətdir ki, vətəndaşlar öz rəyini açıq və şəffaf bildirir və müdafiə edir, eyni zamanda onunla da səciyyələnir ki, o necə və nə dərəcə geniş yayılır.

Hər hansı problemə ictimai cəhətdən işlənib hazırlanmış münasibət olmazsa, davranış normaları müəyyənləşdirilməzsə, bütünlüklə problemlərin praktik həll yolları axtarılıb tapılmazsa, cəmiyyətin də tam formalaşmış sosial sistem kimi fəaliyyət göstərməsi daha müşkül məsələyə çevrilir. Cəmiyyətdə ictimai rəyin təşəkkül tapması və inkişafı mürəkkəb xarakterə malikdir. Bu baxımdan formalaşmış ictimai rəy, ayrı-ayrı fərdi rəylərin summativ olaraq mexaniki cəmi deyil, onların qarşılıqlı əlaqə və vəhdətindən yaranan və məzmunca daha yeni və zənginləşmiş bir sosial fenomen kimi meydana gəlir. İnsanların maddi-predmet fəaliyyətinin təzahürü kimi, ictimai rəy ictimai şüurun elə formada təzahürüdür ki, buraya daxil olan bütün sosial birliklər, bütövlükdə geniş xalq kütləsi aktiv elementlər kimi aktual məsələlərə öz münasibətlərinin ifadə etmiş olurlar.Belə hadisələr isə sadəcə insidental deyil. ciddi ictimai maraq doğuran, ictimai mənafelərə toxunan hadisələri əhatə edir. Ətrafda baş verən proseslərə qiymət verilməsi, onların müxtəlif bucaqlardan dəyərləndirilməsi müxtəlif insan birliklərinin və icma nümayəndələrinin çox çeşidli mövqeyini əks etdirir. Odur ki, onlara mənsub olan insanların ictimai hadisələri dəyərləndirməsi də onların ictimai vəziyyəti, maraq rakursları və fərdi mənafeləri ilə müəyyən olunur.

Fikirlərin formalaşmasında, təbliğində, yayılmasında və nəticədə ictimai rəy olaraq müəyyənləşməsində iki vacib ünsür rol oynayır. Bunlardan biri, bu qənaətlərin təşkilatlanma bacarığı, digəri isə kütləvi informasiya vasitələrini istifadə etməkdə sahib olduqları üstünlükdür. Burada ayrı-ayrı media vasitələrinin-televiziyanın [30, 41], sosial identifikasiyanın [56], ictimai rəyin dəyişməsi [22] kimi amillər geniş təhlil olunmuşdur. Lakin, açıqlanmayan fikirlər

ictimai rəy kimi xarakterizə edilə bilinməyəcəyinə görə təşkilatlanma və kütləvi informasiya vasitələrinin istifadəsi, fikirlərin ictimai rəy kimi ifadə olunmasında kifayət qədər əhəmiyyətlidir. İctimai rəy xüsusi olaraq siyasi qərarların qəbul edilməsində və icra olunmasında hakimiyyətə göstərdiyi təzyiq baxımından olduqca vacib bir yerə sahibdir. İndiki vaxtda ictimai rəy xüsusilə kütləvi informasiya vasitələri hesabına effektiv olub və gündəmi təsir altında saxlamağa davam edir. Sosial və texnoloji inkişaflara paralel olaraq medianın əhatəsinin daha da genişlənməsi siyasi əlaqələrin şəxslərarası ünsiyyətə olan asılılığını azaltmışdır. Cəmiyyət media vasitəsilə siyasi məsələləri izləyir, hökumətin siyasəti, ölkənin daxili və xarici problemləri haqqında məlumat əldə edirlər. İnsanlar şəxsən şahidi ola bilmədikləri hadisələri, medianın göstərdiyi şəkildə, onların hazırladıqlarına uyğun yenidən mənimsəyirlər.

Media ictimai rəyi istənilən formada istiqamətləndirə, ictimai təzyiqi əvvəlcədən proqramlanmış bir təzyiq kimi formalaşdıra bilir. Media, əsas funksiyası olan informasiya verməklə qərar verəcək olan auditoriyasına bitərəf məlumat ötürməlidir. Təəssüf ki, media ictimai rəy formalaşdırmaq istəyən qurumlar, təşkilatlar, siyasi partiyalar üçün yeganə çox güclü və təsirli bir silahdır. Medianın necə təsir etməsi barəsində fikir sahibi olmaq üçün informasiyanın necə əldə edildiyini, hansı kənar təsirlər altında hazırlandığına diqqət etmək lazımdır. Bu dissertasiya işində, ictimai rəy anlayışının fərqli təriflәndirilməsinə, tarixi prosesdə əhəmiyyətinin necə dəyişməsinə, ictimai rəyin formalaşdırılmasında medianın roluna, hansı formada istifadə olunmasına, ictimai rəyi necə istiqamətləndirilməsi araşdırılmışdır.

# I FƏSİL. İCTİMAİ RƏY KONSEPSİYASI

## 1.1. İctimai rəyin yaranma tarixi

İctimai rəy sözünün kökləri qədim dövrlərə qədər gedir. Qədim Yunan və Romalı filosoflar bu mövzuda bugünkü siyasi mənasını daşımasa belə, eyni mənaya gələn deyimlər istifadə etmişdirlər. Kökləri Misir, Qədim Yunan və Romaya əsaslanan ictimai rəy mövzusunda bir çox filosof fikir bəyan etmişdir. Anlayışı, Aristotel və Əflatun “kütlə qənaəti” olaraq adlandırmışlar.

Qədim Yunanıstanda ictimai həyat da dini, siyasi və kommersiya həyatı kimi “agora” da formalaşır, buna görə də ictimai məsələlərin müzakirəsində ancaq varlı

təbəqə iştirak edirdi. Qədim Yunan ictimai həyatında dərin iz salmış teatr sənətinin ictimai rəyin formalaşmasında müstəsnasız rolu olmuşdur. Ziyalılar mövcud olan ictimai rəy tendensiyasını qoruyub saxlamaq üçün hakim düşüncələrə zidd münasibət göstərməyə cəsarət etməmişdirlər.
Aristotel, ictimai rəyin düzgün qərarlar qəbul edə biləcəyinə inanır, tək başına qərar verə bilməyən insanların məclisdə kollektiv halında daha yaxşı qərar verəcəklərini söyləyir, digər tərəfdən dövlətin mühüm mövqelərinə varlı, qabiliyyətli vətəndaşların gəlməsini təklif edirdi.

Roma İmperiyasının süqutu ilə birlikdə feodalizm rejiminin Avropa qitəsində yayılmağa başlaması ilə ictimai rəy hakimiyyətdəki fəallığını itirmişdir. Kilsə və krallarla əməkdaşlıq edildiyi, təsirli bir təzyiq rejiminin hakim olduğu bir mühitdə ictimai rəyin formalaşması mümkün deyildi. [7, s.107] Reformasiya və İntibah hərəkatları, kilsənin, insanların münasibət və davranışlarına təsirini aradan qaldırmaqda vacib rol oynamaqla yanaşı, ictimai rəyin yenidən formalaşmağa başlamasına da təsir etmişdir. XVII və XVIII əsrlərdə ictimai, siyasi və ziyalı güclər toplusu dini, siyasi, iqtisadi ənənələri və nüfuzları ilə qapalı feodal rejimi parçalamağa və dəyişdirməyə başladı; beləliklə, ictimai rəy azad oldu. Bu dövrdəki siniflərarası mübarizələr, ictimai hərəkat və əhali axını, vətəndaş və siyasi müharibələr, monarxiya və parlament arasındakı çəkişmələr, təhsil və ünsiyyətin inkişafı, humanizmin və demokratik ideologiyanın yararlı və ağıllı fəlsəfənin üzərində təkmilləşdiyi bir mühit yaratdılar. İctimai rəydə məhz bu mühitdə dövrün aparıcı siyasət üzvlərinin təsiri altında araşdırma və tədqiqatların mövzusuna çevrildi. [7, s.108]

XV əsrdə Avropada mətbəənin kəşfi və dini rəhbərliyə qarşı islahatçı hərəkatın hücumları, düşüncənin, sənətin və elmin nisbi azadlığa qovuşması ictimai rəyin başa düşülməsində əhəmiyyətli rol oynamışdır. [47, s.25] Cəmiyyət dini və siyasi sistemlərlə maraqlandıqca, ictimai rəy özünü daha qabarıq şəlikldə biruzə

verməyə başlamışdı. Bu dövrdə ictimai rəyi qısaca siyasi məsələlərlə maraqlanan qrupların bu fikirlərini üzə çıxarmaq istəkləri olaraq ümumiləşdirmək mümkündür. Qədim zamanlarla oxşar şəkildə yeni dövrdə də ictimai rəy, ilk əvvəl siyasi problemlərlə əlaqəli olaraq ortaya çıxmışdır. Bu baxımdan indiki dövrdə meydana çıxan ictimai rəy bir və ya bir neçə qrupu maraqlandırır, məcburi siyasi məsələlərə bağlı şəkildə qalmayardı. [4, s.154] Yeni dövrün başlanğıcında ictimai rəy, hökümət sistemindən kənarda olan və fikirləri ilə dövlətin fəaliyyəti, qanunu, onu idarə edən insanlar üstündə təsir edici və ya təyin edici rol oynamaq haqqına sahib olduqlarını iddia edən insanların, ictimaiyyəti maraqlandıran problemlərdə sərbəst və açıq şəkildə ifadə etdikləri fikirlərin cəmi, daha doğrusu əksəriyyətini təmsil edən fikirlərin toplusudur. [4, s.7]

Fransa inqilabı ərəfəsinə qədər ictimai rəy üzərində aparılan araşdırmalar bu anlayışı, müstəqilliyi məhdudlaşdırma vasitəsi kimi işlənilmiş, aldadıcı və faydalı olması, zaman və məkana görə dəyişə bilməsi üzərində dayanılmış və dövlət nümayəndələri ilə filosofların bu mövzunu işləyərkən ehtiyyatlı davranmaları gərəkdiyini irəli sürmüşdür.

Başlanğıcda ictimai rəy anlayışına istinad etməklə kifayətlənən ziyalılar, zamanla bu sosial gücün ictimai vəzifəsi üzərinə yönəlib, onu tənqid etməyə başlamışdırlar. Locke ilə birlikdə ictimai rəy fərqli bir şəkildə təsnif olunmuşdur. Locke hüququ 3 yerə ayırır; ilahi hüquq, mədəni hüquq və şöhrət ya da ictimai rəyə əsaslanan hüquq. [4, s.7] Ən təsirlisinin də ictimai rəy olduğunu vurğulamışdır. Locke görə ictimai rəyi burjua formalaşdırır, bu səbəbdən ictimai rəydə iştirak edən fikirlərin burjuanın istəkləri əsasında yönləndirilirdi. Locke görə dövlət təbii haqlarla məhdudlaşıb, iqtidarın niyyəti də ictimai faydadır. Locke hesab edir ki, olduğu mühitə, adət ənənələrə və düşüncələrə etiraz edən hər bir insan, təcrid olunmaqdan və düşmən münasibəti görməkdən qurtula bilməz. İnsanlar, məhkəmə orqanı rolunu oynayan ictimai rəy tərəfindən təcrid olunma qorxusu ilə uyğunlaşmaya məcbur edilirdi.

İctimai rəyin ilkin formalaşma mərhələsində, o əsasən vətəndaşların daxili işləri və şəxsi həyatları ilə əlaqədar olaraq narahatlıqlarını əks etdirirdi. Bu zaman xarici işlərlə əlaqədar olan məsələlər daha az maraq kəsb edirdi. [33, p. 386] XVIII əsrdən etibarən orta təbəqənin iqtisadi gücünün artması, oxuma və yazmanın getdikcə daha da yayılması ictimai rəyin inkişafında vacib bir mərhələdir. İctimai rəyin formalaşması hər şeydən əvvəl insan kollektivlərinin ortaya çıxmasına, onların dəyişən şərt və hadisələrə qarşı fərqli mövqelərinin olmasına və hər dəyişikliyi ətraflı müzakirələrlə qiymətləndirmələrinə bağlıdır. Fransa inqilabı bunun kimi sosial inteqrasiya üçün ideal bir mühit olmuşdur. Bu baxımdan, Paris və London kimi paytaxtların metropolis olmaqları, ictimai rəyin meydana çıxmasına xidmət edən mətbuat və toplaşma azadlığı kimi demokratik fikir ifadə etmə vasitələrinin inkişafına da xidmət etmişdir.

İctimai rəy, tarixin bütün inkişaf mərhələlərində mövcud olmuşdur, lakin onun bir elmi konsepsiya formasında meydana gəlməsi Orta əsrlərə - XII əsrə təsadüf edir. İlk intişarını İngiltərədə tapmış olsa da, bu bir elmi istilah və sahə kimi get-gedə genişlənmiş və sonralar digər ölkələrə də yayılmışdır. XVIII əsrin sonlarından başlayaraq, industrial cəmiyyətlərin geniş inkişafı ilə əlaqədar olaraq ictimai rəy daha geniş təhlillərə məruz qalmışdır.
XVIII əsrin məhsulu olan ictimai rəy anlayışının meydana çıxmasında Jean Jacques Rousseau, John Locke və Hobbes-ın fikirləri olduqca vacibdir. Siyasi fikirlərini “Leviathan” adlı əsərində ifadə edən Hobbes, siyasi haqqı təbii haqq üstünə, təbii haqqı da insanın yaradılışı üstünə qurur. Hobbesə görə mənfəət, insanlar təbiət halında ikən haqqın ölçüsüydü və insanlar arasında təbii haqların bərabər olmasından müharibə yaranmaqda idi. [43, s.105-106]

İctimai rəy ifadəsi ilk dəfə 1741-ci ildə “xalqın düşüncəsi” mənasında İngilislər tərəfindən istifadə olunmuşdur. Fransada isə bu ifadəni ilk dəfə 1744-cü ildə J.J.

Rousseau “cəmiyyətin münasibəti” mənasında istifadə etmişdir. Sənət və elm sahəsində söylədiyi bir məqaləsində ictimai rəy anlayışını fərqli bir şəkildə təsəvvür edən Rousseau “ hər birimiz bütün şəxsiyyətimizlə güclərimizi ümumi rəyin idarəsinə verdik, biz bütün üzvlər bir bütün olaraq birliyimizin ayrılmaz hissəsiydik ” deyərkən ictimai rəyin əhəmiyyətli bir güc olduğuna diqqət çəkirdi. Rousseau, ictimai rəyə siyasi, mədəni və cinayət qanunları ilə yanaşı, daha da vacibi dördüncü qanun olaraq baxırdı: “ Bu üç cür qanuna hamısından daha vacib olan dördüncü qanunda əlavə olunur. Bu qanun mərmərə, tunca yox, insanların ürəklərinə iz qoyur, dövlətin real konstitusiyası olur, hər gün daha da güclənir, köhnələn və ya yox olan qanunlara can verir, ya da onları əvəzləyir, əmr gücünün yerinə zamanla vərdiş gücünü qoyur. Bu bəhs etdiyim şey əxlaq, adətlər və xüsusilə ictimai rəydir”. [18, s.67]

İngiltərədə ictimai rəy ilə əlaqədar qabaqcıl araşdırmaları William Temple aparmışdır. Araşdırmalarında birbaşa “public opinion” ifadəsini işlətməsə də, ümumiyyətlə xalq rəyindən danışmışdır. İctimai rəyin rolunu anlayan və ifadə edən ilk dövlət məmuru Fransız krallığının maliyə naziri olan Jacques Neckerdir. Necker 1780-ci illərdə ictimai rəy konsepsiyası ilə bağlı fikirlərini belə ifadə edib: “İctimai həyata hakim olan zehniyyət, hörmət və təriflənməyə göstərilən maraq, Fransada seçkin insanların qarşısına çıxmağa məcbur edən bir məhkəmə sistemini yaratmışdır. Bu məhkəmənin adı ictimai rəydir. Yüksək bir taxtda qurulmuş kimi görünən bu məhkəmə, bəzilərinə tac, bəzilərinə hədiyyələr paylayır. Şöhrətli etmək də, onları unutdurmaq da onun əlindədir”. [46, s.52] Necker ictimai rəyin sosial həyatda öhdəliyinə götürdüyü rolu bu üsulla izah etmişdir. Hökümətin maliyyə siyasətinə dəstəkləmək və dövlətə borc verənlərin etibarını qazanmaq üçün hökümət hesablarını nəşr edən Neker, “sadəcə nəzəri cəhətdən düşünənlərin, ictimai rəyin əhəmiyyətinə diqqət yetirməkdə müvəffəqiyyətsiz olduqlarını” söyləyərək ictimai rəyin əhəmiyyətini vurğulamışdır.

Ümumiyyətlə, bu dövrün filosoflarının fikirlərinə baxdıqda, ziyalıların bəzilərinin ictimai rəylə razılaşdığını və faydalarından bəhs etdiklərini, bəzilərinin isə ictimai rəyin zərərli və pis gördükləri xüsusiyyətlərinə diqqət çəkdiklərini görürük. Burjua düşüncəsini dilə gətirən filosoflar ictimai rəy haqqında mənfi fikirlər bəyan edərkən, əslində öz təbəqələrinə əks olan təbəqələrin ictimaiyyət içərisində güc qazanmalarına qarşı müxalif olmaqdadırlar.

Fransa inqilabının təsiri ilə XIX əsrdə ictimai rəy anlayışı müəyyən təbəqələrin ortaq fikri olaraq şərh edilməyə başlanılmışdı. Bu əsrdə bir çox yazıçı və filosofa görə ictimai rəy, seçici təbəqənin təmsilçiləri, qəzetlər və orta təbəqənin seçilən üzvləri, ya da dərnəkləri tərəfindən bəyan edilən fikirlərdən ibarətdir. XIX əsrin başlanğıcına qədər daha çox fərdi şüura hökm edən, məçhul bir güc şəklində təsəvvür edilən ictimai rəy, Fransa inqilabından sonra ictimai həyata, güclü bir ünsür olaraq daxil olmağa başlamışdır. Filosofların bir çoxu ictimai rəyi dövlətin fəaliyyətini nəzarətdə saxlayacaq, dövlətin gücünün sui-istifadəsinin qarşısını ala biləcək tək qüvvət olaraq azad şəkildə görmək həvəsindədirlər. Ancaq bəzi alimlər xalq hakimiyyətini geniş miqyasda qüvvətləndirən bu axının yerinə görə təhlükə yarada biləcəyini gözdən qaçırmamışdılar. İctimai rəyin müasir dövrdə daha çox Fransada əhəmiyyət qazanması təsadüf deyildi. İctimai rəyin formalaşması fərqli hissləri olan insan toplusunun meydana çıxmasına, dəyişən şəraitlərə və hadisələrə görə fərqli münasibət göstərmələrinə və düşündüklərini müzakirə etmələrinə bağlıdır.

Hegel XIX əsrin başlanğıcında ictimai rəy barəsindəki əhəmiyyətli fikirlərini "Hüquq fəlsəfəsinin əsas yönləri" adlı əsərində qeyd etmişdir. Hegelə görə ictimai rəy, xalqın istəklərini və fikirlərini müxtəlif vasitələrlə əks etdirən bir yoldur. Marks isə ictimai rəyin yanlış bir şüurun məhsulu olduğunu, burjua təbəqəsinin fikrinin bütün ictiamiyyətin fikri kimi təqdim edilməsinə səbəb olduğunu vurğulayırdı. Alman tarixçisi Hermann Oncken 1904-cü ildə yazdığı bir

məqaləsində isə qeyd edirdi ki, davamlı dəyişən halda qeyri-sabit olan bir şeyi bir təriflə həbs edib qavraya bilmərik; lakin bununla belə nəticədə kimdən soruşsanız, ictimai rəyin hansı məna kəsb etdiyini hamı bilmiş olacaqdır. [2, s.83]

XIX əsrin ikinci yarısından etibarən əsas hüquq və azadlıqların geniş yayılması, ən böyük qərarların və məhkəmə orqanlarının əsasında xalqın iradəsinin dayandığını iddia edərək tezislərin irəli sürülməsi ictimaiyyətin gücünü daha da artırmış oldu.XIX əsrin sonlarında dövlətin özünü açıq müdaxilə xüsusiyyətləri ilə biruzə verdiyi bütün situasiyalar şəxsi və ictimai həyatla birləşməyə gətirib çixardı. Yaranmış yeni situasiya ictimaiyyətin sosial strukturunun dəyişməsinə, ictimai həyatla şəxsi həyatın bir-biri ilə daha yaxından differensiallaşmasına şərait yaratmış oldu.

İctimai rəy anlayışı XX əsrin əvvəllərindən etibarən elm adamlarının diqqətini daha yaxından özünə cəlb etməyə başladı. Buna səbəb XVIII və XIX əsrlərdə sənayeləşmənin, urbanizasiyanın, demokratikləşmənin, kütləvi informasiya vasitələrinin yayılmasının ilə ictimai rəy anlayışınıda eyni zamanda meydana gətirilməsi olmuşdur. XVIII əsrdən əvvəl xalqın fikirlərinə çox az diqqət edən, mövcud hakimiyyəti tənqid edən hərəkətləri güc tətbiq etməklə qarşısını almağa cəhd edən Avropadakı siyasi güclər, XIX və XX əsrlərdə baş verən demokratik inkişaf prosesləri nəticəsində bu qənaətlərini dəyişməyə məcbur oldular. XIX əsrdə bir çox ölkələrdə ümumi səsvermə hüququ üçün gedən mübarizələrin nəticəsində XX əsrin əvvəllərindən etibarən dünyanın bir çox yerlərində seçkilər, parlament və başqa sistemlər vasitəsilə xalqla məsləhətləşmənin bünövrəsi qoyuldu və ictimaiyyətin alt təbəqələrindən olan insanlara səsvermə hüququ verildi. İndi artıq hökümətlər öz siyasətlərini formalaşdırarkən və proqramlarını yaradarkən, ictimaiyyətin rəyini diqqətlə nəzərə almağa başladılar. Bu zaman demokratik ölkələrdə ictimai rəyin vacibliyini vurğulamağa ehtiyac yox idi, çünki

demokratik sistemlərdə namizədlər və siyasi partiyalar seçki yolu ilə hakimiyyətə gəlir və seçkini qazanmaq üçün də ictimai rəyi razı salmağın zəruriliyini bilirdilər.

Bildiyimiz kimi qərb demokratiyasında olan ifadə azadlığı siyasi iqtidar tərəfindən formalaşdırılan və davam etdirilən bir ictimai sahə hesab edilir, yəni bu təsisatlar öz-özünə yaranmamışdır. Bu sahənin mövcud olması üçün siyasi iqtidarlar XIX və XX əsrlərdə intensiv olaraq təhsil, ünsiyyət və hüquq sahəsində çoxlu sayda araşdırmalar aparmışdırlar. Lakin bununla belə ictimai rəy hələdə xüsusi əhəmiyyət kəsb etmirdi, odur ki onların siyasi hakimiyyət tərəfindən istiqamətləndirilməsi o qədər də çətin deyildi. Qərb ölkələrində iqtidarlar ictimaiyyətin fikrini, hadisələrə və problemlərə reaksiyalarını istədikləri şəkildə formalaşdırmaq üçün müxtəlif mexanizmlərdən istifadə edirdilər. XIX və XX əsrlərdə qərbdə yaradılan "sərbəst düşüncə platforması" ictimaiyyətdəki imtiyazlı təbəqənin inam və düşüncələrinin geniş formada yayılmasına səbəb oldu; əksinə, alt zümrə və təbəqənin ideoloji və mədəni azadlıqları isə xeyli məhdudlaşdırıldı. İctimaiyyətdə gedən struktur dəyişiklikləri fərdi təşkilat və ölkələr üzrə xeyli müxtəlifliyə məruz qaldı, hər bir ictimaiyyətin özünün fərqli cəhətləri formalaşmağa başladı. Beləliklə, ictimai islahatlar fonunda əhalinin dərin təbəqələrində gedən müxtəlif sosial-psixoloji, iqtisadi, hüquqi və demoqrafik dəyişikliklər fərqli düşüncə və həyat tərzlərinin meydana gəlməsi bir tərəfdən əhali üçün daha ümumi görünən xüsusiyyətləri formalaşdırdığı kimi, digər tərəfdən də onların müstəqil düşüncə tərzlərini və fərqli reaksiya sistemlərinin baş qaldırmasına stimul yaratdı. Bu isə, başqa sözlə desək, ictimai rəyin ən ümdə xüsusisiyyətlərinin artıq formalaşmasını sübut edən bir tarixi fenomen və hadisə idi.

## 1.2. İctimai rəy nəzəriyyəsi

İctimai rəy anlayışı latın dilindəki “publicus” və “opinion” sözlərindən yaranıb Qərb dillərinə keçən və İngilis dilində “public opinion” şəklində ifadə olunan bir istilahdır. İctimai rəyin müasir mənasına daha yaxın olan ifadə isə Romada yaranmışdır və bu, “consensus populi”, yəni xalqın səsi ifadəsi kimi Romada Orta əsr hüquqşünasları tərəfindən istifadə olunmuşdur. [43, s.107]

Hüquqi sistemlərin meydana gəldiyi Qədim Şərqdə bu anlayış daha çox yurisdiksiyada və ya insan hüquqları ilə bağlı olan sahələrdə daha çox istifadə edilirdi. Məsələn, ilk olaraq Romada meydana gəlmiş “On iki cədvəl” Qanununda ictimai və fərdi hüquqlardan söz açılmışdır və onların fərqli çəhətləri müxtəlif qanunlarda öz təcəssümünü tapmışdır. Təbii olaraq, Orta Əsr Şərqinin insan cəmiyyətlərinin bir toplum kimi idarə olunmasında ümumi ortaq rəyin formalaşması mühüm əhəmiyyətə malik olmuşdur, çünki cəmiyyətin harmonik inkişafı yuxarı təbəqələrin üstünlüklərini kilsə vasitəsilə avtomtik olaraq həyata keçiriridi. Yazılı qanunlar mövcud olmasa belə, Qədim Şərq dövlətlərində, Misirdə, Babilistanda, Çində, Hindistanda və digər ərazilərdə insan toplusu, aşağı təbəqənin fikri, qul və quldarın bir-birinə münasibətlərində tənzimləyici “mühit” olacaqlarından daha tez-tez istifadə edilməyə başlanılmışdı.

İctimai rəy anlayışı haqqında uzun illər xeyli sayda müxtəlif definisiyalar təklif edilmişdir; bəzi qrup tədqiqatçılar bunu xalqın ümumi fikri, xalqın səsi, digərləri isə xalqın siyasi məsələlərlə bağlı mövqeləri kimi şərh etməyə çalışmışdılar. İctimaiyyət ifadəsi çox vaxt xalq ifadəsi ilə eyniləşdirilirdi, lakin qeyd olunmalıdır ki, xalq bir bütövlüyü ifadə etdiyi halda, ictimaiyyət onlardan bir qrupunu ifadə edir.

İctimai rəyin indiki mənasına daha yaxın və bu anlayışa uyğun olan latın dilindəki atalar sözü - “vox populi vox dei” - xalqın səsi- haqqın səsi ifadəsi o dövr üçün ziyalılar arasında çox məşhur olmuşdur. İctimai rəyi daha dərindən araşdırmaq üçün ictimaiyyət konsepsiyasını təhlil etmək gərəkdir. Bugün sosioloqlar

ictimaiyyət ifadəsinə sinonim kimi qrup ifadəsindən daha geniş istifadə edirlər ki, onun da ən əsas iki xüsusiyyəti qarşılıqlı təsir və davamlılıqla əlaqədardır. Bir qrupun ictimaiyyət olaraq müəyyən edilməsi üçün onun aşağıdakı xüsusiyyətlərə malik olması vacib hesab edilir:

- İctimaiyyət bir problem ətrafında gedən müzakirə hesabından mövcuddur;
- İctimaiyyəti formalaşdıran fərdlərin hər zaman bir-biri ilə daim sıx əlaqədə olması mühüm atribut hesab edilmir;
- İctimaiyyət, aktiv və passiv üzvlərdən ibarətdir;
- İctimaiyyət inkişaf etdikcə onun böyüklük ölçüləri və şəkli dəyişir;
- İctimaiyyət anlayışı, adətən problemlə birlikdə ortaya çıxır və problemlə birgə də yox olur.

Başqa sözlə desək, ictimaiyyət müəyyən bir hadisə və ya problem ətrafında müəyyən bir zaman çərçivəsində formalaşan bir qrup insan toplumundan ibarətdir. Bəzən az sayda iştirakçı ilə formalaşa bilən ictimaiyyət, bəzən də cəmiyyətin böyük bir qismini maraqlandıran mövzu ətrafında geniş iştirakçı ilə formalaşır. [19, s.45]

İctimaiyyətin fikrini necə müəyyən etdiyindən asılı olmayaraq, ictimai rəy barəsində tədqiqat aparmış demək olar ki, bütün araşdırmaçılar bir fenomenin ictimai rəy kimi qəbul edilməsi üçün aşağıdakı dörd şərtin vacibliyi barəsində daim yekdil fikirdədirlər. Beləliklə, ictimai rəy üçün mütləq mənada:

1. Bir aktual problem mövcud olmalıdır;
2. Qrupdakı insanlar bir-biri ilə qarşılıqlı ünsiyyətdə olmalıdırlar;
3. Fərdlər ayrı-ayrılıqda deyil, müəyyən məsələ barədə qrup şəklində ortaq bir fikrə malik olmalıdırlar;
4. İfadə edilən fikrin həyata keçirilməsində qərar mexanizmi fərqli ictimai fikirləri bir məqsəd ətrafında toplamaq istəyini yaratmalıdır.

Əvvəllər müəyyən bir problemlə qarşılaşan insanlar, analiz etdikləri məlumatlar əsasında şüurlu və rasional ictimai rəy formalaşdırdıqlarını düşünürdülər. Lakin

daha sonra aparılan araşdırmalar, konkret ictimai problem barəsində yaranan rəyi, əvvəlcədən ictimaiyyətə aid "formalaşdırılmış" rəyin təyin etdiyini müəyyənləşdirdilər. Odur ki, ictimai rəy anlayışına yalnız bir və sadə tərif vermək o qədər də asan deyildir. Bu baxımdan, elmi araşdırmalar ictimai rəyin müxtəlif istiqamətlərini vurğulayan bir çox fərqli konsepsiyaların mövcudluğunu irəli sürdülər və bunun nəticəsində və bununla da ictimai rəy anlayışının mahiyyət və strukturunu bir az da təkmilləşdirdilər. Məsələn, ABŞ-ın ictimai rəy üzrə alimləri ictimai rəy nəzəriyyəsi haqda danışarkən qeyd edirlər ki, "buna dair sistemli nəzəriyyə bütöv olmalıdır. Burada iştirak edən hər hansı bir qüvvə, dəyişən kəmiyyətlər və davranış bütöv sistem çərçivəsində mütləq olaraq müstəqil surətdə nəzərə alınmalıdır...(1) münasibətlər elə formada strukturtulara bölünməlidir ki, bir münasibətin dəyişməsinin o birisinə təsiri nəzərə alınsın və (2) münasibətlər sistemi daxilində mövcud qüvvələrin özlərinin sistemə necə nüfuz etməsi görünsün." [21, p. 341]Ictimai rəy nəzəriyyəsini formalaşdırarkən mütləq olaraq həm qüvvələr balansı, həm də bu bərabərliyin əldə olunması üçün sistemdə gedən proseslər doğru və düzgün olaraq qiymətləndirilməlidir, əks təqdirdə, yanlış yanaşma bütövlükdə yaranmış nəzəriyyənin həqiqətə uyğunluğu arasında uçurum yaradar və bu nəzəriyyəni heçə endirə bilər.

İctimai rəy nəzəriyyəsində ümdə cəhətlərdən biri də, nəzarətin bu sistemə sabitlik gətirən mexanizmlərini düzgün nəzərə almaqdır. Burada sitemə nəzarətdə baş verən hər bir dəyişiklik və "titrəyiş", ritorik şəkildə desək, mühüm və əhəmiyyətli rola malikdir. Odur ki, burada vaxt çərçivəsi və ictimai rəy doğuran problemlərə reaksiya sistemi həlledici hesab edilir.

Nəhayət, qeyd olunmalıdır ki, ictimai rəy sistemi elə bir işdir ki, buraya daxil olan bütün komponentlər məlum olmalı və nəzərdən qaçmamalıdır; bütün güc və enerji imkanları dəyərləndirilməli və geniş mənada hətta xarici mühitdə baş verən və baş qaldırıla biləcək istənilən transformasiyalar, fikirlər, çaşdırıcı amillər, koqnitiv psixoloji proseslər və onların yaratmış olduğu bütün implikasiyalar sistemin

daxili strukturunda xüsusi olaraq qeyd olunmalıdır. Beləliklə, əgər biz bu deyilənləri təsvir etsək, ictimai rəy nəzəriyyəsinin struktur elementlərini aşağıdakı şəkildə qruplaşdıra bilərik:

1) İctimai  rəy bir sistem kimi;
2) İctimai rəy bir proses kimi.

İctimai rəyin morfoloji təhlil göstərir ki, bu tərkibə qarışıq şəkidə bir-biri ilə qarşılıqlı şəkildə çulğalaşmış və bir-birinə diffuz etmiş müəyyən faktorlar mövcuddur:

- İctimai rəyin bütövlüyü faktoru;
- İctimai münasibətlərin sinxron durumu;
- Bu münsibətlərin bütövlükdə ictimai rəy sisteminə diffuziyası;
- İctimai rəydə mövcud olan qüvvələr balansı;
- İctimai rəyə sabitlik və qarışıqlıq  gətirən mexanizmlər;
- Ətraf "mühitdə" baş verən və baş qaldıra biləcək psixoloji-emosional və koqnitiv proseslər.

Göründüyü kimi "ictimai rəy sosial və kommunikativ bir prosesdir, odur ki, ictimai müzakirənin daha geniş kontekstində, fikirlər həm formadan, həm də məzmunda asılı olaraq yaranır." [56, p. 98]

İndi isə ictimai və siyasi ədəbiyyatda, xüsusilə Avropa mənbələrində daha çox rast gəlinən bir məsələ - "bully pulpit" və ya " prezident tribunasından danışmağa imkan verməklə mənəvi lider olmaq metodu" haqda bir neçə təhlillər aparmaq istərdik.Hazırda, bu metodddan ictimai rəy yaradılması məsələsində 2 istiqamətdə geniş istifadə edilir. Birincisi, dünya praktiksında, iri və inkişaf etmiş dövlətlərin bu metodla daha zəif və az inkişaf etmiş dövlətlərdə gedən müxtəlif ictimai-siyasi və iqtisadi proseslərə yanaşmada ideoloji silah kimi istifadə etdiyi amillərlə bağlıdır. Bu xüsusilə, öz məqsədləri üçün böyük dövlətləri istifadə etdiyi ideoloji cəbhəxanaya daxil olan "işğaldan əvvəli" hər hansı bir seçilmiş sosial birlik

timsalında dünyada mənfi imic və rəy yaratmaq taktikasında özünü biruzə verir. Məsələn, İraqın tamamilə işğalı üçün onun ərazisində guya “kimyəvi silah ambarlarının mövcudluğu, kimi ideyalara ictimaiyyətə ötürülməsi və rəy yaradılması bu qəbildən olan taktikalardan hesab edilir. İkincisi, “bully pulpit”-dən ayrı-ayrı ölkələrin praktisaında ölkədaxili “münasibətləri və rəyləri” “nizamlamaq üçün olan praktika” ilə bağlıdır. Hər iki halda beynəlxalq hüququn uzun illərdən bəri formalaşan prinsipləri haqda açıq tribuna verilirdi. Yeri gəlmişkən qeyd edilməlidir, bu praktikadan hal-hazırda da beynəlxalq və lokal imkanlarda geniş istifadə edilir. Məsələn, bu praktika Rusiyada, xüsusi olaraq prezident seçkiləri zamanı geniş yayılmış fəaliyyət növü hesab edilir.

İctimai rəy nəzəriyyəsində media növünün seçilməsi və zamana görə onun dəyişməsi artıq qəbul edilmiş və geniş praktika olunan bir metod hesab edilir. Məsələn, ABŞ-da “Teoder Ruzveltin prezidentliyi dövründə kommunikasiya texnologyaların rolu üstün olaraq dəyərləndirilirdi. Lakin Ruzveltin insanlarla təmas quracağı əsas vasitə kağız və ya qəzet, jurnal mediası olmuşdur.” [21, p. 263] Lakin, 2006-cı ildə Twitter şəbəkəsi yaradıldıqdan sonra kommunikasiyanın platformasında ciddi dəyişikliklər meydana gəldi və bu siyasi mirasdan siyasi oyunlarda daha geniş istifadə olunmağa başlandı. [21, p. 264]

İctimai rəy anlayışını araşdıran İsveçrədə doğulan və sonradan Fransda yaşamış alim Jean Jacques Rousseau (1712-1778) üçün ictimai rəyin mənəviyyat qoruyuculuğu cəmiyyətin birliyi üçün nə qədər faydalıdırsa, fərd baxımından da bir o qədər zərərlidir. Rousseau’nun ictimai rəyi həm vacib, həm də zərərli olaraq dəyərləndirməsi ziddiyyətli görünsə də, əslində bu deyimdə o, fikirləri məqsədyönlü şəkildə ən vacib tərəfə yönəltmişdir. Rousseauya görə ümumi iradə ən doğru və ən ədalətli iradədir; o, problemlərin həllində əsaslı təsirə malikdir. [18, s.76] Demokratik təsisat olmaq etibarilə, ictimai rəy hansı siyasi, hüquq, əxlaqi məsələlərlə bağlı formalşmasından asılı olmayaraq o, həmişə irəli sürülən,

təklif edilən problemlərə münasibəti təcəssüm etdirir. Bəyənmə və ya pisləmə, arzu və ya tələb formasında münasibət ictimai rəyin ən əhəmiyyətli əlamətlərindən biridir.

Siyasi demokratikləşmə prosesində ictimai rəyin digər dəyərlərindən biri ondan ibarətdir ki, o, vətəndaşların ümumi maraqlarına toxunan problemlərlə əlaqədar formalaşır və onları maraqlandıran məsələlərə münasibətdə mövcud olan fikir ayrılığından irəli gəlir. Demokratik ictimai rəyin dəyərli əlaməti ancaq ondan ibarətdir ki, vətəndaşlar öz rəyini açıq və şəffaf şəkildə bildirir və müdafiə edir; bu, həmçinin onunla səciyyələnir ki, o necə və nə dərəcədə geniş yayılmış olur və hansı maştabda cəmiyyətin bütün qatlarına diffuziya etmiş olur.

İctimai rəy öz təbiəti etibarilə subyektiv xarakter kəsb etsə də, o. elmi biliklərin yüksək səviyyəsinə yönəlmək qabiliyyətinə də malikdir. Hegelin belə bir fikrini xatırlatmaq yerinə düşərdi ki, xalq dövlətin üzvlərinin elə hissəsidir ki, nə istədiyini bilmir. Bu mənada, ictimai rəydə xurafat və yanlış fikir ön plana keçir. İctimai rəy insanların adi şüurunu ifadə edən mülahizə olduğu üçün elmi müddəaya əsaslanmır. [19, s.47] İctimai rəyin mahiyyətindən çıxış edərək belə bir mülahizə yürütmək olar ki, bu fenomen ilk öncə insanların müəyyən birliyinin bu və ya digər obyektə dair gəldiyi qənaətdlərin məcmusudur, insanların özünəməxsus düşüncəli fəaliyyəti və davranışıdır.

İctimai rəyin formalaşması meyarının seçiminə məhz ictimai mənafe və tələbat xidmət edir. "İnsan elə ictimai münasibətləri yaxşı hesab edir ki, onun üçün faydalıdır, elə münasibətləri pis sayır ki, bunlar ona zərərlidir". [1, s.65] Bu baxımdan, hər cür qrup və kollektivin rəyi deyil, məhz sosial mənafeyin meyarına uyğun gələn rəy ictimai rəy hesab olunur.

Rəy sayəsində vətəndaşların davranışının demokratik sosial normaları müəyyənləşdirilir və təmin olunur, eləcə də münasibətlərin tənzimlənməsində inandırma metodunun tətbiqi həyata keçirilir. Bu baxımdan, demokratik cəmiyyətin rəyi ancaq informasiya növü kimi səciyyələnmir, o eləcə də vətəndaşlar tərəfindən sosial idarəetmə funksiyalarının həyata keçirilməsinin çox əhəmiyyətli vasitəsidir. İstər-istəməz rəy cəmiyyətinin sosial tənzimlənməsi və idarə olunması sisteminə qovuşan bir strukturdur.

İctimai rəyin demokratik məqamlarından digəridə, onun siyasət və hakimiyyət münasibətləri sistemində fəaliyyətidir. Odur ki, onun hakimiyyət təsisatlarına təsir üsulları və formaları tamamilə çoxcəhətlidir: o, hakimiyyət təsisatlarının fəaliyyətini adi şifahi qaydada bəyənməkdən və ya pisləməkdən tutmuş, onlara birbaşa, məqsədyönlü təzyiqə qədər, hakimiyyət daxili münasibətlərin dərindən yenidən təşkilinə təsir göstərmək qabiliyyətindədir. İctimai demokratik rəy məhz daha çox hakimiyyət və siyasət sferasında xeyli kəskinliyi və dinamikliyi ilə təzahür edir. [7, s.11] Bu cəhət xüsusilə demokratik dəyərləri ehtiva etməkdə keçid dövrü yaşayan transformativ cəmiyyət üçün xüsusilə səciyyəvidir. Belə cəmiyyət adətən dövlət hakimiyyəti strukturlarının, demokratik təsisatların, siyasi və iqtisadi sferanın qeyri-sabitliyi ilə fərqlənir.

İctimai rəyin ən geniş yayılan, siyasət və hakimiyyət problemlərinə toxunan funksiyası qiymətləndirmə funksiyasıdır. Bu funksiya rəsmi hakimiyyət təsisatlarının və onların liderlərinin fəaliyyəti, məşhur siyasi hadisələr, cəmiyyətdə təşəkkül tapan situasiyanın xarakteri ilə əlaqəli olduğundan, məhz elə onlar haqqında da qiymətləndirici mülahizələr və fikirləri vasitəsilə əks olunur. Qiymətləndirmə funksiyası ilk öncə mütəşəkkil formada, ictimai rəy sorğusu yolu ilə müxtəlif ictimai təşkilatlar, partiyalar, hərəkatlar, qeyri-dövlət sifarişçiləri vasitəsilə aşkarlanır və üzə çıxarılır. [48, s.78] İctimai rəy hakimiyyət münasibətləri sferasında tez-tez öz nəzarət funksiyası vasitəsilə reallaşır. Bu funksiyanın özünəməxsusluğu ondan ibarətdir ki, ictimai rəy praktiki olaraq özü

üçün əhəmiyyət daşıyan bu və ya digər məsələyə dair müəyyən mövqedən çıxış edərək hakimiyyət orqanlarının və onların rəhbərlərinin müvafiq fəaliyyətində ümumi qənaəti formalaşdıran məsələləri cavablandırır. Bu vaxt, cəmiyyət siyasi demokratiyanı öyrənir, onun mahiyyətini, sosial-siyasi dəyərlərini mənimsəməyə səy göstərir, lakin demokratik təlim prosesi kifayət qədər uzun tarixi proses olduğu üçün, onu süni formada deyil, məhz rassional səviyyədə və məqsədyönlü şəkildə sürətləndirmək olar. Bir sözlə, demokratiya labüd tarixi zərurətdir, bəşəriyyətin rifahı, cəmiyyətin yenidən təşkili, təkmilləşməsi üçün lazımlı bir sistem və təsis edilmə formasıdır.

Bu gün, dünya təcrübəsini dəyərləndirərkən, bir qənaət hasil olur ki, siyasi demokratikləşmə prosesinə nüfuz edən cəmiyyət birincisi, öz vətəndaşlarının və idarəetmə orqanlarının qanun qarşısında real bərabərliyini təmin etməyə məsuldur. İkincisi, cəmiyyət və vətəndaşlar hüquqa zidd hərəkətlərdən sığortalanmış olmalı və müdafiə olunmalıdırlar. Üçüncüsü, demokratik formalar və birgə yaşayış normaları təkmilləşdirilməlidir. Dördüncüsü, formal elan olunmuş və real fəaliyyətdə olan ictimai münasibətlər, hüquq, idarəetmə uyğunlaşdırılmalıdır. Beşincisi, insana hörmət, onda insani ləyaqət hissi və idarəetmənin bütün formalarına, həmvətənlərinə əsil inam hissi tərbiyə edilməlidir. Altıncısı, müxtəlif ictimai qrupların və vətəndaşların ayrı-ayrı kateqoriyalarının, hakimiyyət və dövlət orqanlarının imtiyazları ləğv edilməlidir. Yeddincisi, cəmiyyət mədəniyyət sferasında, mənəvi həyatda, yaradıcılıq sahəsində himayəçilikdən uzaq olmalıdır. Nəhayət, cəmiyyət üzvlərinin yerli mərkəzi və eləcə də iqtisadi idarəetmə orqanları ilə müntəzəm əlaqəsi həyata keçirilməlidir. [7,s.7] Ümumiyyətlə, demokratiyanın inkişafı və dəyərləri ictimai nəzarətin sosial funksiyası ilə, eləcə də obyektiv ictimai tənqidlə şərtlənir. Bu cəhət ictimai tərəqqinin hərəkətverici qüvvəsi kimi səciyyələnir.Adətən bu nəzəriyyənin ən mühüm vəzifələrindən biri olan obyekt və subyekti bir-birindən fərqləndirirlər.

İctimai rəyin əsasını təşkil edən sosial qiymətləndirmə subyektin obyektə olan münasibətidir, subyekt isə qiymət verən tələb hesab olunur; odur ki, onun substraktı adətən elə onun daşıyıcısı kimi təzahür edir. Məhz bu baxımdan o bütün insan birliklərinə və qruplarına şamil olunur və ümumilikdə cəmiyyət və ya onun ayrılıqda götürülmüş bir hissəsi və hətta tanınmış ictimai fiqurlar da ictimai rəyin subyekti rolunda çıxış edə bilir.

Onun obyekti isə xeyli sayda fərqli və müxtəlif hadisələr, bu hadisələrin müzakirəsi ilə bağlı problemlərlə əlaqədardır. Odur ki, bu obyektlər özləri çoxtərəfli ictimai hadisələrdə və onların yaratdığı müxtəlif ictimai ekspressiyalardan ibarətdir. İctimai rəyin obyektiv-subyektiv əlaqəsi birgedişli və sadə quruluşdan ibarət deyildir və o, mürəkkəb tərkibə malik olmaqla rəngarəng ictimai - sosial hadisləri təcəssüm etdirir. Bu, bir tərəfdən ictimai rəyin kvontativ -kəmiyyət göstəriciləri ilə əlaqəsini göstərdiyi halda, digər tərəfdən onun rəngarəng keyfiyyəti -kvolitativ xüsusiyyətləri ilə bağlıdır. Hansı ictimai zümrənin tələb və təklifləri bu məcmuda çox iştirak edirsə, o tərəfin göstəriciləri üstünlük təşkil edir; yəni, ictimai rəyə verilən dəyər öz obyektivliyi, təkrarolunmazlığı ilə təzahür etdiyindən, onu birtərəfli qiymətləndirmək düzgün olmazdı. Göründüyü kimi, müxtəlif mənafələr və fərqli sosial ictimai maraqlar onun səciyyəsində mühüm rola malikdir. Bu baxımdan onun qiymətləndirilməsi də xeyli müxtəlif zümrələr tərəfindən fərqli dəyərlərlə qiymətləndirilə bilər.

İctimai rəy müəyyən səviyyədə kollektiv və icma mövqeləri ifadə edir; başqa sözlə desək, ictimai rəyin formalaşması üçün “əlverişli mühit” real şərait yaranmalıdır. [3, s.19] Müxtəlif tarixi dönəmlərdə oxşar hadisələr və proseslər fərqli ampulalarda müzakirə edilir və dəyərləndirilir. Göründüyü kimi, bu, həm obyektiv, həm də subyektiv səbəblər üzündən baş verə bilər və bu cəhətdən də ictimai diqqətin müəyyən məsələlər üzərində mərkəzləşməsi onlara bir aktuallıq

gətirir.

Beləliklə, "ictimai rəyin sosial mahiyyəti bundadır ki, o, insanların fikir və hisslərini, praktik fəaliyyətini daxili vəziyyətin və beynəlxalq həyatın ən mühüm tərəflərinə yönəldir, insanları onlara qiymət verməyə sövq edir, onları bu tərəflərini qoruyub saxlamaq və ya möhkəmləndirməyə…səfərbər edir". [3, s.19]

İctimai rəyə hələ Orta Əsrlərdə onun ilk intişar dövründən başlayaraq (XIIəsr)elm sahələri tərəfindən çoxtərəfli yanaşmalar mövcud olmuşdur. Onlardan biri də lap sonralar Qabriel Tardın (1843-1904) "İctimai rəy və yığıncaq" əsəri ilə təqdim olunmuşdur. O, ictimai rəydə "publika"-nın rolunu xüsusi vurğulamışdır. A.O.Louellin "İctimai rəy və xalq hökuməti" əsərində isə bu anlayışın ictimai təbiəti və ona yanaşma üsullarından bəhs edilir və göstərilir ki, tərkib elementlərinə görə bu konsepsiyada aşağıdakı elementlər mühüm rol oynayır:

–qərar qəbul edərkən ictimai rəyin kompetentlik dərəcəsi və onun sərhəd xətləri mövcud olmalıdır;

–çoxluq və azlığın bu rəylərə münasibətində proporsiyalı müqayisədə iştirak edir;

–ictimai rəyin ekspressivliyi aparıcı olur. O, qət etmişdir ki, ictimai rəy hökumətə təsirdə müəyyən limitlərə malikdir, çünki bu rəylər öz xarakterinə görə həmişə dövlətin qərarlarını dəyişmək kompetensiyasına malik olmurlar.

ABŞ-dan olan jurnalist Walter Lipmann (1889 - 1974 ) bu nəzəriyyəni daha da inkişaf etdirmiş və 1926-cı ildə yazdığı "Public opinion" kitabında göstərmişdir ki, "hər şeydə aparıcı və hər şeyə qadir vətəndaş" mifi tənqid olunmalıdır. [48, s.252]Göründüyü kimi, hər bir adam öz mənafelərini dərindən dərk etməyə də bilər və odurki, mətbuatı informasiya ilə tam eyniləşdirmək olmaz, çünki mövcud olan stereotiplət əksər hallarda bəsit məzmuna malikdir.O zənn edirdi ki, bu cür stereotiplər müəyyən zümrələrin davranışlarında daha çox aşkarlandığı üçün o, bütün cəmiyyətə aid ola bilməz. Ən azı ona görə ki, bu davranış trayektoriyaları daha çox daxili və "gəzən rəyin" əks-sədasından ibarətdir. "Faktlara çıxışı

məhdudlaşdıran əsas amillər" əsrində o, bu restriktif cəhətlərə, süni senzuranı, məhdud ictimai əlaqəni, ictimai işlərə az diqqət yetirməni, hadisələrin məhdud şərhini, böyük fikrin ifadəsində kiçik söz bazasının olmasını, insan həyatının müəyyən edilmiş qaydalarına təhlükə yarada biləcək faktlarla üzləşməyin qorxusuna aid etmişdir.

Digər qərb mütəxəssisləri ictimai rəyin təzahürlərinin seçki kampaniyaları müddətində daha çox müşahidə etdiklərini göstərirlər, çünki hakimiyyət uğrunda çəkişmələrdə mövcud sisyasi partiyalar dah çox ambisiyalarla çıxış edir. Odur ki, Walter Lipmann 1922-ci ildə yazdığı bir məqaləsində öz müşahidələrini belə açıqlamışdır: "…Siyasətçilər ictimai rəy üzərində xüsusi bir müəmma yaradır, ixtisaslı fikir tənzimləyiciləri isə seçki günü bu müəmmanın əksəriyyətin əldə etməsi zəruriətini yaxşı dərk edirlər.[48, s.256] Qeyd olunur ki, seçkilərdə namizədlərə münasibətdə insanların rəyinin daha çox qeyri-formal münasibətlərlə ölçülməsi və bu zaman "görüntü yaratmaq"kimi təhlillərin daha çox üstünlük təşkil etməsi seçici davranışlarını daha çox harmonik məcraya yönəltməyə hesablanır. Məsələn, "Qıf" konsepsiyasında seçkilərə yaxınlaşdıqca rəylərin daha çox fərdiləşdirilməsi, dar çərçivəyə sığınması müşahidə olunur. Bu zaman "susma spiralı" adı ilə məşhur olan nəzəriyyədə göstərildiyi kimi, partiyalardan birinin qələbə gözləməsi daim artan rejimdə irəlilədiyi halda üstünlük əldə edən partiyanın səsvermədə niyyətləri yenə də dəyişilməmiş qalır.
Politoloq V.O. Key ictimai rəyi "rəhbərliyi diqqətəlayiq dərəcədə zəkalı hesab edən xüsusi insanların fikirləri" kimi səciyyələndirmişdir. [15, s.39] maraqlıdır ki, hətta nə qədər lakonik görünsə belə, bu tərif kifayət qədər ətraflı və vacib elementləri ehtiva edir.

Tədqiqatçılar ictimai rəyin hökümət və dövlət idarəçiliyindəki xüsusi rolunu vurğulayırlar. Xüsusilə hökümət siyasətinin inkişafında, təkmilləşməsində ictimai rəyin əhəmiyyətinə ayrıca diqqət yetirilir. Əslində bəzi politoloqlar ictimai rəyi

milli iradə ilə bir tuturlar. Sosioloqlar isə bunun tam əksinə olaraq ictimai rəyi qarşılıqlı təsirin və ünsiyyətin bir hissəsi kimi göstərirlər. Bu fikrə görə, cəmiyyətin üzvləri, yəni vətəndaşlar qarşılıqlı təsirin və ünsiyyətin içərisində deyillərsə, heç bir ictimai rəydən söhbət gedə bilməz. Fərdlərin fikirləri bir-biri ilə çox yaxın olsa belə əgər fikirlər fərdlər arasında media, radio, televizor, internet vasitəsilə və ya üz-üzə paylaşılmırsa ictimai rəydən söhbət gedə bilməz. Eyni zamanda sosioloqlar eyni mövzuda fərqli ictimai rəyin yarana biləcəyini də söyləyirlər. Hər nə qədər bu ictimai rəylərdən biri digərlərinə nisbətən daha üstün ola bilərsə də, hökümət tərəfindən rəsmi siyasət olaraq mənimsənsə də, bu siyasi məsələlərdə başqa nizamlı ictimai rəyin olmadığı mənasına gəlməyir. Sosioloji yanaşma həmçinin siaysətə çox az və ya heç bir aidiyyatı olmayan məsələlərdə də ictimai rəyin əhəmiyyətli olduğunu vurğulayırdılar. Amerikalı tədqiqatçı İrving Crespi ictimai rəyin təbiətində qarşılıqlı təsir içərisində olmaq, çox yönlü olmaq və davamlı dəyişkən olmaq xüsusiyyətinin olduğunu vurğulamışdır. [15, s.67] Beləliklə, ictimai rəyə sosioloji, sosial-psixoloji və politoloji yanaşmalar mahiyyətcə xeyli müxtəlifdir. Əgər bir halda ictimai-sosial şərtlər həddən çox ehtiva olunurdusa, digər halda sosial-psixoloji məqamlar daha çox vurğulanırdı və ya siyasi ambisiyalar üstünlük təşkil edirdi.

XIX əsrin sonlarında, ictimai rəy mövzusunda araşdırma aparan elm adamları James və Baldwin sosial bir varlıq olan insanın münasibətlərinin və düşüncələrinin, ünsiyyət və ictimai həyat vasitəsilə formalaşdırıldığını dilə gətirdilər. James və Baldwin ictimai rəyi “fikirlər, fərdlər qədər qruplara da aiddir və sadəcə ayrı-ayrı fərd fikirlərinin toplusu deyil, qarşılıqlı ünsiyyətin və təsirin ortaq bir məhsuludur. XX əsrin başlanğıcında Cooley də qrupların düşüncələrini, fərdinkinə çox bənzər formada meydana gəldikləri fikrini irəli sürmüşdü. Buna görə də fərd problem ilə qarşılaşdığında, problem haqqındakı əsl düşüncəsinin nə olduğuna qərarlaşdırmadan əvvəl problemlə maraqlanır, problemə vaxt ayırır, problemlə əlaqəli düşüncələrini, hislərini aydınlaşdırır. İctimai rəy də problemin

nə olduğuna birlikdə qərar verən, problemin nə üçün ictimaiyyəti maraqlandırdığını soruşan və nə edilə biləcəyini araşdıran insan qruplarının içində yaranır. [39, s.82-83]

İctimai və şəxsi rəylərin dialektikası da xüsusi müzakirə mövzusu kimi xeyli maraq doğururdu və onaların "inkişaf etdirilməsində əsas məsələlərindən biri də ayrılıqda bir şəxsin bu seçimlər arasında gəldiyi əsas qənaət ziddiyyət doğuran məsələlərə münasibətdə şəxsin könüllülüyü və siyasi məsələlərə dair müzakirələrdə iştirakının tezliyindən asılıdır"[29, p.28].

Kapani ictimai rəyi, "müəyyən bir vaxtda, müəyyən bir mübahisəli problem qarşısında, "bu problemlə maraqlanan qrupa və ya qruplara məxsus olan qənaət" kimi izah edirdi. [13, s.147] Atabekə görə ictimai rəy, "bir qrup insanın kollektiv olaraq diqqətini çəkən problemlər haqqında xüsusi qərar mexanizmalarını aktivləşdirmək məqsədi ilə ifadə edilən fikirləridir".[11, s.86] Alankuş Kural da ictimai rəyi, "ictimai həyatda özünü ifadə etmə imkanı olan hakim çoxluqla müxalif azlıqların, ictimai və şəxsi həyatın müzakirəli problemləri ilə əlaqəli təkmilləşdirdikləri düşüncə, qənaət və fikirlər" olaraq təriflǝndirir.[8, s.11] İctimai rəyi yalnızca bu təriflərdəki kimi dəyərləndirsək bəzi nüansları gözdən qaçırardıq. Çünki insalar müəyyən mövzu barəsində fikir formalaşdırarkən bir çox təsir altındadırlar. Bunlara, fərdin şəxsi xüsusiyyətləri, fərdin daxil olduğu qrupdakı təsirli insanlar, cəmiyyətin siyasi və mədəni quruluşu, ətraf mühit və şəxsin aid olduğu qrupların fərdə təsiri daxildir.

Bəzi alimlər bu cəmi cəmiyyətin bütün və ya müəyyən seqmentlərinin fikirlərinin bir sintezi olaraq görüblər. Digər qisim isə fərqli və ziddiyyətli bir çox fikrin bir cəmi olaraq qəbul ediblər. Ümumilikdə, insanların sosial reallıqlara münasibətini əks etdirən və qeyri-formal fəaliyyət göstərən "kütləvi şüurunun" mövcud olması ictimai rəyi formalaşdıran əsas trendllərdən hesab edilir. Çünki burada

ayrı-ayrı fərdlərin və qrupların həyat hadisələrinə, bütölükdə “baş verənlərə” münasibətləri əks olunurdu.

## II FƏSİL. İCTİMAİ RƏYİ FORMALAŞDIRAN AMİLLƏR

### 2.1. İctimai rəyi dolayı yolla formalaşdıran vasitələr

Müəyyən bir mövzuda cəmiyyətin əhəmiyyətli bir hissəsini təşkil edən şəxslər tərəfindən qəbul edilən fikirlərin, münasibətlərin və inancların cəmi olan ictimai rəyin formalaşmasını dərk etmək və ona təhlil edərək şərh vermək üçün rəylərin, yəni insanların gəldiyi qənaətlərin necə formalaşması prosesini açıqlamaq gərəkdir. Ümumiyyətlə, belə bir ictimai qərarların formalaşmasında üç mühüm faktor rol oynayır: fərdlər, fərdlərin yaşadığı mühit, fərdlər və fonların ətraf mühit ilə qarşılıqlı əlaqəsinin təsiri. [19, s.19] Şübhə yoxdur ki, hər bir fərd öz-özlüyündə müəyyən qisim fikirlərə malikdir və onun yaşadığı sosial mühitə təsiri onun insani keyfiyyətləri ilə sıx bağlıdır. Lakin bu qarşılıqlı təsirdə iştirak edən ən mühüm faktorlardan biri də fərdi davranışlara təsir edən sosial dəyər və normalardır. Bu normaların formalaşması özündə tarixi şüuru əks etdirməklə bərabər, özü də ictimai təsirlər komleksinin, o cümlədən, ictimai rəyin təsirinə məruz qalır.

Məlumdur ki, insan doğulduğu andan etibarən instinktlərinin təsiri altında qalır və onun davranışları bu instinktlərə müəyyən yön verir. Daha sonralar insan öz ətrafında baş verən hadisələri müşahidə edərək doğru və ya yanlış olaraq "öz süzgəcindən" keçirir, hadisə və proseslərlə qarşılıqlı adaptiv və akkomodativ cavab reakisyaları hazırlayır, onları müxtəlif qismə bölərək mənimsəyər və ya rədd edər. Doğru və ya yanlış ola bilən bu "təəssüratlar" fərdin yetkin həyatında, qənaətlərin formalaşmasında təsirli olacaqdır. Deməli, hər bir fərdin qənaətləri, şəxsiyyəti və bu şəxsiyyətinə təsir edən ətraf ilə qarşılıqlı təsir şəraitində və onların vəhdətində yaranır.

Göründüyü kimi, kompleks təsirlərin çulğalaşmasında formalaşan ictimai rəydə "psixoloji makiyaj", şəxsi kompetensiyanın səviyyəsi və xarici təsirlər mühüm rol oynayır. Odur ki, bu kompleksin rakursunda ictimaiyyətin fikrinin və qənaətinin necə formalaşacağını təxmin etmək bir qədər çətindir. Bu, eyni zamanda ictimai rəyin dəyişməsi faktoru ilə də bağlıdır. Bəzən ictimai rəylər xüsusi hadisəvi şərait

ilə izah eilir, lakin digər hallarda səbəblər daha mürəkkəb və çətin görünən olur. Bu o deməkdir ki, bəzi fikirlər kifayət qədər gözlənilən olduğu kimi, (məsələn, digər ölkələr haqqında ictimaiyyətin fikirləri əsasən hökumətlərin münasibətlərindən müəyyən qədər asılıdır) şərait və ictimai rəy dəyişdikdə gözənilməz nəticələrlə də üzləşmək mümkündür. Burada ən çox ehtimalolunan vəziyyət ondan ibarətdir ki, ictimai rəy mövcud vəziyyətlərə uyğun gəlmədikdə və ümumi xətti-hərəkətə dair təlimatlara xidmət etmədikdə, xeyli sayda fərdi münasibətlər həm kəmiyyət, həm də keyfiyyət dəyişikliklərinə məruz qalır. Təbii fəlakət və ya insan faciəsi ilə bağlı olan hər hansı bir hadisə baş verərkən, heç mövcud vəziyyətlə həmin anda heç bir əlaqəsi olmayan, lakin gündəlik fəliyyətlər zamanı tarixi şüurda fərdiləşmiş əsas problemlər və ya narahatlıqları üzə çıxa bilər və bu, ictimai şüurun istiqamətinin dəyişməsinə zəmin yarada bilər. Çünki, ictimai rəyi formalaşmasında müəyyən qədər latent surətdə iştirak edən tarixi şüur daim öz "örtük pərdəsini" atmağa və dəyişilmiş ictimai-siyasi və iqtisadi şəraitlərə uyğunlaşmaq qabiliyyətinə malikdir. Buna baxmayaraq, müəyyən bir məsələ ilə bağlı ictimai rəyin formalaşması və davam etdirilməsinin vacibliyi, onun məqbul hesab etdiyi məsələlərə diqqət əhəmiyyətli dərəcədə kütləvi informasiya vasitələri ilə bağlıdır.

İctimai rəydə baş verən dəyişikliklər kompleksinin ekspertlər tərəfindən izah və şərh olunması xeyli çətin məsələyə çevrilmişdir. XX əsrin ikinci yarısında dünyanın bir çox yerlərində din, ailə, gender, beynəlxalq münasibətlər, sosial rifah və iqtisadiyyata olan münasibətlər böyük dəyişikliklərə məruz qalmışdır. Bütün bunlar haqda geniş xalq kütlələri müəyyən qədər məlumatlı olsa da, ictimai münasibətlərdə və fikirlərdə baş vermis dəyişiklikləri hər hansı bir əsas hadisə və ya hər hansı bir komplekslə izah etmək də doğru olmazdı.

John Turnerin (1985) sosial identifikasiya nəzəriyyəsində bu təyinatın üç mərhələli bir proses olduğu qeyd olunur: (1) özünü və qrupları müəyyən bir ictimai şəxsiyyətə uyğun olaraq səciyyələndirmək və qəbul etmək;(2) bu qrupların

nümayəndələrinin tipik xüsusiyyətlərini və davranışlarını öyrənmək və (3) öz qrupu və özü üçün stereotipik xüsusiyyətləri və davranışları düşünərək təhlil etmək [56, p. 200; 52].

İctimai rəyin formalaşması ilə əlaqəli olaraq uzun müddət bu fikir məşhur olmuşdur: müəyyən bir problemlə qarşılaşan insanlar, bu problemlə əlaqəli məlumatları analiz edərək şüurlu, rasional nəticəyə gəlirlər, beləliklə əldə edilən fikirlər də ictimai rəyi meydana gətirir. Ancaq daha sonra aparılan tədqiqatlar, bu nəzəri düşüncənin əsaslandığı fərziyyənin etibarlı olmayacağını, ictimai rəyin mənbəyində çox vaxt bu tipli rasional şüurlu bir dəyərləndirmə olmadığını və konkret problemlər qarşısında meydana çıxan fikir və mövqeləri əsasən əvvəlcədən formalaşmış fikirlərin təyin etməsini ortaya çıxardı. [13, s.156] Burada bəhs edilən, əvvəlcədən formalaşmış fikirlər, fərdin uşaqlıqdan bəri ətraf mühitin təsiri ilə əldə etdiyi mövqe və davranışlar komleksindən ibarətdir. Demokratik rejimlərin əsas şərtlərindən biri olan ictimai rəyin siyasi qərarları təsir altına almaqda əhəmiyyətli rol oynadığı, hətta indiki vaxtda hökümət siyasətlərinin ictimai rəyin meylləri əsasında müəyyənləşməsi iddiası bu anlayışın vacibliyini artırmışdır. Bu kontekstdə ictimai rəyin formalaşması üçün bir qrup əsas şərtlərin zəruri olduğunu iddia edir. Qeyd olunmalıdır ki, ilk olaraq, ortada bir anlaşmazlıq, fərqli fikirlər, mənfəət və tələblər olmalıdır. İkinci, siyasi sistem fərdlərə bir qisim azadlıqlar verməli, hər şeydən əvvəl ünsiyyət və təşkilatlanma azadlığını təmin etməli, fərdlər ünsiyyət vasitələrindən istifadə etməli, toplaşmaq və qruplaşmaq kimi əsas azadlıqlarından yararlana bilməlidir. Üçüncüsü, cəmiyyətdə ictimai rəyi formalaşdıran, təşkil edən müxtəlif mərkəzlər olmalı, ölkədə ictimai rəyin qarşısında parlament və hökümət kimi müqavimət nöqtələri olmalıdır. Bu müqavimət nöqtələrinin isə öz növbəsində ictimai rəyin siyasi sistem içərisindəki yeri və əhəmiyyəti haqqında lazımı məlumatları olmalı və ictimai rəyi diqqət yetirməsi lazımdır. [13, s.158]

İctimai rəyin formalaşmasında bir sıra hüquqi və siyasi institutlar da mühüm rol oynayır, çünki bu rəyin formalaşmasına nəzarət mexanizmi bu təşkilatlar tərəfindən reallaşdırılır. Təkzib olunmaz faktdır ki, hüquqi atmosfer mövcud konstitusiya və qanunların müddaları ilə işə salınır və dövlət tərəfindən qorunur. Bu zaman, təbii olaraq, bir sıra çərçivələr müəyyənləşmiş olduğundan, konstitutsiya və qanunlar siyasi ünsiyyətə sərhədlər qoyur. Başqa sözlə desək, "siyasi institutlar fərdlərin və qrupların sərbəst surətdə qənaətlərini bildirmələrinə və azad formada ictimai rəyi formalaşdırmalarına imkan verən şəraiti yaradır."[7, s.78] Beləliklə, həm fərdlər, həm də üstünlük təşkil edən qruplar bu ictimai rəyin formalaşmasında birgə iştirak edir, lakin bu davranışların tendensiyası bəlli bir qanunauyğunluqla idarə edilir. Məsələn, siyasi partiya mənsublarının xətti-hərəkəti qabaqcadan hazırlanmış olduğundan, müyyən hədəflərə çatmaq naminə onlar daha çox duyğu və hisslərdən kənarda qalır. Əksinə, qeyri-institutsional qruplarda "hər hansı bir məqsədi reallaşdırmaq kimi ciddi hədəfləri olmur. Bu qruplara ailə, məktəb, məhəllə, dostluq və qonşuluq münasibətləri kimi əlaqələr aid edilir. İstənilən sosial və ya sosial-ərazi birliyinin normal fəaliyyəti ictimai işlər haqqında kollektiv təsəvvürlər və mühakimələr işlənib hazırlanmadan mümkün deyildir." [15, s.63]  Ona görə də "təşəkkül tapmış ictimai rəy ayrı-ayrı rəylərin mexaniki cəmi deyildir; onların qarşılıqlı mübadilə olunması və zənginləşməsinin, bir-birinə nüfuz etməsinin nəticəsidir, bir növ kollektiv zəkanın təmərküzləşmiş ifadəsidir. [25, s.23] Bu baxımdan ictimai rəy rasional elementlərlə bərabər, iradi və emosional parametrləri də əks etdirir.  Yəni, "ictimai rəyin nüfuz gücü əksəriyyətin şüuruna əsaslanması ilə şərtlənmişdir. Burada əhəmiyyətli məsələ həmin əksəriyyətin düzgün nöqteyi-nəzərdə, düzgün mövqedə olub-olmamasıdır... Kütlələrin şüurunun azdırılması ictimai rəyin funksional imkanlarını da azaldır.[ 1, s.75] Təbii olaraq, bu öz növbəsində ictimai rəyin intensivliyi, sabitliyi kimi səciyyələrlə daha çox bağlıdır.

İctimai rəyi dolayi yolla formalaşdıran vasitələr ictimai rəyin formalaşma prosesinə qarışaraq ona təsir göstərir və bu, ictimai rəyin daxili xüsusiyyətləri ilə bağlıdır. İctimai rəyi bilavasitə formalaşdıran vasitələr öz xüsusiyyətləri və üzvləri ilə münasibətə görə şərti olaraq iki qrupa ayrılır: sosioloji və psixoloji vasitələr. "Sosioloji tədqiqatlar fərdlərin öz davranış və qənaətlərini müəyyən edərkən üzv olduqları müxtəlif qrupların təsiri altında hərəkət etdiklərini sübut edir. Fərdlər üzv olduqları qrupdan xaric edilməmək üçün hərəkətlərini qrup fəaliyyətinə uyğunlaşdırır və qənaətlərini ifadə edərkən qrupun ümumi rəyinə əsaslanırlar. [ 3, s.18]

Sosioloji vasitələr bir-biriləri ilə fasiləsiz, asan və səmimiyyətə əsaslanan formada əlaqə yaradan vasitələrdir. Sosioloji vasitələr ailə, təhsil, mədəniyyət, sosial nəzarət mexanizmlərindən ibarətdir. Təbii olaraq ailə də individual qənaətləri formalaşdırır, hətta sosial həyatda da əhəmiyyətli yer tutur. Ailə insana yalnızca genetik xüsusiyyətlər ilə iz qoymur; o, insanın bütün həyatına təsir edir və onu formalaşdırır. Digər tərəfdən, bu, öz davamlılığı ilə də digər amillərdən fərlənir. Maraqlı cəhət ondan ibarətdir ki, bu vaxt ictimai rəy ailədən başlıyaraq meydana gəlir, ictimaiyyətdə aktiv olan fərdlərin şəxsiyyətini formalaşdırmaqla ictimai rəyin formalaşmasına bilavasitə təsir edir. Fərd həyatı boyunca fərqli məkan və zamanlarda müxtəlif formada özünü göstərməkdədir. Beləliklə o, fərqli və müxtəlif düşüncələrə tolerant yanaşmağı ailədə öyrənir. İctimai rəydə bu xüsusiyyətin ərsəyə gətirdiyi məsələ bütövlükdə şəxsiyyət-ictimai rəy əlaqələrinin formalaşma prosesi adlanır.

Digər bir amil təhsilin sosiallaşma vasitələrindən birinə çevrilməsi ilə əlaqədardır. Təhsil ailədən başlasa da, fərd sistemli və formal təhsili başqa qurumlardan almaqdadır. O, bir tərəfdən siyasi biliklərin individual mənimsənilməsi ilə bağlıdırsa, digər tərəfdən bu təhsilin müəyyən mərhələlərdə dəyişilməsi ilə əlaqədar fərdi baxış və qənaətlərin dəyişməsi ilə əlaqədardır. Bu zaman təhsilə aid

olan bütün komponentlər fəal təsirə malik olur, yəni müəllim, sinif, təhsil proqramı, dərs ədəbiyyatı ardıcıl olaraq funksional əhəmiyyət daşıyır.

İctimai rəyin formalaşmasına təsir edən digər bir komponent mədəniyyətlə bağlıdır, çünki hər bir icma üzvünün əldə etdiyi bilik, inanc, sənət, hüquq, əxlaq və başqa qabiliyyət və vərdişlər xeyli fərqli rakurslarla iştirak edir və bu mühitin formalaşmasını təsir altında saxlaya bilirlər. Mədəniyyət nəinki ictimai rəyə, eləcə də bütövlükdə cəmiyyətin siyasi və iqtisadi həyatına, onun yeniliklərə və innovasiyalar açıq olmasına yol açır. O, siyasi mədəniyyət şəklində siyasi sistemdə iştirakçı olur və cəmiyyətin fəal həyat tərzinə təsir edir.Mənsub olduğu qrupun identifikasiyası və bu zümrədə siyasi iştirakçılıq onun sosiallaşma kimi güclü təsir imkanlarına malik olduğunun sübutudur. Əks təqdirdə, şəxsiyyətin substartına daxil olan kommunikasiya fəaliyyəti baş tutmaz və ictimai rəyə təsir imkanları heçə enmiş olardı.

Din və ölkənin demoqrafik quruluşu ictimai rəydə digər bir determinat kimi mühüm rola malikdir. Bu dəyərlər insanların tarixən fomalaşmış konfessiyaları və hər bir zümrənin özünəməxsus baxışlar sistemi ilə əlaqədardır. Tarixin müəyyən mərhələlərində ictimai şüurun mühüm bir hissəsi kim həm din, həm də demoqrafik struktur müəyyən dəyərlər sistemi formalaşdırdığından, onlar həm keçmiş nəsillə indiki nəsil arasında bir varislik də yaradır; digər bir halda isə, onlar bütövlükdə cəmiyyətin harmonik inkşafına təsir edir. Məsələn, əhalinin say və sıxlığı bir tərəfdən iqtisadi göstəricilərə təsir imkanlarına malikdirsə, digər halda onlar ictimai-sosial faktorlara, eləcə də ictimai rəyə təsir edən amil hesab edilir.
"İctimaiyyət anlayışı sosioloji bir anlayış olmaqla birgə rəy, psixoloji bir anlayışdır. İctimaiyyət üzvlərini bir-birinə yaxınlaşdıran, bağlayan, müəyyən vaxtlarda qərar alma mexanizmalarını eyni və ya fərqli istiqamətlərdə işləməyə sövq edən faktorlar ictimaiyyətin üzvlərinin ortaq komponentidir."[15, s.22] İctimaiyyət isə müəyyən bir qənaət və mövqe ilə meydana gəlir; yəni ictimaiyyət

kimi sosioloji bir anlayış, qənaət və mövqe kimi psixoloji bir zəmində meydana gəlir və formalaşır.

İnsanların yaratdığı ictimai rəy və onların qənaətləri cəmiyyətin social-mədəni durumuna əsaslanmaqla formalaşır. Fərqli icma qrupları, bənzər və ya fərqli mövzularda bir-birini istisna edə bilən düşüncələrə sahib olduqları halda, onlar əsas mövzularda bir-birinə çox yaxın ya da eyni fikrə gələ bilmək imkanına malikdirlər. Bu proses isə, mövcud və formalaşmış fikir və qənaətlər hesabına formalaşır. Qənaət anlayışı ictimai rəyi dərk etməkdə böyük əhəmiyyət daşıyır. Qənaətlər ictimai rəyin məzmununu bizə açıb göstərmək kimi fərqli bir əlamətə malikdir. İctimai rəydə qənaət olaraq özünü görtərən və davranış formasında təcəssüm edən tədbirlər, bəzi psixoloji prosseslər şəklində müəyyən psixoloji mərhələlər və təsirlər nəticəsində meydana gəlir.

Kütləvi informasiya vasitələri də, xüsusilə milli və ya qrup maraqlarına uyğun olan məsələlələrin müzakirəsində ictimai maraq yaratmaq üçün müxtəlif vasitələrdən istifadə edir. Bunların əksəriyyəti jurnalistlər, yazıçılar və ya müxbirlər tərəfindən yaradılmış redaksiyalar və redaksiya heyətlərinin şərhlərində, rəy və məqalələrində öz əksini tapır. Xəbər mediası həm də xəbərlərin təhlili ilə ictimai maraq yaratmaq imkanlarına malikdir. Bəzi hallarda hətta bu xəbərlər ictimai rəyin idarəedici funksiyalarından birinə çevrilə bilirlər. [50, p. 4]

Psixoloqlar insanların şəxsi mövqelərini, şüurlarındakı fərqli bilik və duyğuları təhlil edərək müəyyən nəticələrə gəlmişlər. Məsələn, ABŞ-dan olan alim Allport Gordon Willard (1897-1967) yazırdı ki, “mövqe, təcrübə əsasında formalaşan, müxtəlif obyekt və vəziyyətlərlə əlaqəli olan bütün tip fərdi davranışlarlada üstünlük, istiqamətvericilik və idarəedici təsirə sahib olma həmişə psixoloji bir hal hesab edilir.” [17, s.7-23]. Mövqe məsələsi ictimai rəyin formalaşmasında xüsusi rol oynayır. Beləki, ictimai qrupun mövqeyini dəyişmək üçün o, qrupdakı

seçilən insanların davranışlarının dəyişməsi də, bir çox insanın da mövqeyinin dəyişməsinə səbəb ola bilər. Buna görə də, siyasi partiyalar bəzən fikirlərini xalqa mənimsətmək üçün sevilən sənətçilərdən istifadə edirlər, onların repertuar və nüfuz gücündən faydalanmağa çalışırlar.

## 2.2. İctimai rəyi birbaşa formalaşdıran vasitələr

İctimai rəyin formalaşmasına media yalnız təkbaşına təsir etmir; onu birbaşa formalaşdıran vasitələr ona şəxsi məqsədləri istiqamətində forma vermək istəyən insan və qruplardır. Beləliklə, ictimai rəyi birbaşa formalaşdıran vasitələrin mənbəyində əsasən 2 qrup - siyasi vasitələr və media dayanır.

Media vasitələrindən ən mühümü xəbərlər hesab edilir. Onların dərindən təhlili göstərir ki, xəbər qaynaqları özləri media məhsulu hesab edilir. KİV-də müzakirəsi və təhlili aparılan məsələlər, KİV-lərin sıralamasında vacib sayılan məsələlərdirlər. Jurnalistikanın əsas janrlarından biri kimi xəbərlər müxtəlif baxımdan – cəmiyyəti xəbərdar etmək və orada baş verən sosial-mədəni dəyişiklikləri nəzərə almaq nöqteyi nəzərindən hər bir xalqın milli mənsubiyyətini nəzərə almaqla ictimailəşdirilməlidir. [37, p.2].

İctimai rəyi birbaşa formalaşdıran siyasi vasitələr iki qrupa ayrılır: 1) siyasi partiyalar və qruplar; 2) təzyiq qrupları və təşkilatlar. Siyasi partiyalar müəyyən mənfəətlər güddüyündən, onların təmsilçilik məqsədi də bununla bağlı olaraq meydana çıxır. Təbii olaraq siyasi liderlər, siyasi qruplar ən ümdə görünən məsələləri müəyyənləşdirməkdə və onlara münasibətdə fərdi fikirlərin formalaşmasında və bütövlükdə ictimai rəyi formalaşdırmaqda böyük rol oynayırlar. Burada, xüsusilə siyasi liderlər media ilə əməkdaşlıq etdikdə istənilən bir problemin milli müzakirə səviyyəsinə çıxarılmasında xeyli imkanlar əldə etmiş olurlar. ABŞ-ın 28-ci prezidenti, Millətlər Liqasının başçısı və 1919-cu ildə Nobel

Sülh Mükafatçısı Vudro Vilsonun dili ilə desək, "dünyayda demokratiyanı təhlükəsiz etmək üçün" hədəfləri müəyyən edərkən, "bütün müharibələri sona çatdırmaq üçün bir müharibə" edirlər ki, bu da ictimai rəy uğrunda müharibədən ibarətdir. Vilson məşhur siyasi alim, tarixçi kimi inanırdı ki, "ölkə prezidenti ictimai rəydə lider olmalı, qanunvericiliyin formalaşmasında və xarici əlaqələrin qurulmasında rəhbər olmalıdır."[5]

İngilis yazıçısı Corc Orvel(George Orwell) tərəfindən 1945-ci ildə nəşr etdirdiyi məqalədə ilk dəfə olaraq adı çəkilən [30] və 2 il sonra, 1947-ci ildə ABŞ prezidentinin məsləhətçisi Bernard Baruch tərəfindən istifadə edilərək böyük bir tarixə çevrilən "soyuq müharibə" və ya "soyuq müharibə dövrü" keçmiş sovetlər birliyinin özüllərinin laxlaması və sonradan onun bir polyar qütb kimi tamamilə sıradan çıxarılmasına gətirib çıxarmışdır. Yəni, siyasi vasitələr daha geniş ictimai rəyin yaranmasında və inkişafında çox mühüm alətdir.

İctimai rəyin liderliyinin çərçivələri ictimai həyatda görkəmli şəxslərlə məhdudlaşmır. Bu liderlik ictimai hərəkat və rezonanslarda kortəbii surətdə meydana gəldiyi kimi, həm də müəyyən bir mövzuda başqaları üçün rəhbər axtaran qruplar tərəfindən də məqsədyönlü sürətdə müəyyənləşdirilə bilər. Beləliklə, müəyyən bir sosial qrupun içərisində, xüsusilə yerli siyasət haqqında daha yaxşı bilikli, digər halda isə xarici işlər üzrə formalaşmış xüsusiyyətlərə malik və ekspert kimi qiymətləndirilə bilən şəxslər ictimai rəy vasitəsi ilə liderlərə çevrilə bilərlər, çünki onların ictimai rəyin formalaşmasında ümumi təsiri əhəmiyyətli hesab edilir.

Təkpartiyalı idarə sistemlərində məqsəd ictimai rəyi istiqamətləndirmək və idarə etməkdən ibarətdir. İstənilən rejimdə hər siyasi partiyanın məqsədi eynidir və bu vaxt onların hər birinin məqsədi digər rəqib partiya və ya qurumun xaricdən formalaşan mənfəət qaynaqlarının qarşısını almaqdır. Siyasi partiyalar isə öz

növbəsində, cəmiyyəti ən yaxşı şəkildə idarə edəcəkləri iddiası ilə xalqın dəstəyini tələb edən bir qrup hesab edilir. Lakin istər-istəməz, həm iqtidarda, həm də müxalifətdə olan siyasi partiyalar birbaşa ictimai rəyin formalaşmasında rol oynayırlar; bu ən azı ona görə belə hesab edilir ki, mövcud partiyalar, ictimai rəyin dəstəyini almaq kimi zəruriətlə qarşılaşırlar. Hər siyasi partiya öz mənfəəti üçün müəyyən məqsədlərinə uyğun ictimai rəy formalaşdırmağa çalışır, ancaq siyasi partiyanın məlumatları nə qədər əsaslı olursa olsun, ictimai rəyi rəqiblərinin əleyhinə çevirəcək məlumatları əldə etməklə onu şəxsi mənfəətləri üçün istifadə edərək ictimai rəydə liderlik imkanını artıra bilir.

Siyasi liderlərin və siyasi partiyaların ictimai şüura və ya əksinə təsir imkanlarına dair böyük həcmdə elmi-praktiki və nəzəri mənbələr mövcuddur. [27, 28,37,49, 51, 54] Siyasi partiyalar adətən ictimai rəyi uzun müddət ərzində formalaşdıran və siyasi məsələlər üzrə partiyaların ən vacib mövqeləri haqqında məlumata malik olan əsas qüvvə kimi çıxış edirlər. Siyasi partiyaların liderlik etdiyi cəmiyyətdə ya əhali öz ideoloji xəttini və müdafiə edəcəyi partiyanı seçir, ya da hakim ideologiyaya uyğun siyasət həyata keçirir. Bu zaman, alternativ olaraq, bütün tərəflər populyar ideologiyaya uyğun siyasət aparmağa başlayır. Faktik olaraq, məşhur olan hakim ideologiya sonradan siyasət üçün vacib hesab edilən hökumətin tərkibinə də təsir etmək imkanları əldə edə bilir. Burada partiyalar əsasən iki cür yoldan istifadə edirlər: birincisi, partiyaların nüfuzunu artırmaq üçün onun seçilmiş nümayəndələri adətən ictimai rəy təmaslarında öz qanunvericilik gündəmini tərifləyir, nailiyyətləri ilə geniş xalq kütlələrini tanış edir və öz nüfuzlarını daha da inkişaf etdirmək və yenidən seçilmə şanslarını artırmağa çalışırlar. İkincisi, bu nümayəndələr seçicilərin siyasi mövqelərini dəyişdirməyə çalışırlar. [54, p.454] Hər iki halda siyasi partiyalar həm öz nüfuzlarından. Həm də təzyiq qruplarından geniş istifadə edirlər, çünki ictimai rəyə ən çox yaxın olan bütün həssas vasitələr demək olar ki, hamısı birbaşa təsir imkanları kompleksində cəmlənmişdir.

Təzyiq qrupları və ya qızğın tərəfdarlıq (ingiliscə “partisanship”)ya fərdi halda, ya da təmsil etdikləri təşkilatlar vasitəsilə təmsil etdikləri qurumun maraqları əsasında ictimai rəy formalaşdırırlar. Təzyiq qrupları cəmiyyətdəki fərqli sosial gücləri şüurlu şəkildə təşkilatlanaraq, öz maraqlarına uyğun gələn ictimaiyyətin fikirlərini iqtidara çatdıraraq, idarəetməyə qanunilik siması qazandırmağa çalışır. Gücü nə qədər olursa olsun, hər təzyiq qrupu plüralist cəmiyyətlərdə hər hansı bir məsələ ilə bağlı ictimai rəylə həssas davranmağa çalışır. Təzyiq qrupları dünya praktikasında daha çox səsvermələr zamanı ictimai rəyi birbaşa formalaşdırmağa yönəldən mühüm alət hesab edilir, lakin psixoloji yaxınlıq, bir siyasi partiya ilə davamlı münasibət qurmaqdan adətən çəkinir, çünki bu qrup konsistent bir institut kimi formalaşmadığından, müntəzəm tərəfdaşlıqdan da uzaqda dururlar və yalnız əksər hallarda səsvermələr zamanı aktiv fəaliyyətə qoşulurlar. [50, p.154]
Siyasətçilər səsvermədən qabaq ictimai rəylə bağlı keçirilən sorğuları da dərindən dəyərləndirirlər, çünki ictimai rəyin durumu bu sorğularda çox vaxt həqiqətə yaxın olan şəkildə özünü biruzə verir. Təbii olaraq, bu modeldən kənara çıxmaların olması da istisna deyildir. Son illərdə ABŞ-da keçirilən səsvermələrdə qeyri-adi gözləntilərin və nəticələrin təhlili bütün bunları bir daha sübut edir. Amma bir qayada olaraq, siyasətçilər sorğuların necə istifadə edildiyini yoxlayır və bu nəticələrlə “manipulyasiya etməyə çalışırlar.” [45]

Birbaşa formalaşmaya təsir edən vasitələrdən başlıcası mediadır. Media, həqiqətən ictimai rəy formalaşdırmaq istəyən qurumların, təşkilatların, qrupların effektiv istifadə edə biləcəkləri yeganə vasitədir. Medianın ictimai qavrayışı müəyyənləşdirmə gücü, qənaət və mövqeləri dəyişdirmə və ya gücləndirmə qabiliyyəti vardır. İctimai rəyi formalaşdırmaq istəyən siyasi təşkilatlar, qrup və ya qurumlar istədikləri şəkildə ictimai rəyə istiqamət verə bilmək üçün medianın ictimai rəyi formalaşdırdığı bütün mərhələlərdən, bu mərhələlərin spesifik xüsusiyyətlərindən istifadə edərək ondan yararlanmağa çalışırlar.

Medianın ictimai rəyi formalaşdırmaqda olan funksiyası şübhəsiz ki çox təsirlidir, amma formalaşmış bir qənaət də medianın strategiyasını müəyyənləşdirmək imkanlarına malikdir. Bundan başqa, media həm də insanların düşüncə və inanclarının formalaşmasında hakim olan siyasi qrupların cəmiyyəti nəzarətdə saxlaması üçün əvəzediləməz vasitəsidir. Bu vaxt mühüm təbliğat vasitəsi kimi çıxış edən media, fərdləri sərhədsiz və məhdudiyyətsiz olaraq manupulyasiya etmək bacarığına malikdir. [4, s.13]

Media, dünyanın qavranılmasında bir filtr rolunu oynamaqla yanaşı, fərdin özünə də özü haqda olan rəyləri dərk etdirir, lakin o yalnız fərdlərə öz şəxsiyyətlərinin mühüm xüsusiyyətlərini proseslərə tətbiq etmək imkanları yaratması ilə kifayətlənmir, o, həm də fərdin kim və necə olması zəruriətini anladır, onun gələcək xətti-hərəkətinin formlaşmasında əsas konturları cızır. Beləliklə, media fərdin şəxsi həyatını "tamamilə məhv edən" bir üsul kimi onun düşünmə, mühakimə etmə səlahiyyətlərini də "əlindən alır", ona yeni "immunitet qazandırır." [4, s.15] Məsələn, televiziyada yayımlanan cinayət səhnələrini, vəhşiliyi bir oyun kimi qəbul etməyə öyrəşdiyimiz üçün real hadisələrdə laqeyd ola bilirik. Bu zaman həqiqət bulanıqlaşır, hislər korlaşır və fərdin empatiyası müəyyən dəyişikliklərə uğramış olur. Media, müəyyən mənada, dövlətin və səlahiyyətli şəxslərin ideoloji aparatıdır. Dövlət ictimai nəzarət, yoxlama və hətta mübadiləni təmin etmək, öz qaydaları ilə müəyyən etdiyi yayınmaların qarşını almaq üçün medianın imkanlarından geniş surətdə yararlanır. Göründüyü kimi, media tarix boyunca heç olmadığı qədər böyük güc və nüfuz ilə ictimai həyatımıza nüfuz etməkdədir.

İctimai rəyin formalaşmasından danışarkən, medianı ictimai siyasi sistemdən kənarda düşünmək mümkün deyildir. Nəticə etibarı ilə, media hətta özbaşına belə ictimai rəyi formalaşdırır; bununla belə, ictimai rəy özü də bəzən mediayaya

müəyyən yönəlimlilik verir, yəni həm mediaya təsir edir, həm də onun təsiri altında formalaşır.

## 2.3. İctimai rəyin formalaşmasında nəzəriyyələrin rolu

Media, ictimai rəyi formalaşdırmaq üçün müxtəlif nəzəriyyə və modellərdən istifadə edir. Bunlara səssizlik spiralı, gündəm yaratma, məlumat əksikliyi və medya asılılığı daxildir. Biz əsas iki məşhur nəzəriyyəni səssizlik spiralı və gündəm yaratmanı analiz edəcəyik.Bəzi tədqiqatçılara görə, ictimai rəyi formalaşdıran media deyil, real hadisələrdir. Media yalnızca ictimaiyyətin vacib bildiyi məsələləri yayımlayır. Təhsil səviyyəsi, şəxsi təcrübəsi, instinktlər və xəbərlərə marağı auditoriyanın fərqli formalarda reaksiya verməsinə səbəb olur. [15, s.61]

Bernard Johen, medianın insanlara nəyi düşünmələrini başa salmaqda uğurlu olmasa belə, nə haqqında fikirləşmələrini öyrətməkdə müvəffəqiyyətli olduğunu xüsusilə vurğulayırdı. Maxel McCombs və Donald Shav buna medianın gündəm yaratma metodu adını vermişdilər. Əgər media ancaq dünyada baş verənləri yayımlayırsa, xalqında eyni problemləri əhəmiyyətli hesab etməsi normaldır.[20, s.17]

Media bir mövzudan nə qədər çox bəhs edərsə, kollektiv olaraq o mövzunun çox vacib, həyati əhəmiyyətli olduğunu, mövzuya daha çox vaxt, daha çox müxbir ayırmaq lazım olduğunu düşünməyə başlayır və media öz-özünü xəbərdar edir. Hadisələrin vacibliyi bizə təqdim olunma şəklilə də əlaqəlidi, canlı və birbaşa izlədilən hadisə, gözlə görülməyən, vacibliyi mücərrəd planda qalan bir hadisə ilə müqayisədə daha güclü, daha təsirlidir. Medianın yeni formasında, sözlər və mətinlər obrazlar qədər təsirli deyil.

Gündəm yaratmağın əsas tezisi, insanların medianın toxunduğu mövzularla bağlı məlumat sahibi olmağa meyl göstərəcəkləridir. Buna görə gündəmi hazırlayarkən media ictimaiyyətin nə düşünəcəyini qəti olaraq müəyyənləşdirə bilməsə də hansı mövzu üzərində düşünəcəyini müəyyənləşdirir. Bir mənada mövzunun ideoloji çərçivəsi inşa edilir, medianın görməsini istədiyi mövzu və təfərrüatlar ictimaiyyət qarşısında vurğulanır, onun əhəmiyyət və üstünlük verdiyi mövzular olması təmin edilir. Gündəm yaratmağı, media vasitəsilə müəyyən insan, təşkilat və ya qurumun problem və ya mövzu üzərinə ictimaiyyətin diqqətini çəkməyə çalışması kimi görə bilərik.[10, s.16] Ancaq bununla yanaşı, əldə edilən ətraflı dəlillər hər zaman güclü bir gündəm yaratma prosesinin mövcudluğunu təsdiqləməyib. Medianın etibarlılığını itirməsi, tərəfsiz olma prinsipini zədələməsi onun tez-tez tənqidlərə məruz qalmasına səbəb olmuşdur. Meiada həmin günün xəbər səhifəsinə girəcək xəbərləri digər aparıcı media qurumlarının təsirilə də formalaşır. Mediada hansı xəbərlərə yer veriləcəyi, hansı əhəmiyyət sırasına görə veriləcəyi mövzusunda müxbirdən, redaktora qədər bir çox insan həlledici rol oynayır. Noam Chomskinin "astana gözətçiləri" adı verdiyi xəbər istehsalçısı xəbərin yığılmasından təqdim edilməsinə qədər xəbərin məzmununu və formasını dəyişə bilər. Günün hansı xəbərinin daha vacib olmasını digər xəbərlərin vacibiyyətinə bağlıdır.

Medianın təsiri ictimaiyyətə haqqında fikir formalaşdırmaq üçün xəbərlərin necə yığıldığına və hansı təsir altında hazırlandığına diqqət etmək lazımdı. Çünki medianın göstərdiyi təsir nəticəsində, televiziyanın, mətbuatın xəbəri yayımlama forması müəyyənləşməkdədir.

İstər yazılı, istərsə vizual medianın ölkədə və dünyada meydana gələn bütün hadisələrə yer verməsi imkansızdır. Zaman, vaxt, məkan kimi amillər ancaq bunlardan kiçik bir qismin çatdırılmasına imkan verir. Nejdet Atabek və Erdal Dağtaş (Türkiyə, Anadolu Universiteti) ictimai rəy haqqında apardıqları

araşdırmalarında medianın diqqətini çəkən hadisələrdən xəbər hazırlamağa əlavə olaraq 5 cür xəbər istehsal etmə üsulundan bəhs edirlər.

1. Medianı hadisələrin axarına uyğunlaşdırmaq: məsələn tələbə etirazları, üsyanlar kimi eyni tip hadisələrin hər biri xəbər dəyəri daşıyır. Bu cür hadisələr sıxlıq baxımından artım göstərsələrdə, əslində eyni hadisənin davamıdırlar. Digər tərəfdən, bir neçə yüz tələbənin qatıldığı tək bir etiraz çox vaxt media gündəmində yer tutmaz, çünki media bu tip hadisələri xəbər olaraq verməyə maraqlı deyildir.
2. Xəbəri maraqlı hala gətirmək: əslində xəbər dəyəri olmayan bəzi hadisələr yalnızca xəbər bülleteninə daxil olması məqsədi ilə medianın diqqətini çəkəcək hala gətirilir. Etiraz mitinqləri, oturma və aclıq aksiyalarını bu vəziyyətə nümunə göstərmək olar. 1996-cı ildə fevral ayında Türkiyədə universitetlərdə təhsil haqqının artırılması normal olaraq media gündəminə düşməmişdi. Lakin təhsil haqlarını protesto edən tələbələrin etirazlarının artmasından sonra bu mövzu media gündəminə yerləşdi.
3. Detallara diqqət çəkmək digər önəmli məsələdir. Bir hadisənin bütün məqamlarının içindən bir ünsürü seçərək onu xəbər halına gətirir. Məsələn, bir iclasda dövlət rəhbərlərinin çıxışlarına nisbətən iclası izləyən jurnalistlərin sayının çox olması xəbər mövzusu olur.
4. Şişirtmə, əslində əhəmiyyətsiz bir xəbər şişirdilərək xəbər dəyəri varmış kimi göstərilir. Məsələn, epidemiya xəbəri, əslində isə söhbət bir neçə nəfərin xəstələnməsindən gedir.
5. Vacib olduğunu göstərmək: xəbər dəyəri olmayan hadisəni xəbər dəyəri varmış kimi göstərmək. Məsələn, hər gün bir çox iclasda iştirak edən bir siyasətçinin əslində xəbər dəyəri olmayan bir sözünü vurğulayaraq iclas xəbərini vermək. [11, s.17]

Qısaca olaraq qeyd etmək olar ki, real həyatda baş verən hadisələr, fərqli xəbər hazırlama üsulları,media qurumlarının və işləyənlərin siyasi və iqtisadi əlaqələri,

xəbər hazırlama müddətində qarşılaşdıqları çətinliklər, ictimaiyyətlə əlaqələr mütəxəssislərinin, qurumlarının məqsədləri və mənfəətləri üçün media gündəminə təsir etmə səyləri, media gündəminin yaradılmasına səbəbiyyət verən ünsürlərdir.

Demokratik cəmiyyətlərdə ictimai rəy ilə siyasi elitanın qərararı arasında birbaşa əlaqənin olduğu fərz edilir. Media hökumət orqanları, seçilmiş insanlar və ya qurumlar tərəfindən ələ alınan əsas problemləri də gündəmə gətirər. Media gündəmini tutan hadisələrə ya da mövzulara aid xəbərlər bir müddət içərisində əvvəl ictimai rəyi, sonda da hökumət siyasətini təsir altına alır. Xəbər mediada yayımlandıqdan sonra xəbərdə adı çəkilən şəxslər və ya problemlər fərdlər üçün əhəmiyyət kəsb edər. Bu dəyişən prioritetlərin hakimiyyətin siyasi tərcehlərinə təsir etdiyi fərz edilir.

İndiki vaxtda insanların bir şeyin yanlış olduğunu açıq-aşkar gördüklərində belə ictimai rəyə üstünlük verəcəkləri mövqelərdə, hansı əxlaqi dəyərlərin düzgün olması mövzusunda ümumi fikirlərə zidd olan qənaətdə olanda susmağa daha çox meyil göstərirlər.

İctimai rəyi formalaşdıran bir digər nəzəriyyə Elizabeth Noelle Neumannın "səssizlik spiralı" dır. Neumann, bu nəzəriyyənin əsas səbəbini normal bir insanın təcrid olunma qorxusu qarşısında susmağa üstünlük verməsi ilə izah edir. İnsanlar təbiətinə görə digər insanlar tərəfindən təcrid olunmaqdan qorxarlar, sevmək və sevilmək istəyərlər. Bu vəziyyət adətən hər bir insanın cəmiyyət içindəki varlığını qoruyub saxlamağa yönəldilən bir yardım üsuludur. Fərdin təcrid olmaqdan qaçmasının səbəbi o qədər də sadə spektrə malik olan bir məsələ hesab edilmir; bu əksər hallarda bir varlıq problem kimi təqdim olunur, çünki düzgün idarə edilmədikdə o, həqiqətəndə böyük təhlükələr yaratmaq gücünə malikdir. Neumanna görə, "ənənələrin, adətlərin müəyyənləşmiş sahələrində insanın təcrid

olunmaq üçün açıq şəkildə ifadə etdiyi və ya ifadə etmək məcburiyyətində qaldığı qənaətlər və davranış formaları ictimai rəyi formalaşdırır”.[2, s.17]

İctimai rəyin gücü, münaqişələr yaradaraq hökumətlərin nüfuzuna zərər gətirən və ona qarşı çıxan “ölmüş bir fərdi cəmiyyətdən qopana qədər təzyiq altında saxlamağı bacaran” bir mahiyyətdir. İnsan bu nüfuzun qüdrətini anladıqca ondan daha az qorxar, ictimai rəyinə təzyiqi bir yana qoyaraq öz fərdi düşüncələrinə daha çox qapılır.

Media nəzəriyyə baxımından daha əhəmiyyətli görünür, çünki ondan doğan postulatların çoxu mediada həqiqətlər kimi ictimaiyyətə qəbul etdirilir. Yəni bu vaxt günün əsas fikrinin nə olduğunu əsasən media tərəfindən müəyyənləşdiyi iddia edilir. Şəxs “səssiz” olduğu müddətdə eyni fikri müdafiə edənlərdə səssiz qalır və beləliklədə medianın mövqeyi, təyinetmələri, təsbitləri fərdlər tərəfindən ümumi fikir kimi qəbul edilir. Bu nəzəriyyə Almanyada 1965-cı il seçkilərində, nəticələrin sona qədər müəyyən edilməməsi və seçkiyə çox az bir vaxt qaldığı vaxtda, ictimai rəydə xristian demokratların qələbəsinə dair proqnozun sürətlə yayılması ilə daha çox məşhurlaşmışdı. İctimai rəydə, doqquz ay ərzində heç bir fəallığın olmamasına baxmayaraq, bu ani dəyişikliklərin səbəbi kifayət qədər mötəbər qüvvəyə malik olmuşdur. Maraqlı cəhət ondan ibarətdir ki, o dövrdə ictimai rəy araşdırmaları yayımlanmadığından, hər iki partiya onsuzda eyni şansa sahib kimi görüntülənmişdir. İnsanlar cəmiyyətdən təcrid olunma qorxusuyla o zaman üzləşmir ki, onlar cəzalandırılma riski olan fikirlərini bəyan etməkdə sərbəst olsunlar və bu fikirləri müstəqil olaraq bildirməkdə çəkinməsinlər. Təbii olaraq bu cür hallar baş verdiyi bütün situasiyalarda nəzəriyyə “xüsusi hərəkətə” keçmiş olur; bu zaman bəyan edilməyən fikirlər geridə qaldıqca, ifadə edilən fikirlər hakim bir mövqe qazanmağı davam etdirlir.

Media gündəmi dəyişərək xalqın diqqətini başqa istiqamətə çəkə biləcəyi kimi, hadisələrin üstünə gedərək, xalqı o hadisəyə qarşı həssas hala gətirib ortaq bir davranış, mövqe, fikir nümayiş etdirilməsinə də səbəb olan bir ciddi faktor hesab edilir. Media günlük həyatımızın hər anına nüfuz etmək gücünə malik olan bir sosial fenomen hesab edilir. Burada bizim nələri müzakirə etməyimizi deyil, nələri necə müzakirə etməyimiz, hadisələrə və problemlərə necə yanaşmamız xüsusi əhəmiyyətə malikdir, çünki medianın sərəncamında olan gücün imkanları ilə onlar bizə istədiklərini müzakirə mövzusuna çevirə bilər, ona güclü təkan verməklə bu formalaşmaqda olan rəyi yüksəldə və ya yanlış hesab edərək onu rədd edə bilərlər. Neumannın nəzəriyyəsinə görə, media elə bir vasitəsdir ki, ictimai rəy üzərində güclü bir təsirə malik olmaq xüsusiyyəti ilə, insanların əksəriyyətində hər hansı bir ictimai problemə dair qərar verməyə imkan yaradır. Lakin sonradan ictimai rəy iştirakçısı ictimai rəyin özləri ilə eyni fikirlərdə olan şəxslərlə həm dəyişməyə, həm də eyni ilə saxlamağa imkanları vardır. Xüsusi maraq doğuran vəziyyət onunla əlaqədardır ki, insanlar bu qərarlarında doğru olub olmadıqlarını daim izləmək və nəticələri öyrənmək imkanlarına da malikdirlər. Odur ki, onlar burada olan üstünlüklərini və çatışmazlıqlarını əlaqədə və təmasda olduqları insanlarla "daim izləyirlər."[2, s.22] Bu nəzəriyyəyə görə, fərdlər şəxsi fikirlərinin səbatlı olmasını düşündüklərindən, daim diqqətli davranır və bəzi hallarda susmağa üstünlük verirlər. Beləliklə, fərdlərin cəmiyyət içindəki fikirləri reallıqda olduğundan daha zəif bir təəssürat doğurur.Onlar ictima fikir çevrəsi ilə görüş və kommunikasiyanın qurulması, onun meyllərinin dəyişdirilməsi və ya möhkəmləndirilməsi prosesində xüsusi rola malikdir. Bu vaxt, bir tərəfin susqunluğa qapılması və eyni anda digər tərəfin danışmağa başlaması sanki bir "səssizlik spiralı" yaradır və hadisələrin sonrakı inkişafında "gözləmə mövqeyi" formalaşdırır. Bu spiral "üstün gələn tərəfin fikrinin" hakim vəziyyətini getdikcə möhkəmləndirdiyi də bu nəzəriyyə ilə təsbit olunmuşdur. Yaranmış vəziyyətdə daha əvvəl bu ideya müəyyən qeyri-müəyyən quraşdırma halında olmasına

baxmayaraq, sonradan artıq hamı tərəfindən qəbul olunan bir “sosial norma” halına çevrilə bilir.

Noelle Neumann, “səssizlik spiralının” davamlı hərəkət halında olan bir proses olduğunu xüsusi olaraq vurğulamışdır və onun zənnincə, burada xalqın böyük əksəriyyətinin fikri, mediada daim təkrarlanan və insanlar üzərində hakim kəsilən əskəriyyətin fikri ilə üst-üstə düşən bir status-kvo yaradır. Təbii görünən odur ki, bu status-kvo qarşısında azlıq,adətən daha zəif səslə danışmağa başlayır və son olaraq tam susqunluğa qapılır.“Səssizlik spiralı” nəzəriyyəsi, qiymətləndirmə aparılması lazım gələn istənilən bir sahədə, həqiqət və ona verilən qiymət fərqinin demarkasiya xətlərini müəyyən etməli olarsa, bu zaman onun yalnız qavrayış və ideya əsaslarına tətbiq oluna bilməsi, onun həqiqətlər üzərindən yanlış və ya doğrunu müəyyən etməyə çalışmaması ilə səciyyələnir. [2, s.23]

İnsan sosial bir varlıq olaraq, daim öz ətrafından təcrid olunmaq təhlükəsi ilə üz-üzədir və cəmiyyətin hər bir nümayəndəsi ictimai rəy iştirakçısı kimi, öz ətrafdakılarından daim hörmət görmə gözləntisi ilə yaşayır. Odur ki, onlar daim təcrid olunma riskini aradan qaldırmağa, ətrafı və öz daxili dünyalarındakı hörmət və nüfuzu daim və hər vasitə ilə qorumaq üçün sanki gizli bir müşahidə aparır və hadisələrin gedişini daim nəzarətdə saxlamağa çalışır, hər növ danışıq və mühakimələrin inkişaf tendensiyalarını izləyir, yarana biləcək hər hansı bir meyli daim nəzarətdə saxlayır. Əgər bu təmasda yeni məsələlər zühur etmiş olarsa, o vaxt həmin fərdi fikirlər bu yeniliklərə dərhal reaksiya verir. Belə olan halda, fərdi fikirlərin və davranışların dəyişilməz olduğu sahələrdə insanlar dəyişikliyə açıq olduqlarını iki iqrupda formalaşdıra bilərlər: birincisi, ictimai rəyin qiymətləndirilməsində nisbi olaraq qəti və dəyişməz olan sahələr və ikincisi,cəmiyyətin ənənəvi “profilinə” uyğun olan “bəyənat qrupları”. Birinci sahədə, insanlar, cəmiyyət tərəfindən təcrid olunmasına səbəb olmayacaq, yəni “ümumietibarlı” fikirləri yaradan qruplara üstünlük verməyə çalışır. Bu vaxt onlar oz fikirlərinə yaxın olan digər qənaətlərin cəmiyyətdə daha geniş yayılması ilə

rastlaşdığı halda, özlərini cəmiyyətin içərisində daha etibarlı və əminliklə yoğrulan davranış modellərində biruzə verər və heç bir "qorxu" olmadan qrupla ünsiyyətə girə bilərlər. Tamamilə əks olan hallarda, insanlar öz fərdi fikirlərinin cəmiyyətdə zəmanətli şəkildə qarşılanmadığını gördükdə, onlar adətən daha "utancaq" bir şəkildə ünsiyyətə girirlər.[2, s.24]

Susqunluq və ya səssizlik spiralı davamlı olaraq mütəhərrik və dəyişikliklərlə zəngin ola bilən bir prosesdir, çünki ayrı-ayrı ictimai rəy iştirakçıları cəmiyyət və ya qruplar ətraflarında baş verən və baş qaldıra biləcək dəyişiklikləri müntəzəm olaraq izləyir və onlara uyğunlaşmağa çalışırlar. Bu nəzəriyyədə qeyd olunan digər ümumi cəhət onunla bağlıdır ki, fərdi və ictimai rəyin tutuşdurulmasında hər hansı bir gözləntinin fiaskoya uğradığı bir zamanda ayrı-ayrı fərdlər də yeni yaranmış və daha çox möhkəmlənmiş zəmanətli rəylərə uyğunlaşmağa meyl göstərirlər, çünki səssizlik spiralı müzakirəyə açıq hər hansı sosial və siyasi bir hadisənin bir növ nəticəsi kimi dəyərləndirilir. Bu səbəblə, davamlı araşdırmalar [24,31, 32,34,35, 36, 40, 55,57] göstərir ki, ictimai rəy nəzəriyyələri insan fəaliyyətinin çoxcəhətli sahələrini əhatə etdiyindən, o, kifayət qədər mürəkkəb bir quruluşa və məzmuna malikdir. O, sosial və humanitar elmlərin demək olar ki, bütün sahələrində öz məzmun aparatına uyğun olaraq əhatə olunur, lakin bütün bunlara baxmayaraq üstün sahələr kimi jurnalistika, beynəlxalq jurnalistika və sosiologiyanın daimi mövzusu olaraq arşdırmaçıların diqqətini çəlb edir.

### 2.4. İctimai rəy və onun ifadə vasitələri

İctimai rəy həyati vacib məsələlərin individual və icma şəklində bilavasitə və ya demokratik yolla bildirmə, müzakirə və ifadə etmə vasitəsidir. Odur ki, burada ifadə etmə və fikrini bildirmə vasitələrinin çox rəngarəng olması mühümdür. Vəziyyətdən asılı olaraq bu hətta ümumxalq müzakirəsi xarakteri ala bilər və KİV-lər vasitəsilə geniş işıqlandırılma imkanları əldə edə bilər. Maraqlıdır ki, bu vaxt "ictimai rəyin daşıyıcısı ilə onu ifadə edən tərəf heç də həmişə eyni olmur.

Yəni, ola bilər ki, böyük sosial qrupların ictimai rəyi nisbətən xırda qruplar və hətta ayrı-ayrı adamlar tərəfindən ifadə olunsun."[ 39, s.23] Bu, o məqama gəlir ki, istənilən fərd və ictimai qrup rəylərini söyləməkdə (istər yazılı, istərsə də şifahi) xeyli azaddır. Bir məsələni də qeyd etmək yerinə düşərdi ki, məhz kütləvi və ya ümumxalq referendumlar zamanı ictimai rəyin yazılı formasından istifadə olunması artıq ümumbəşəri və leqal bir praktikaya çevrilmişdir. "Deməli, cəmiyyətin hər bir üzvü ictimai rəyin ifadəçisi kimi çıxış edə bilər. Bu halda onun kütləvi elan etdiyi rəy, ictimai əhəmiyyət kəsb edən bu və ya digər məsələ barəsində hər hansı böyük sosial qrupun rəyini, münasibətini əks etdirməlidir. İctimai rəyin ifadə olunma növləri və formaları olduqca müxtəlifdir. Bu baxımdan onun üç növünü xüsusi olaraq fərqləndirmək lazımdır. [ 48, s.35]

Lakin ifadə olunma tərzlərinin müxtəlif formada olması onu yalnız dövlət orqanlarının tətbiq etdiyi referendumla-rəsmi tərzlə məhdudlaşdırmır, çünki digər– kortəbiişəkildə formalaşan (qeyri formal yerlərdə, küçə və məhəllələrdə, qeyri rəsmi yığıncaqlarda, şəhər və bazarda və sair geniş müzakirə olunan məsələlələr)ictimai rəy ifadə formaları da mövcuddur. Qeyd etməliyik ki, elmi rakursda aparılan şifahi  və ya anket sorğuları da, sosioloji rəyin öyrənilməsində ictimai rəyin ifadə vasitəsi hesab edilir. Heç kimə sirr deyildir ki, bu metodlar çox müxtəlif ictimai siyasi və iqtisadi konyukturanın formalaşmasında geniş imkanlara malikdir. Bəzi müəlliflərin qeyd etdiyi kimi, "ictimai rəyə sosioloji yanaşma onun iki səviyyəsini fərqləndirməyi tələb edir. Bunlardan, birincisi sözdə, danışıqda (verbal) ifadə olunan səviyyə, digəri isə əməli iş səviyyəsidir. [15, s.61] Lakin bu bölgü ümumilikdə radikal xarakter daşımır, çünki son nəticədə sosioloji tənzimləməyə xidmət etdiklərindən onlar arasında sıx qarşılıqlı bağlılıq vardır. Maraqlıdır ki, hazırda Azərbaycan Respublikasında iqtisadiyata dair ictimai rəyin öyrənilməsi sahəsində xeyli uğurlu işlər aparıldığı halda, sosial və ictmai məsələlər barədə kifayətedici məlumatlar yalnız statistikaya istinadən verilir.

Fərd, qrup, əhali kütləsi, cəmiyyətin əhvali-ruhiyyəsi, cəmiyyət tərəfindən ümumilikdə qəbul edilən rəylər, ictimaiyyətin sosial normalar və dəyərlər sistemi, cəmiyyətdə movcud olan sosial-psixoloji, mənəvi-psixoloji mühit, ölkə daxilində və xaricdə nəşr olan mətbuat, qəzet və jurnallar, ictimai və xüsusi radio və televiziya kanalları, formal və ictimai nəzarətin vəziyyəti, yazılı və şifahi reklamlar, xəbər saytları və xəbər bülletenləri, cəmiyyətdə ümumxalq şəkildə qəbul olunmuş ənənə və vərdişlər, cəmiyyətin ictimai şüur formaları hesab edilən din və mədəniyyət, elm və novatorluq və digər çox müxtəlif spektrə malik olan sosial hadisələr bu ictimai rəyi yaradan alət və vasitələr, üsullar kimi çıxış edir. Lakin yaranmış tarixi siyasi proseslərdə bu vasitələrə ictimai inam çox müxtəlif olduğundan onların bir təsir vasitəsi kimi ictimai rəyə təsir mexanizmi çox müxtəlif olur. Biz hesab edirik ki, bu çoxluqda olan təsir vasitələri müxtəlif sistemlə yanaşmaların mövzusu olduğundan, onların müxtəlif meyarlarla təsnifat edilməsinə ehtiyac vardır. Odur ki, zənnimizcə, bütün bu ictimai rəyə təsir vasitələri endogen (ölkədaxili proseslərdə baş verən hadisələr) və ekzogen (ölkədə kənarda baş verən hadisə və proseslər) olmaqla iki qrupa bölünə bilər. Əvvəlki fəsillərdə qeyd etdiyimiz kimi, ictimai rəy, həm də tarixi şüur baxımından yanaşıldıqda görərik ki, insan həyatının ilkin çağlarında və ondan sonrakı dövrlərdə, xüsusilə Orta Əsr tarixində insanların həyatında daxili məsələlərə həsr olunmuş problemlər üstünlük təşkil etdiyindən, ekzogen faktorlar arxa plana keçmiş olurdu. Bu, cəmiyyət üzvlərinin xarici işlərlə müqayisədə gündəlik ailə və yaşayış məsələlərinə daha çox üstünlük verməsi ilə əlaqədar olmuşdur. Digər bir səbəb cəmiyyətin ictimai rəyində “hüquqsuzluq” faktının daha geniş yayılması və insan hüququ anlayışının hələ formalaşmaması ilə bağlıdır.

Hüquqi sistemlər, konvensiyalar və sazişlər, ictimai yurisdiksayanın getdikcə inkişaf etməsi, insanlar və dövlətlər arasında kommersiya və sazişlərin meydana gəlməsi isə (bu təqribən Roma İmperiyası dövründə XII və XIV əsrlərə təsadüf

edir) ekzogen faktorlar da ictimai rəy konsepsiyasını tərkib elementinə daxil olmuş və fəal həyat mövqeyi ilə daha da güclü formalaşmağa başlamışdır.

İrəli sürmək istədiyimiz digər bir teziz ictimai şüur vasitələrin sosioloji və texniki ünsürlər altında formalaşı ilə bağlıdır. Burada bütün tip sosial və iqtisadi münasibətlər və onların yaranmasında iştirak edən mənəvi, sosial və psixoloji mühitin yaratdığı bütün elementlər, sosial rifah, sosial əhval, sosial-psixoloji bağlılıq, sosial köklənmə və orientasiyalar və sair iştirak edir. Bunun əksinə olaraq, radio və televiziya, mətbuat və virtual texnologiyalar və sair texniki amillərlə sıx bağlıdır. Lakin qeyd etməliyik ki, bu iki növün hər ikisinin birgə iştirakını ehtiva edən vasitələr də mövcuddur. Məsələn, qəzet, jurnal, radio, televiziya kimi vasitələr texniki vasitələrlə yayılsa da, onlar sosial əhval ruhiyyənin və rəyin daşıyıcıları kimi iştirak edirlər. Ona görə də bu tip bölgünü apararkən kifayət qədər obyektiv və subyektiv əlaqələrin bir-biri ilə olan təbii dialektikasını yaddan çıxarmaq lazım deyildir.

İctimai rəy vasitələrinin təbiətinin müəyyən edilməsindəki çətinliklər elə bu rəydə obyektiv və subyektiv tərəflərin özünün fenomenoloji təbiəti və onlar arasında olan obyektiv və subyektiv əlaqələrin qarşılıqlı təsir göstərmə və bir-birinə diffuz etmə təbiətləri durur. Öz təbiətinə görə ictimai rəy subyektlərin fikir və qənaətlərini təcəssüm etdirdiyindən o subyektivdir, lakin digər tərəfdən, ictimai rəyin mahiyyəti yalnız orada iştirak edən fərdlərin summativ rəylərinə də bərabər olmadığı üçün, bu fərdi rəylər birləşərkən orada iştirak edən digər elementlərin, məsələn, adət və ənənələrin, tarixi şüurun və sair təsirini əks etdirdiyindən, o, həm də obyektiv təbiətə malikdir.

Göründüyü kimi, nə qədər asan təqdim edilsə belə, ictimai rəyi yaradan bütün hadisələrə kompleks və sistemli yanaşma etmədən onu real mahiyyətinin yalnız daxili struktur elementləri ilə izah etməkdə çətinlik törədir.

Biz ictimai rəy yaradan vasitələrin içərisində bu gün daha qabarıq şəkildə özünü biruzə verən KİV haqqında xüsusi olaraq danışmaq istərdik. Bu onunla bağlıdır ki, ictimai həyat intensivləşdikcə insanlar öz fikir və qənaətlərini daha tez və çevik surətdə bir-birinə çatdırmaq üçün universal üsullara daha çox meyl edir. Bundan başqa, ictimai rəyin önəmi yüksəldikcə onun yaranma mexanizminin yeni tip və formaları da insanların fəaliyyət dairəsinə daxil olur. Bu gün heç kim şübhə etməz ki, hətta qeyri formal və qeyri dəqiq olduğu hallarda belə virtual vasitələr, sosial şəbəkələr, veb saytlar və digər operativ sosial rəy yaratma formaları kağız texnologiyasını xeyli geridə qoymuşdur. Məhz elə bu səbəbdən də, xüsusilə gənc nəsl bu mexanizmlərlə daha çox əməliyyat edir və ictimai rəyə təsir etmək imkanları qazanırlar.

Bir məsələ haqda xüsusi olaraq danışmaq istərdik ki, bu da ictima rəydə müəyyən qədər və hətta müvəqqəti olsa belə iştirak edən şaiyələrin rol oynamasıdır. Bəzən bu tip mesajlar məqsədyönlü xarakter daşığından təkzib olunsalar belə ictimai yaddaşda müəyyən izlər buraxmış olurlar. Odur ki, media vasitələri üzərində sosial nəzərətin formalaşması və legitim üsullarla mübarizə metodları bu gün ictimai rəydə və mediada ən çox müzakirə olunan mövzulardandır.

Xəbər mediası ictimaiyyəti inkişaf etdirmək və ona təsir etməkdə mühüm və əhəmiyyətli rol oynadığından, hətta onun ictimaiyyətin "aynası" olduğu da deyilir; yəni ictimaiyyət xəbərləri oxunma tezliyinə görə  təkrarlayır və ya izləyir, xəbərlərdə baş verənlərə həssaslıqla yanaşır və ictimai qənaət və qərarlar qəbul etməklə fikir formalaşdırır. Bir millətin iradəsinə hakim kəsilmək, xalqın diqqətini bir neçə vacib ictimai məsələlərə yönəltmək üçün xəbərlərin gücü kütləvi və yüksək səviyyəli təsirə malikdir. İnsanlar yalnız ictimai məsələlər haqqında ictimaiyyətlə əlaqəli məlumatları mətnlərdən, izləyicilərdən və oxuculardan əldə etməklə yanaşı, xəbərlərdə göstərilən işıqlandırmanın əsasında da xəbərlərdən də öyrənirlər.KİV-in gündəmində bir çox müxtəlif jurnalistlər və onların rəhbərləri

tərəfindən ani xəbərlər haqqında çoxsaylı gündəmə gələn nəticələr və qərarlar demək olar ki,hər gün ictimaiyyətə təqdim edilir.

## III FƏSİL. MEDİANIN SOSİAL FUNKSİYASI VƏ İCTİMAİ RƏYİN FORMALAŞMASINDA ROLU

### 3.1. Medianın ictimai rəy funksiyası haqda qısa məlumat

İctimai rəyin formlaşamasında fərd və qruplarla yanaşı, texnologiyanın inkişafı nəticəsində artan kütləvi informasiya vasitələrinin fəaliyyətinin xüsusi yeri vardır. Kütləvi informasiya vasitələrinin qənaətin yaranma müddətinə daha geniş bir şəkildə töhfə verirdiyi şübhəsizdir.

Media insanları əyləndirmək, asudə vaxtlarını keçirtmək ilə yanaşı başverənlər haqqında informasiya vermək funksiyasınıda daşıyır. Texnologiyanın inkişafı

nəticəsində xəbərin yayılmasının aniləşməsi ilə yanaşı, xəbərlərin ölkə əhalisinin fikirlərini təkmilləşdirdiyidə danılmaz faktdır. Günlük hadisələr barəsində xəbər verməklə birgə media, insanların siyasi hadisələr haqqında məlumat əldə etməsi və qənaət formalaşdırması üçün ən çox istifadə olunan vasitədir.

Mətbuat, radio, televiziya kimi kütləvi informasiya vasitələri insanların ancaq mövcud olan fikirlərini gücləndirə bilir, lakin fikirləri dəyişdirməkdə təsirsizdir. Araşdırmalar yazılı və sözlü komunikasiya vasitələrində işləyən yazarların fərdlərə təsir etdiklərini və onların mövqe və qənaətlərini yönləndirdiyini vurğulayırdılar. XX əsrin ən təsirli siyasi gücü olan, ictimai rəyin gündəmini formalaşdıran media xəbəri təqdim etmə üsulu ilə xalqın düşündüyü və danışdığı mövzuları müəyyənləşdirir.[1, s.72] Digər tərəfindən medianın yanlış məlumat verməsi, informasiyanı təhrif etməsi fikirlərin yanlış istiqamətlənməsinə səbəb olur.

Media ictimaiyyət və siyasətçilər arasında vəzifələrin yerinə yetirilib yetirilməməsini yoxlayan bir mexanizma rolunu oynayır. Beləliklə xalqın istəklərinə uyğun siyasətlərin həyata keçirilməsinə yardım edir. Başqa deyişlə media vətəndaşların hökümətlərini yoxlama vasitəsidir.

Alman politoloqu Elizabet Noelle Neumannın 1970-cı ildə yaratdığı "Səssizlik spiralı" nəzəriyyəsində vurğulayır ki, insanlar şəxsi təcrübələrindən kənarda qalan mövzularda tamamilə mediadan asılı vəziyyətə düşürlər, hətta cəmiyyətdən təcrid olunma qorxusu yaşayırlar.[2, s.27] Bu qorxuları onların düşüncələrini daim nəzarətdə saxlamağa, hansı fikirlərin daha məşhur olduğunu öyrənməyə vəsilə olur. Nəticədə mediada tez-tez ifadə edilən fikirlər cəmiyyətin fikirlərimiş kimi qəbul edilir. Bu, həm də media rəhbərlərinə hansı fikirlərin etibarlı olduğunu müəyyənləşdirmə üstünlüyünü verir.

Shanto İyengar, "Siyasətə əlçatanlılıq: Televiziya xəbərləri və ictimai yayım" məqaləsində medianın sadəcə gündəm müəyyənləşdirməklə qalmayıb, xüsusilə

siyasi liderlərin dəyərləndirilməsində istifadə olunduğunu vurğulayıb. İyengara görə media xəbərlərində təkrarlanan mövzular və problemlər tamaşaçının prioritetinə çevrilir. İyengar xüsusilə seçki dövründəki xəbərçiliyi “at yarışı xəbərçiliyi” vəziyyətinə gəldiyini, medianın problemlər əvəzinə kimin qalib gəlib, kimin uduzacağı məsələsiylə daha çox maraqlandığını, bunun nəticəsində seçicilərin də bu istiqamətdə qərar verdiklərini bildirir.
Araşdırmalardan anlaşıldığı qədər, medianın bəzi problemləri gündəmə gətirərək, bəzilərini gündəmə gətirməyərək, həm fikir mübadiləsinə təsir edir, həm də qiymətləndirmə meyarlarını müəyyənləşdirir.

KİV ictimaiyyətin hər bir üzvünün öz rəylərini bildirməsi üçün mühüm vasitədir. Digər tərəfdən, o, müxtəlif icma mənsubları içərisində kommunikasiya kanallarının qurulmasına yardımçı olur. “İctimaiyyət ancaq kütləvi kommunikasiya vasitələri sayəsində daxili əlaqəsini saxlayır. Bu səbəbə görə kütləvi informasiya vasitələri üzərində nəzarət çox zaman ictimai rəy üzərində hakimiyyət deməkdir”. [ 4, s.28] Məsələn, istər elektron veb səhifələr olsun, istərsə də qəzet və jurnalllar Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün hansı üsulun seçilməsi illərdən bəri ictimai rəydə qalmasına baxmayaraq, “savaş yolu” alternativləri də nəzərə alsaq, çox böyük üstünlüklə lider kimi qalmaqdadır. Eyni tip sorğular ictimai-ekoloji şəraitin öyrənilməsi zamanı və sair məsələlərdə də geniş müzakirə imkanları açır. Deməli,“demokratik idarəçilik formaları olan müasir cəmiyyətlərdə ictimai rəyin rolu getdikcə artmaqdadır. [13, s.651] Bu, bir sıra səbəblərlə əlaqədardır.

Bunun, zənnimizcə, üç mühüm səbəbi vardır. İlk öncə qeyd olunmalıdır ki, bu ictimai həyatın intensivləşməsi, vətəndaş cəmiyyəti qurmaq yolunda icma nümayəndələrinin hədsiz fəallığının artması ilə əlaqədardır; belə ki get-gedə ümumi təzyiq mərkəzlərinin formalaşması üçün edilən aramsız cəhdlər KİV-lərin müdaxiləsini xeyli artırmışdır. Digər halda, bu KİV-lərin çevikliyinin güclənməsi

ilə bağlıdır. Nəhayət, bütöv bir xalqın, qrupun və sair mənafeyinə təsir edə biləcək lider seçimi məsələsi, tarixdə şəxsiyyətin rolunun yüksəlməsini ehtiva edir. Odur ki, liderlərin reklamı və bununətrafında baş verən hadisələr buna sübutdur. Heç də təsadüfi deyildir ki, hətta ABŞ-da "Jerry-go mendering" (liderlər ətrafında saxta propoqandalar) kimi hərəkatların olması heç kimi təəccübləndirmir. Lakin unutmamalıyıq ki, "kütləvi informasiya vasitələrinin təbliğat işi ictimai rəyin istiqamətliliyi, intensivliyi və inteqrasiyası barədə dəqiq, elmi cəhətdən əsaslandırılmış məlumatlara istinad etməlidir. Geniş mənada təbliğatın məqsədi ictimaiyyət tərəfindən idarə edən tərəfə lazımlı nöqteyi-nəzəri qəbul etməyə istiqamətləndirməkdən, iqtisadi, siyasi və ya sosial hadisələri müdafiə və ya rədd etməyə yönələn köklənmələr sistemi yaratmaqdan ibarətdir. [26, s.28] Məsələn, ABŞ -ın siyasi tarixində, siyasi kampaniyanın əvvəlində ümumiyyətlə tanınmayan Jimmy Carter sıx reklam və üz-üzə ünsiyyət nəicəsində seçgini qazandı və prezident oldu. Bir qədər fərqli olsa da bunu ABŞ-ın son prezidenti Donald Tramp haqda da demək olar. İri miqyaslı media hadisələrinə prezidentliyə namizədlərin debat verlişlərinin televiziyada yayımlanmasını misal göstərmək olar. 1960-cı ildə John Kennedi və M. Nixon arasındakı dört debat təşkil olunub. Her biri canlı olaraq yayımlanan televiziya proqramalarında tamaşaçıların 55%-nin dört debata, 45%-nin isə bir debata baxdığı məlum olmuşdur. Jurnalistlər Kennedinin debatlardakı çıxışlarının seçkini qazanmasında böyük rolu olduğunu vurğulayırdılar.

Təhsil sahəsində tələbələrin rəy sorğusu, onaların ictimailəşdirilməsi ictimai rəyin çoxşaxəli olmasına bir daha sübutdur. Bununla belə, təhsil prosesinin siyasi ideologiya ilə çulğalamaq özü də qadağan olunmuş sayılır. Bəzi hallarda isə, süni surətdə şişirdilmiş ictimai rəy konkret faktlarla fiaskoya da uğraya bilir və bu zaman reallıqla rəylər arasında uçurum yaranır, ictimai rəydə koqnitiv dissonans müşahidə olunur. Təbii olaraq, belə hadisə baş verəndə heç də birmənalı situasiya yaranmır və hətta bəzi ideoloqlar iddia edirlər ki, yaxşı olardı ki, bu cür hadisələr

ictimailəşdirilməsin. Bunun əksini iddia edənlərin də sayı az deyildir, “lakin ictimaiyyət nümayəndələri əvvəlki nöqteyi-nəzəri o qədər də qızğın müdafiə etmirsə, şəxsiyyət xüsusiyyətlərinin qoşulması o qədər də dərin deyildirsə, o halda koqnitiv dissonans təbliğatın təsiri nəticəsində ictimai rəydə dəyişiklik dərəcəsinin artmasına gətirib çıxara bilər. [26, s.29] Və ya, “cəmiyyətin hər bir üzvü üçün “optimal ayrılıq”, “optimal fərqlilik” mövcuddursa, bu, ictimai rəyin maksimum dəyişilməsinə səbəb olur.Əgər təbliğatın hakimiyyəti məhdudlaşdırılmayıbsa, onda, belə təsəvvür yarana bilər ki, cəmiyyətin böyük maliyyə ehtiyatlarına malik olan, yaxud ictimaiyyətlə əlaqə agentlikləri olan təbəqələri və ya sosial qrupları öz şərtlərini həmişə başqalarına diktə etməlidirlər. [ 8, s.32]

İctimai rəyin formalaşdırılması üsullar çox müxtəlif olduğundan onun dərk olunması da bəzən məhdudiyyətlər yarada bilir. Bu əksər hallarda rəqabətli tərəflərə şamil olunur. Süni təbliğatlar vasitəsilə rəqabətli şəraitdə üstünlüyün əldə edilməsi daha çox totalitar rejimlərə xasdır. Bu zaman tərəflər arasında detrimental ziddiyyətlər müvcud olur və ən qorxulusu da onda ibarətdir ki, bu zaman geniş xalq kütlələrinin mənəvi aləminə, onların kredosuna böyük təhlükələr yarana bilir.

Digər bir halda isə reallıqların kvazi mənzərəsinin yaratmaqla üstünlük əldə etmək cəhdləri ilə bağlıdır. Bu cür hallarda elmi və sosiloji resursların səfərbər olunması da istisna hesab edilmir.Daha bir amil insanların təhsil, din və sair kimi mənsubiyyətləri üzərində spekulyasiyaların mövcud olmasıdır. Bütün bunlar onu deməyə imkan verir ki, ictimai rəyin formalaşdırılması üsulları cox zəngin olmaqla bərabər bəzi hallarda tamamilə “innovativ” məcraya yönəldilir. Bu vaxt mahiyyət xarakterli hadisələrin kölgədə qalmaq riski yaranır və süni ustanovkalar-“köklənmələr” meydana gəlmiş olur. Əsas çər isə ondan ibarətdir ki, “informasiyanın yayılması insanların kütləvi mənəvi ünsiyyətinin ayrılmaz

hissəsidir; bu, bəşəriyyətin inkişafının müəyyən pilləsində meydana gəlmiş, bilavasitə şəxsiyyətlərarası ünsiyyəti tamamlamışdır. [4, s.42]

Əhali və onun audiensiya keyfiyyətini bir sıra indikatorlar müəyyən edir və onlardan ən mühüm olanı təhsil və onun səviyyəsi ilə bağlıdır, cünki onun "səviyyəsi bu və ya digər informasiya mənbəyinə xas olan auditoriyanın seçilməsinə birbaşa təsir göstərir; bu, təklif edilən informasiyanın məzmununu başa düşməkdə və ondan istifadə etməkdə mühüm göstəricidir. Lakin təhsilin universal, abstrakt xarakterli meyarları yoxdur. O, bu və ya digər cəmiyyətin sosial şəraitində müxtəlifcür əks olunur."[16, s.12] İctimai rəyin formalaşdığı məkanlar öz imkan və reallıqlarına görə daimi və ya müvəqqəti ola bilər, odur ki ictimai rəyin məqsədyönlü formalaşdırılması zamanı bu amildən daha geniş istifadə olunur və bu işə, necə deyərlər, professionallar cəlb edilirlər. Bu vaxt zaan və məkan parametləri də mühüm əhəmiyyət daşıyır; məsələn, tamamilə həqiqət olan bir ictimai rəyin digər bir məkanda və zamanda səslənməsi qeyri səmərəli də ola bilər. Məhz buna görə də, bütövlükdə informasiya mənbələri sistemi düzgün seçilməli, təbliğatın paraılaçağı KİV dəqiq müəyyən edilməli və individual mənbə, misal üçün, TV kanalı və qəzet təşkil edilməlidir. [16, s.13]
Bu kimi məsələləri araşdırarkən görkəmli sosioloq T.İ. Zaslavskaya qeyd edirdi ki, geniş əhali kütləsi reallıqları qavramaq üçün keçmiş ehkamlardan uzaqlaşmalı, "bərabərsizlik" analayışının əbədiləşdirilməsi kimi xülyalara dalmamalı, ümumi maraq kəs edən amillərlə xüsusi şəxslərə xidmət edən forma və sistemləri dərk etməlidirlər.

### 3.2. Televiziya və ictimai rəy

XX əsrin ortalarından meydana çıxan televiziya digər kütləvi informasiya vasitələrini geridə qoydu. Hal hazırda televiziyaya insanlar arası ünsiyyətdən daha çox zaman ayırırıq. Aparılan araşdırmalar televiziya xəbərlərini izləyənlərin

sayının radio və mətbuat auditoriyasından çox olduğunu tədqiq etmişdir. Amerikalı məşhur televiziyaçı Walter Cronkite elektron media ilə mətbuatın bir-birini tamamladıqlarını, elektron medianın başlıqları verdiyini, mətbuatın isə xəbərin təfərrüatlarını açıqladığını qeyd edir. Amma təəssüf ki, insanların çoxusu ekranda başlıqları izləməklə kifayətlənir və bu səbəbdən də realda olanların əksik məlumatını əldə edir. Beləliklə də televiziya Amerikada cahil, zəif insanların yetişməsinə yol açmaqda günahlandırılır.

Müxbirlərin hadisələri dərk etmə formaları televiziyadakı səs və görüntü vasitəsilə izləyicilərin üzərində müəyyən bir təsir yaradır. Operatorlar sevdikləri siyasətçini yaxın planda, göz nahiyyəsindən çəkərək rəğbət yarada bilər və onlar siyasətçini sakit və rahat bir insan kimi göstərə bilərlər. Əks halda isə ümumi planda başdan ayağa çəkərək o insanın sevimsiz olduğunu düşündürə bilərlər. Tamaşaçıların reaksiyasının hansı planda göstərilməsi də vacibdir. Çəkiliş formasına görə tamaşaçının reaksiyası olduğundan daha güclü, ya da daha zəif görünə bilər. Ekrandakı görüntüyə nə qədər az insan sığdırılırsa təsir o qədər böyük, görüntüyə nə qədər çox insan alınarsa təsir o qədər zəif olar. Aparılan araşdırmalarda opertorların və çəkiliş heyətlərinin tamaşaçıların qavrayışını təsir altına aldıqlarını tədqiq edib.

Lipman, medianın öz qavrayış və təcrübələrini tamaşaçının öz fikirləri kimi qəbul etdirməyə meyilli olduğunu araşdırmalarında vurğulamışdır. Amerikalı tədqiqatçıların "qarşılıqlı cəhalətlər nəzəriyyəsi", yəni xalqın xalq haqqında səhv düşünməsi, medianın təsir gücü hesabınadır. [48, s.41]

Televiziya səsvermə nisbətinin düşməsi, həyati problemlərə siyasi kampaniyalarda fikir verilməməsi, siyasi partiyaların zəifləməsi, liderlərin və hökümətlərin problemləri həll etməsi taktikaları əvəzinə, simvolik taktikalar istifadə etməyə başlaması və başqa bir çox problemlər daxil olmaqla bir çox yardımı etdiyi söylənilir. Məsələn, ABŞ-ın eks-prezidenti Ronald Reagannın

məşhurluğunu və əhəmiyyətli siyasi müvəffəqiyyətlərini televiziyadan professional istifadə edə bilmə qabiliyyətinə borcludur.

Televiziya xəbərlərini, hökümətə qarşı olan inamsızlığı artdırdığını ifadə edənlərlə yanaşı, hakim siyasi partiyanın yandaşı olduğunu, onların mənfəəti üçün çalışdığını düşünənlərdə vardır. Televiziya yayımında xəbərin çatdırılma ardıcıllığı, xəbəri əlaqələndirən qismin təsirlənmə dərəcisində fərqlilik yarad bilər. Yaşlı insanlar cinayət xəbərlərinə qarşı daha həssasdırlar. Dövlət işçilərini işdən çıxarılma, işsizlik, maaş artım xəbərləri daha çox maraqlandırır. Televiziya xəbərlərinin yaşlı tamaşaçıları, sosial təhlükəsizlik ilə əlaqəli xəbərləri izlədikdən sonra milli problemlərin başında sosial problemləri vurğulamaları ehtimal olunandır. Zəncilərin, irqi ayrı seçgiliklə bağlı xəbərləri seyr etdikdən sonra bunu vacib bir problem kimi görmələri, ağdərili insanlara nisbətən daha yüksəkdir. [17, s.23]
Televiziya. həm də təsirli bir ictimai rəy formalaşdırma vasitəsidir. Məsələn Amerika televiziyalarında Efiopiyada baş verən qıtlıqla bağlı göstərilən xəbərlər bu mövzuya dünyanın diqqətini çəkmişdir. Bu mövzuda Micheal İgnatieff belə yazır: "Efiopiya ilə əlaqəli televiziya xəbərləri xüsusilədə Qərb bölgəsində mərhəmət hislərini oyandırdı. Televiziya ictimai rəyin təzyiqinin, uzun müddətdir özünü göstərən ərzaq böhranının bir faciəyə dönüşməsinə səbəb olan bürokratik hərəkətsizliyi, ideoloji bəhanələri aşmasını təmin etdi. İki xalq arasında birbaşa münasibət yaradılmasına səbəbiyyət vermişdir. Televiziya olmasaydı, daha uzun illər ölkəni hər iyirmi ildən bir təsir altına alan ərzaq böhranından Qərbin xəbəri olmayacaqdı və minlərlə Efiopiyalı ölməyə davam edəcəkdi". Hər nə qədər televiziya bu hadisəni son mərhələsinə qədər görməzdən gəlsə də və görüntülərin, jurnalistlər üçün dəhşətli dərəcədə "gözəlliyi" bu hadisəyə diqqətlərini cəzb etdirsə də, televiziyanın burada yaratdığı ictimai rəy hesabına yardımların göndərildiyini unutmaq olmaz.

1980-ci illərdə televiziya xəbərlərinə baxsaq həqiqətlərin təhrif olunduğu, xəbərin tərəfli olduğu, şişirdildiyinə dair stabil fikirlərə qarşı televizya xəbərləri böyük güc formalaşdırmağa davam edirdi. Televiziya jurnalistikası, şübhəsiz şəkildə siyasi kampaniyaların, dünya problemlərinin, iqtisadi prioritetlərin, ətraf mühit problemlərinin təqvimini formalaşdırmağa davam edirdi. Xəbər aparıcıları isə ictimaiyyətin müqəddəs təmsilcisi olaraq yüksəlirdilər. Bu təəssürat televiziyanın, bir ictimai xidmət olmaqdan daha çox əyləncə şousuna bənzəməsinə və elə inkişafına səbəb olurdu.

Marilyn Matelskinin kitabında yer verdiyi Will Rogersin müşahidələri televiziyanın ictimai rəy üçün vacibliyini belə qeyd edərək göstərmişdir ki, əvvəllər nə bilirdiksə mətbuatda yazılanları bilirdik, bugün sayı getdikcə artan Amerikalının bildikləri televiziyada gördükləri və eşitdikləridir. Ölkədə və dünyada baş verən hadisələr haqqında nə öyrənəcəyimizə onlar qərar verir. Onlar xəbərləriylə və şərhləriylə bir müharibə yarada və ya sülh edə bilərlər. Onlar bir həftədə insanları heçlikdən şöhrətə yüksəldə bilərlər. Bəzi siyasətçiləri irəli çəkə, bəzilərini isə görməzdən gələ bilər. Eyni zamanda, milli şüurun inkişafına töfhə verə bilərlər. Güclərini daha çox kritik problemlərdə ictimai şüuru oyandırma məqsədilə, konstruktiv və yaradıcı şəkildə istifadə etmişdir. Televiziyada göstərilənlərin canlı olması tamaşaçını hadisənin baş verdiyi yerə aparır, hadisənin şahidi edir, hadisələri izlədərək onda yaşanmışlıq hissi oyadır. Canlı yayımlarla məlumatları daha operativ ötürülməsi televiziyaya tamaşaçı diqqətini çəkir.Televiziya ilə millətə səslənən siyasətçinin fikirləri, iclaslar və mitinqlər ilə yayılacağından daha geniş miqyası əhatə edəcək. Tamaşaçı televiziya vasitəsilə əldə etdiyi informasiyanı öz fikirləri ilə qarşılaşdıraraq şəxsi mövqeyini formalaşdırır. Xəbər vermək, maarifləndirmək, əyləndirmək məqsədi ilə hazırlanan proqramlarla yanaşı televiziya hakimiyyətin təzyiqi ilə istiqamətverici proqramlar da yayımlayır. Auditoriya açıq və doğru məlumat əldə etməzsə, sağlam ictimai rəydə formalaşdıra bilməz.

Yeni hadisələr haqqında fikir formalaşdırma, və ya köhnə fikirləri dəyişdirmə gücünə sahib medianın ictimai rəyi formalaşdırmasındakı əhəmiyyətli rolunu vurğulayan J.N. Rosenau qənaət yaradıcıları ilə qənaət sahibləri arasındakı ən vacib ünsürün media olduğunu, bu vasitələrə sahib olmağın və ya onları istifadə etmənin qənaət yaratmaqdakı təsirindən danışmışdır. [12, s.27]

Televiziya hakim ideologiyanın və onun yaratdığı sosial strukturun ən güclü silahıdır. Daha geniş auditoriyası olduğu üçün televiziya siyasi debatlar üçün əhəmiyyətli vasitə olaraq görülür. Əsasən seçim kampanyaları ərəfəsində siyasətçilərin özlərini daha yaxşı tanıtması üçün qarşılıqlı söhbət və mübahisə edirlər, seçilmiş jurnalistlərin suallarını cavablandırırlar. Bu proqramların təsir gücü o qədər yüksəkdir ki, bəzən şanslı görünən nümayəndə, debatdan sonra səs verməni uduzmuşdur. 1960-cı il Amerika prezident seçkilərində Nixon və Kennedy arasındakı debat buna nümunədir. Debat zamanı Nixonun ayağının axsaması, studianın dekoruyla eyni rəng geyinməsi, yorğun və əsəbi görünməsi, əksinə Kennedynin geyiminin dekorla uyğunluğu, jurnalistlərin suallarına uyğun cavab verməsi, mübahisə zamanı daha çox hücum etməsi, Nixona əhəmiyyət vermədən kameraların içinə baxaraq danışması, səmimiyyəti onun ictimaiyyət tərəfindən mənimsənilməsinə təmin etdi. Bu mübahisələri yüz iyirmi milyon insan seyr etmişdi və nəticədə Kennedy yüz iyirmi min səs çoxluğu ilə səsverməni qazanmışdır.

### 3.3. Radio, mətbuat və ictimai rəy

Radionun televiziyanın əksinə hər hansı bir məkanda,istənilən yerdə qulaq asma imkanı, mətbuatın əksinə oxuma və yazma bilməyən insanlara səslənməsi təsir gücünü artırırdı. Radio əsasən I Dünya Müharibəsindən sonra xəbər alma vasitəsi kimi əhəmiyyət qazanmışdır. İnsanların düşüncə və qənaətlərinə təsir etmə

baxımından mətbuata nisbətən daha güclü olan radio ictimai rəyin formalaşmasında da rol oynayır.

Kütləvi informasiya vasitələrinin hər biri ictimai rəyi formalaşdırır və yönləndirir. Bəziləri daha az, bəziləri daha çox insana təsir edə bilir. İctimai rəyə hansının daha vacib olduğu deyil, verdiyin məlumatın digər vasitələrlə paralelliyi və digər vasitələrin onu dəstəkləməsi vacibdir. [1, s.34]
1920-cı ildə, insanlar müharibə zamanı radionun təbliğat vasitəsi kimi necə istifadə edildiyini müşahidə etdilər. İlk dəfə 1920-ci ildə Amerikada bir stansiyadan yayımlanan seçki xəbərləri radionun təbliğat vasitəsinə çevrilməsini dəstəklədi. Amerika Birləşmiş Ştatlarında prezident Franklin Roosveltin Amerika xalqına birbaşa yayımlanan "ocaqbaşı söhbətləri" və Orson Wellesin hazırladığı "Dünyalar müharibəsi" adlı radio verlişi o dövr üçün radionun ictimaiyyətə necə təsir etdiyinə ən yaxşı nümumədir. Radio, Avropada Hitler tərəfindən daha vacib və təhlükəli informasiya vasitəsinə çevrilmişdi.
Siyasi bir güc kimi radionun təbliğat potensialı təxmin edilməyəcək qədər genişdir. Radionun bu siyasi roluna görə ABŞ xaric, demək olar ki, bütün ölkələr radio qurmaq və işlətmək imtiyazını dövlətə vermişdirlər. Bu halda radio qurumunun tam tərəfsiz idarə edilməsini düşünmək mümkün deyil. Almaniyanın Təbliğat Naziri Goebells radionu "təbliğat vasitələrinin ən güclüsü" olduğunu vurğulamışdır. Radionun təsiri və inandırıcılıq gücü o qədər çoxdur ki, bəzən olmamış hadisəni belə gerçəkmiş kimi insanlara qəbul etdirir. Məsələn, 1938-ci il oktyabrın 30-da, Amerikanın CBC radiosu, birdən Orsen Wellesin, Marslıların dünyayı işğal etdikləri ilə bağlı proqram yayımlamağa başladı. Hadisə o qədər real qələmə verilmişdi ki, yayım bitməmiş insanlar Allah yalvarıb xaç çıxarır, Marslılardan qaçmaq üçün yollara düşür, qohumları ilə vidalaşır, ətraflı məlumat almaq üçün qəzet redaksiyalarına yollanırdılar.

Radionun bu gücü haqqında Lazarsfeld, Berdson və Gaudet apardıqları

araşdırmalar nəticəsində, dinləyicilərin radioya qarşı şəxsi yaxınlıq hiss etdiyini və bunun "üzüzə təmasa yaxın" bir vəziyyəti yaratdığını tədqiq etdilər. Mətbuatı radio və televiziyadan fərqləndirəsi olsaq, xəbərlərin daha geniş, ətraflı təqdim edilməsini və jurnalistlərin şərh, tənqid etmə üstünlüklərinin olmasını vurğulamalıyıq. Mətbuatı televiziya və radiodan fərqləndirən bir digər ünsür çap məhsulu olmasıdır.[10, s.36]

Kütləvi informasiya vasitələrindən ən vacibi olan, uzaq-yaxın keçmişin və ya günün xəbər və hadisələrinin verilməsində, fikirlərin xalqa çatdırılmasında əhəmiyyətli rol oynayan qəzet, ölkənin problemlərinə diqqət çəkərək oxuyucularının dünyagörüşünü də artırır. Qəzetlərdə informasiyanın geniş verilməsi, etibarlı və sevilən köşə yazarlarının hadisəni, qurumu tənqid etməsi və ya tərifləməsi onun ictimai rəyi formalaşdırmasında rol oynayır. Köşə yazarının öz auditoriyasının ictimi rəyini formalaşdırmaqda və yönləndirməkdə hadisəyə yanaşma tərzi xüsusi əkəmiyyət kəsb edir.[10, s.37]
Mətbuatda əhəmiyyətli yeri olan jurnallar daha çox sağlamlıq, idman kimi müəyyən mövzuları əhatə etdiyi üçün daha kiçik miqyaslı maraq qruplarının təbliğat vasitəsinə çevrilə bilər. Məsələn yeni bir kosmetik məhsulu təqdim edən şirkət, yeni müalicə üsulu tapmış tibb müəsisəsi və ya həkim, idman məhsulları istehsal edən şirkət jurnallarda yayımlanan materialda öz metodlarının və ya məhsullarının ən yaxşısı, ən doğrusu olduğuna ictimaiyyəti inandırmağa çalışır. Məhz bu səbəbdən jurnal materiallarının çoxu reklam xarakteri daşıyan məqalələrdir. "Cəmiyyətin güzgüsü kimi dəyərləndirilən mətbuatın əsas prinsipləri obyektivlik, qərəzsizlik, vətənpərvərlik olmalıdır. Bu üç amilin vəhdətliyi fonunda daha dolğun, ölkənin bu günü və gələcəyi üçün daha önəmli məsələlərin müzakirəsinə və həllinə xidmət edən yazılar ortaya çıxar", [11, s.42] lakin unudulmamalıdır ki, "mətbuat cəmiyyətin aynası olmaqla yanaşı, həm də onun maarifləndirilməsi işində yaxından iştirak edən bir sahədir. [ 43, s.43] Bu həm də ona görə doğrudur ki, mətbuat deviasiya baş verdikdə bəzən fərdi

mənsubiyyətlərə xidmət etmək risqi altında qalsa da, bütövlükdə o kamillik haqqında direktivdir. “Jurnalistikanın, kütləvi informasiya vasitələrinin cəmiyyətə təsiri çox güclüdür və geniş radiusu təşkil edir. Belə bir möhtəşəm gücə malik ictimai, kütləvi institut ictimai həyatın kamilləşməsi üçün öz üzərinə öhdəliklər götürür. Bu öhdəliklərdən biri və başlıcası onun nöqsanları aşkar etmək və göstərmək işi ilə bağlıdır.” [16, s.16] Ona görə də, “bəşəriyyət demokratiyanın yolunu açıq, informasiyalı cəmiyyətdən almışdır” və “Demokratik əsaslarla fəaliyyət göstərən ölkədə jurnalistikanın inkişafı insanın informasiya hüququnu təmin edən açıq cəmiyyətə aparır” söyləyən mətbuat nəzəriyyəçiləri tamamilə haqlıdırlar.”[ 16, s.21]

### 3.4. Sosial medianın ictimai rəyə təsiri mexanizmi

Sosial media kanallarını istifadə edərək təşkilatlanan, siyasi, sosial və mədəni hərəkatlara çevrilən ictimai rəyi yönləndirən hadisələr, fərdlər arasındaki ünsiyyəti geniş miqyaslı ünsiyyət platformasına çıxardaraq daha çox insana çatması və hərəkatın təsirinin artması baxımından çox vacibdir. Fərdlər media platformalarını istifadə etməyə başlayar və bütün işlərini bu kanallar üzərindən davam etdirdiyində ictimai rəydə sosial və siyasi bir güc halına gələr, hər kəs tərəfindən tanınan zəruri bir təşkilata çevrilər.

Bu təşkilatlanma formasının nümunələrini aydın və geniş miqyaslı olaraq, Wall Street işğalı, London üsyanları və ərəb üsyanlarında görmək olar. Bu hərəkatlar günümüzdə ən yaxşı və sürətli təşkilatlanma forması olan media platformları üstündə yerlidən milliyə ordan da beynəlxalq səviyyəyə çataraq ictimai rəyi yönləndirir. Ərəb baharı Şimali Afrika və Orta Şərqi təsir altına alaraq qısa bir vaxtda bütün bölgədə coğrafi və siyasi dəyişikliklərə səbəb olmuşdur. Amerika Birləşmiş Ştatlarında başlayan “işğal et” hərəkatları yerlidən başlayıb daha sonra qlobal miqyasda bir hərəkata çevrilmişdir. Bu baxımdan media, mədəniyyət,

inanc, idarəetmə şəkli, iqtisadi vəziyyəti bir-birindən tamamilə fərqlənən cəmiyyətlərdə oxşar şəkildə təşkilatlanmaların vasitəsi olmuşdur. Media siyasi hərəkatlar baxımından fərdlər arası ünsiyyətin əsası olmuş, xəbərləşmək və hərəkətə keçmək üçün sürətli və geniş miqyasda istifadə olunmağa başlanmışdır.

İctimai təşkilatlanma və hərəkatlarda internetin ən təsirli kanalı olan sosial media vasitələrini istifadə edilməsi bu hərəkatlara qatılan qrupların cəmiyyət içi mövqesini möhkəmlətməsi baxımından önəmlidir. Çünki yeni informasiya və ünsiyyət texnologiyalarından olan sosial medianın cəmiyyət səviyyəsində bərabərsizlikləri azaltdığı, kütləvi hərakatlar zamanı məlumatı və idarəetməni müəyyən bir qismin hakimiyyətindən çıxardaraq hər bir şəxsə bərabər şəkildə yoxlama haqqı vermişdir. Bununla yanaşı cəmiyyətin nəbzini tutan siyasi liderlər ictimai rəydə ən vacib yönləndirmə vasitəsi olan media qurğularını, ictimai hərəkatların səslərini, tədbirlərini, şüarlarını eşitdirmək üçün istifadə etməsi təşkilatlanma formalarında köklü dəyişikliklərə səbəb olmuş, hər hansı bir zəif hərəkatı belə ictimaiyyətə sürətli şəkildə qəbul etdirmişdir. Bu vəziyyət əsasən müxalifətin zəif olduğu, xalqın böyük bir qisminin təzyiq altında olduğu, narazılıqların çox yüksəldiyi zamanlara tuş gəlir

Biz sosial medianın, o cümlədən bir təsir vastəsi kimi xəbərlərin təsir mexanizmini təsvir etsək, təqribən üçşəkilli bir dairəni görə bilərik. Bunu aşağıdakı diaqramda da görmək mümükündür.

**Diaqram 1: İctimai Rəyin Formalaşmasında Medianın Rolu [ 44, p.137]**






Sosial media ictimaiyyəti inkişaf etdirmək və ona təsir etməkdə mühüm rol oynayır. Hətta insanlar bəzən onu ictimaiyyətin "aynası" adlandırır. Hər hansı bir millətin mühüm olan konturlarını cızarkən.  xalqın diqqətini bir neçə vacib ictimai məsələlərə yönəltmək üçün mətbuat orqanlarının güclü, kütləvi və yüksək səviyyədə təsir imkanlarına malikdir. İnsanlar yalnız ictimai məsələlər haqqında ictimaiyyətlə əlaqəli məlumatları mətnlərdən, izləyicilərdən və oxuculardan əldə etməklə yanaşı, xəbərlərdə göstərilən işıqlandırmanın əsasında da müzakirə olunan mövzuya dair fikir formalaşdırırlar. KİV-in gündəmində bir çox müxtəlif jurnalistlər və onların rəhbərləri tərəfindən ani xəbərlər haqqında çoxsaylı gündəmə gələn nəticələr və qərarlar gündəlik olaraq və çoxlu sayda ictimaiyyətə təqdim edilir.

Sosial medianın ictimai rəyə təsir mexanizmini müəyyən edərkən, onun nə qədər azad olması, qərəzsiz mövqe tutması mühüm əhəmiyyətə malikdir. Bu sahədə determinatlar haqda beynəlxal təşkilatların işlədiyib hazırladığı xeyli sayda meyarlar kompleksinin olmasına baxmayaraq. Bu məsələnin köklü həlli üçün hələ də kifayət etmir. Ən ümdə cəhərtlərdən biri hakimiyyətin üç qanadının, qanunvericiliyin, məhkəmə və hüquq orqanlarının şəffaflığı və ictimai rəydə vətəndaş cəmiyyətinin rolundan ibarətdir. Bu faktorlardan hər hansı biri qeyri obyektiv və qərəzli mövqe nümayiş etdirdiyi halda, ictimai rəyin obyektiv və həqiqəti əks etdirmə şansları azalmış olur və nəticədə yanlış informasiyanın

ictimai tirajlanması riskləri çoxalır. Odur ki, cəmiyyətin bütün qatlarının və səlahiyyətli orqanlarının interaktiv şəkildə bu məsələlərdə əməkdaşlıq etməsi həddindən artıq əhəmiyyətlidir. Bu baxımdan Qərbin sosial media vasitələrinin bəzən tamamilə qərəzsiz olduğu haqda fikirlər də, hətta Azərbaycanın sürükləndiyi konfliktə dair mövqeyi, belə bir tezisin qeyd-şərtsiz olaraq qəbul olunmasını şübhə altına alır.

Sosial mediada iştirak edən elit dairələrin güclü nüfuza malik olduğu bütün hallarda vətəndaş səsinin az eşidilməsi də sosial medianın ictimai təsir imkanlarını azaldır, cəmiyyətin böyük bir qismində ümidsizlik və şübhələr yaradır. Odur ki, sosial medianın obyektiv xarakteri ilə onun yaranma mexanizmləri arasında sıx bağlılıq vardır.

Digər bir məsələ, vətəndaş jurnalistikasının yaranması və inkişaf etməsinin sosial medianın məzmununda əks olunmasıdır. Bu gün, ən çox müzakirəyə səbəb olan cəhətlərdən biri də, vətəndaş cəmiyyətinin, qeyri-hökumət təşkilatlarının bu mexanizmin formalaşmasında iştirakının kəmiyyət və keyfiyyət göstəricilərindən asılıdır. Bu hal digər tərəfdən bütövlükdə vətəndaşlar və sosial media ilə bağlı olduğu kimi, digər tərəfdən də vətəndaşlarla onları təmsil edən dövlətlərin arasında formalaşan münasibətlərin gələcək tendensiyalarana güclü təsir etmək imkanları vardır.

Sosial medianın ictimai rəyə təsir mexanizmi həm də cəmiyyətin gələcək davranış modellərinin hazırlanmasına köməklik göstərir. Bu özlüyündə dövlətlə onu təmsil edən vətəndaşlar arasında olan kommunikasiya axınına, onun gələcək meyllərinə həlledici təsir göstərir.

### 3.4.1. “Ərəb baharı”

Başda ABŞ olmaqla, bir çox dünya ölkəsinin gizli siyasətlərini dünya ictimaiyyətinə açıqlayan Wikileaks sənədləri, diplomatikda çox böyük təsir oyatmışdır. Bu təsirin nəticələrindən biri orta şərqdə ərəb baharı adı ilə bölgə xalqlarının idarəedicilərinı qarşı azadlıq və haqq mübarizəsinə medianın hər platformasını ən üst səviyyədə istifadə edərək başlamışdır. Beləliklə yerli və alt təbəqə olaraq hesab edilən xalqların düşüncələri media ilə faktiki hərəkatlara çevrilmiş və bölgənin demokratiya qazanmasına səbəb olmuşdur. Orta Şərq və Şimali Afrikada medianın təşkilatlanma və kommunikasiya vasitəsi olaraq ən üst səviyyədə istifadə olunması, bu vəziyyətin ərəb cəmiyyətində kütləvi və regional xalq hərəkatına çevrilməsinə səbəb olmuş, bunun hesabına xalqlar ilk dəfə idarəetmədə söz sahibi olmağa başlamışdır. Bu hal hər fərdin öz şəxsi səyi ilə bütün ictimaiyyəti maraqlandıran təşkilatanma zəminin yaranmasına və bu xalq hərəkatının media inqilabı kimi adlandırılmasına vəsilə olmuşdur. Medianın uğurlu nəticələr verən ilk təşkilatlanma hərəkatı Tunisdə başlamış və ictimaiyyətin bu cəhdi sahiblənməsilə bərabər qısa vaxtda bütün bölgəni təsiri altına almışdır. Bu müddətdə medianın diktator rejiminin süqutundakı böyük rolu bütün dünya tərəfindən qəbul edilmiş və "Ərəb baharı" nın kütləvi gücə çevrilərək digər ölkələrdə sürətlə yayılmasında çox təsirli olmuşdur. Media vasitələrin istifadəsiniə maneə olmaq üçün hər cür təzyiq göstərən hakimiyyət, ictimai rəyin ona qarşı təşkilatlanmasına maneə ola bilməmişdir.

Media ərəb xalqları arasında fikirlərin sərbəst paylaşıldığı və düşüncələrin ictimaiyyət üstündə təsirli olduğu sığınaq olaraq görülmüşdür. Bu anlayış ortaq fikir olaraq kütlələri istiqamətləndirmiş və idarə etmişdir. Ərəb ictimaiyyətinin gəncləri medianın bütün platformalarından istifadə etməklə yanaşı, elektron poçtlardan, Facebook və Twitter kimi qurğulardan daha geniş istifadə etmiş, azadlıq fikrinin ədalətli zəmində yaranmasını, həm siyasi həm də ictimai yöndə istiqamətləndirərək fundamental dəyişikliklərə səbəbiyyət vermişdir. "Ərəb baharı" müddətində çox istifadə olunan domino təsirinin meydana

gəlməsində, sosial media ilə xalqların ortaq gündəmə sahib olub, bu gündəmi yaymaqdakı rolu böyükdür. Sosial media bu hərəkatlar vasitəsilə siyasət və ictimai rəyi köklü dəyişdirə bilmək gücünü həm Ərəb ölkələrinə, həm də dünyaya sübut etmişdir. Media vasitələri ilə bölgədəki bütün çevriliş tərəfdarları birləşə bilmiş, texnologiyanın dilini ünsiyyət dilinə çevirmiş və geniş kütlələri hərəkətə gətirmişdilər.

Medianın istiqamətləndirmə xüsusiyyəti əsasən "Ərəb baharı" ilə fərqlənmiş, beynəlxalq səviyyədə siyasi gündəmi və ictimai rəyin gündəmini təkbaşına müəyyənləşdirmişdir. Bu fikri təsdiqləyən vəziyyət, "Ərəb baharı"nın ən hərəkətli və aktiv olduğu vaxtlarda, 2012-ci il martında 239 min istifadəçisi olan Küveytdən bütün bölgənin haqlarını müdafiə edən, azad düşüncələrə sahib 58 milyon tvit atılmışdı.

Sosial media bir inqilabın nəticələnməsi baxımından bütün maneələri aşmış, gənclərin qərarlı olması və sosial mediadan dünya ilə əlaqə üçün düzgün istifadə etmələri hakimiyyətdə olan demokratiyadan uzaq siyasətçilərin mitinqlərə mane olmaq üçün göstərdikləri təzyiqləri boşa çıxartmışdır. Sosial medianın ən vacib vasitələrindən biri olan Facebook-a video və şəkillərin yüklənməsi, bu ölkələrinin rəsmi mətbuatının yaratmağa çalışdığı real olmayan vəziyyəti süquta uğratdı, beləliklə senzuranın olmadığı azad xəbər agentliyi inşa edildi.

### 3.4.2. Vikiliks

Vikiliks hökumət sirlərinin mətbuata, yəni bu halda virtual informasiya resurslarına müxtəlif yolarla çatdırılması və bu sənədləri ya bütövlükdə, ya da hissələrlə nəşr edən beynəlxalq sosial internet layihədir. "Sayt kriptoqrafi-yanın hərbi məqsədlər üçün istifadə edilən alqoritmlər vasitəsi ilə məlumatı sızdıranın kimliyini və yerini maksimal dərəcədə məxfi saxlayır. Saytın hostu İsveçdə mənzillənən "yüksək dərəcədə etibarlı, məxfi və heç bir sual soruşmayan" PRQ İnternet provayderidir."[ 9, s.11] O, eyni zamanda iformasiyanın ötürüldüyü

mənbəyi, onun haradan daxil olması kimi məlumatları həmişə və ya əksər hallarda gizli saxlayır.

Vikiliksi virtual səhifələrdən ləğv etmək üçün çox böyük insan və texniki resurslar səfərbər olunması cəhdləri çox olsa da, çox hallarda bunu müvəffəqiyyətlə həyata keçirmək mümükün olmur. Bu vaxt bəzi dövlətlər senzura üsullarına əl atır. Məsələn, Çin, Avstraliya və digər dövlətlərdə olduğu kimi bəzi qadağalar tətbiq edilir. Bu zaman Avstraliyada olduğu kimi (2009-cu il,16 mart) Vikilikslə bağlı olan bütün keçidlər qadağan olunur. Təbii olaraq, ölkənin baş server şəbəksində bu məsələ nəzarətə götürüldüyü hallarda, həmin ölkədə Vikiliksə giriş imkanları tamamilə məhdudlaşdırılır. Məsələn, vaxtilə ABŞ-da yaşamış mütəxəssis Culian Assanj bu layihənin tətbiqi ilə qısa müddətdə məşhurlaşmışdır və yaratdığı məxfi informasiya kanallarını kriptoqarafik üsullarla başqaları tərəfindən açılmasına tam maneə olan bir sistem hazırlamışdır.

Vikiliks əksər hallarda ifşaedici materialların ictimai rəyə verilməsinə nail olur. Bu materiallar bəzən hökumət nümayəndələrinin şəxsi biznes fəaliyyətləri haqda kompromat materiallar dərc edir və məxfi məlumatları ictimailəşdirir. Vikiliks sənədlərində gizli məlumatları, rəsmi yazışmaları, ölkələrin rəsmi siyasətlərində dərin mübahisələrə səbəb olan məsələləri və reallıqda dilə gətirilməyən fikirləri sosial media vasitəsilə ictimaiyyət çatdırmışdı. Heç bir kommersiya məqsədləri güdməyən Vikiliks bəzən (2010- cu il noyabrında 28-də baş ABŞ diplomatik sənədlərinin açıqlanması kimi) dövlətin diplomatik və hərbi fəaliyyətləri haqda məlumatları da mediaya sızdıra bilir və bu addımla ictimaiyyət arasında geniş rezonansa səbəb olur. “Birləşmiş Ştatların xarici ölkələrdəki səfirliklərinin məktub, teleqram və yazışmalarını açıqlayan sayt 251.288 sənədi dərc etmişdir ki, onların da 15.500- dən artığı ABŞ-ın dünya ölkələrindəki 274 səfirlik və diplomatik nümayəndəliklərinin Vaşinqtona yolladığı məlumatlarda Vaşinqtondan aldığı xəbərlərdən ibarət olmuşdur. [9, s.12]

Vikiliksin "inqilab" olaraq səciyyələndirilməsinin ən vacib səbəblərində biri maddi mənfəəti olmamasına baxmayaraq, digər media qurumlarının çata bilməyəcəyi məlumatlara çatıb, bunları yayımlamasıdır. Bir digər səbəb isə paylaşılan sənədlərin beynəlxalq səviyyədə olması, bir çox dövlətin ictimai rəyinin maraq göstərməsi və dünya ictimai rəyinin bu sənədlərdən əsasında yeni formalaşmasıdır.

Özgür Uçkan "Yeni Medya Düzeni" mövzusunu işləyərkən bu yeni quruluşun internet əsaslı olduğunu vurğulamışdır. Vikiliksin məlumatı daha ictimai hala gətirərək ictimai rəyin nəbzini tutduğunu və bu minvalda siyasəti yenidən öz məcrasına yönəltdiyini yazan müəllif, bunda sosial media vasitələri üzərində fəaliyyət göstərməsinin böyük təsiri olduğunu qeyd etmişdir.[9,s.13] Vikiliks tərəfindən yayımlanan gizli sənədlərin geniş miqyası əhatə etməsində sosial medianın rolu böyükdür. Gizli sənədlərdən xəbər tutan insanlar, əldə etdikləri məlumatları sosial media vasitəsilə digər insanlarla tez bir zamanda paylaşmaq imkanına sahibdirlər. Position firmasının Vikiliksin sosial media üzərindəki təsirini ölçən araşdırmada, sənədlər yayıldıqdan sonra sosial medianın rabitədəki sürəti və təsirliliyinini yoxlamışdır. Araşdırma 2010-cu il noyabrın 15-dən dekabrın əvvələrinə qədər olan müddəti əhatə edir. Araşdırma göstərir ki, 15 noyabr ilə 15 iyul tarixləri arasında Amerika Birleşmiş Ştatlarının sosial platformasında 18.887 blog məlumatı, 5.925 xəbər məlumatı, 42.166 ədəd forum göndərilmişdisə, eyni il Vikiliks sənədlərindən sonra 326.114 blog məlumatı, 282.880 xəbər məlumatı, 308.862 forum nümayiş etdirilib.[9, s.14] Sosial medianın Vikiliks sənədlərini yayaraq, böyük kütlələrin müzakirə mövzusuna çevrilməsinə, xüsusilə də gizli və əlçatmaz sənədləri yayımlaması və ictimai rəyə təqdim edərək geniş miqyaslı müzakirələrə səbəb olması Vikiliksin bir "inqilab" olaraq görülməsinə səbəb olmuşdur.

“Ərəb baharı” və Vikiliks sənədləri bir daha göstərir ki, dayanmadan inkişaf edən texnologiya dövründə sosial medianın ictimai rəyi formalaşdırmaqda digər media qurumlarını üstələyir; bundan başqa o, həm də ictimai rəy vasitəsilə böyük tarixi hadisələrə səbəb olur. Sosial medianın ictimai rəyin formalaşmasında, tarixi iz qoyan hadisələrin yaşanmasında, diktator rejimlərinin dəyişdirilməsində müsbət rolu olduğu kimi, mənfi cəhətləridə vardır. Sosial mediadan hər kəsin informasiyaya çıxışının olması dezinformasiyanın, təbliğatın artmasına, nəticədə isə yanlış informasiyanın böyük mənfi təsirlər  yaratmasına səbəb olur.

## NƏTİCƏ

Keçmiş dövrlərdə xalqların idarə edilməsində diqqət çəkməyən media, bugün idarəetmənin uğurlu və güclü görünməsində ciddi söz sahibidir. Medianın cəmiyyət üçün ən vacib funksiyalarından biri də doğru ictimai rəy formalaşdırmaqdır. Ancaq media cəmiyyəti yalnış yönəldirərək çox sərt və mənfi reaksiyalara yol açdığını da unutmamalıyıq. Media ictimai rəyi formalaşdırarkən, ictimaiyyətə təqdim etdiyi materiallarda heç vaxt “həqiqət yalnız budur” deməməlidir. O, sadəcə məlumatlandırıcı informasiyanı verməli, yanlış-doğru seçim haqqını isə cəmiyyətin qərarına buraxmalıdır. Medianın vəzifəsi ictimai rəyi əks etdirməkdir, son vaxtlar isə media daha çox ictimai rəyi yönləndirməyə çalışır. İctimaiyyətin informasiya əldə etməkdə tək qaynağı olan media, bəzən bir şəkil, görüntü və ya xəbər başlığı ilə öz mənfəəti uğruna gündəmi yayındırır. Mediadan istifadə edərək, xalqı yanlış məlumatlandıranların, onlara təsir etməyə və istiqamətləndirməyə çalışanların sayı durmadan artır.

Təbii ki, media ictimai rəyin yalnış istiqamətlənməsində yeganə günahkar deyildir. İctimai rəyi araşdırarkən, media ilə ictimai rəyin qarşılıqlı təsirdə olduğunu müşahidə etdim. Əgər media mövcud olmazsa, ictimai rəy tam formalaşmayacaq, ictimai rəy daha geniş ifadə olunmayacaq, lazımi mövqelərə çatdırılmayacaq, beləliklədə ictimai problemlərdən cəmiyyət xəbər tutmayacaq. Eyni ilə də, ictimai rəy yaranmasa media hansı tərz iformasiyanın ictimaiyyət üçün daha vacib olduğunu, yayımını nəyə əsasən təyin etməli olduğunu, auditoriyasının təlabatını bilməyəcəkdir.

Təəssüf ki, kommersiya maraqlarının insani keyfiyyətlərdən üstün tutulduğu bir dövrdə yaşayırıq. Biz medianın ictimai rəy formalaşdırarkən vicdanlı, tərəfsiz, mənfəət güdmədən informasiya verməsini gözləyə bilmərik. Bunu özümüzdə təmin etməliyik. Azad ictimai rəy qəbul etməyi bacaran cəmiyyətin olduğu ölkələlərdə media ictimai rəyi rahatlıqla yanlış yönləndirə bilmir, çünki ictimai qınaq birbaşa öz mövqeyini ortaya qoyur.
Media və ictimai rəy qarşılıqlı əlaqədə olduqları qədər qarışıqda təsirdədirlər. Bəzən ictimaiyyət medianı yanlış yönləndirir, bəzən isə media ictimaiyyəti yanlış yönləndirir. Hansının daha ağır nəticələr doğurduğuna baxsaq, sösüz ki, burda üstünlük mediadadır. Cəmiyyətdə ictimai rəyin yanlış yönləndirdiyi hallar çox azdı, amma medianın istər şəxsi maraqlar, istər siyasi maraqlar, istər hakimiyyətin təzyiqi, istər kommersiya maraqları üçün ictimi rəyi yönləndirdiyi nümunələrlə dissertasiya işimdə tanış olduq.

Təbii ki, biz bütün günahları yalnız mediada görə bilmərik. Axı media hər zaman bilərəkdən auditoriyasında mənfi fikir formalaşdırmır, bəzən istəyərək, bəzən təzyiq altında məcbur olduğundan, bəzənsə öz vəzifələrini yerinə yetirərkən bilməyərəkdən auditoriyasını yanlış istiqamətləndirir. Məsələn, media ən önəmli yayım şəkli olan xəbər proqramlarında, cinayət xəbərlərinin ardarda çox verməsi zamanla insanların belə hadisələrə biganə yanaşmasına, normal baxmasına,

cinayətləri adi hal kimi qəbul etməsinə səbəb olduğu təsdiqlənmişdir. Buna görə biz medianı günahlandıra bilmərik.

Dissertasiya işini işləyərkən, təəssüf ki, Azərbaycan mediasının ictimai rəylə qarşılıqlı təsirindən ətraflı danışa bilmədim. Çünki, Azərbaycanda formalaşan, sərbəst fikir bildirən cəmiyyətin, azad ictimai rəyin mövcud olmasna dair çoxlu sayda ziddiyyətli məlumatlar vardır. Bütün bunlara baxmayaraq, media vasitələri sürətlə yayılır və məlumat portalları, televeziya, radio, sosial media, bloqlar, xəbər veb saytları və sair vasitələr sürətlə inkişaf edir. Son zamanlar bir-birini təkrarlayan məlumat və xəbərlər portalları da bəzən həqiqətlərlə birgə, xeyli sayda yoxlanılmamış, bəzən qərəzli, ictimai rəy yaratmağa yönəlmiş məlumatlar yayırlar. Bəzən media vasitələri ictimaiyyətin fikrini öyrənmədən birtərəfli mövqe tutur və bu hallar mediamızda kommersiya maraqlarının ictimai maraqlardan daha üstün tutulduğu hallarda daha çox baş verir. Heç də təsadüfi deyildir ki, Mətbuat Şurasının demək olar ki, son zamanlar baş tutan birgə iclaslarında "reket jurnalistika"nın mənfi nəticələri təhlil edilir, bu hallara qarşı mübarizənin yeni forma və metodları təklif edilir. Tam şəffaflığın təmin olunmadığı bir şəraitdə, ictimai rəy yaransa belə onu ifadə edəcək, lazımi qurumlara çatdıracaq vasitələr azlıq təşkil edir.

Biz hesab edirik ki, burda media ilk öncə neqativ problemlərin mövcud olduğu faktı qəbul etməlidir və sevindirici haldır ki, son vaxtlarda bu sahədə müsbət tendensiyalar da çoxalmağa başlamışdır. İctimai problemin olduğunu qəbul etmək, bu problemi işıqlandırmaq, bu problem barəsində ictimai rəylə maraqlandırmaq halları bunların bariz nümunəsidir. Təbii olaraq, medianın mənfi və qeyri-obyektiv mövqe tutduğu bütün hallarda biz medianın bu mövqeyinə qarşı ictimai qınaq yaratmalıyıq. Təkzibolunmaz faktdır ki, media ictimai rəyi üstələyə bilmədiyi bütün hallarda öz gündəmini ictimai rəyə görə formalaşdırmalı olur.

Digər bir aktual problem isə ictimai rəy və media mövzusunda Azərbaycan dilində olan materialların azlıq təşkil etməsidir. Təəssüf ki, bu mövzu ya geniş şəkildə araşdırılmamış qalır və ya edilən cəhdlər səthi xarakter daşıyır. Beləliklə, media və ictimai rəyin qarşılıqlı əlaqələrinin möhkəmlənməsi ictimai rəyin fəallığının artamasına, onun daha mübariz və reallığa yaxın olmasına gətirib çıxarır.
Dissertasiya işindəki ümumi analiz belə bir fikrə gəlməyə əsas verir ki, orta təhsil müəssisələrindən başlayaraq, ali təhsil müəssisələrinə qədər bütün ixtisaslarda, xüsusilədə jurnalistika təhsilində media və ictimai rəy dərsləri təşkil olunmalı, medianın göstərə biləcəyi mənfi təsirlərə, dezinformasiyaya, təbliğata qarşı azad fikirlərin formalaşmasını təmin edilməlidir. Dünyanın inkişaf etmiş ölkələrində orta təhsil müəssisələrində media dərsi tədris olunur, cəmiyyətə hələ uşaqlıq vaxtlarından başlayaraq medianın yarada biləcəyi əks təsirlərə qarşı azad fikir formlaşdırmağı öyrədirlər. Buna görə də bu ölkələrdə media ictimaiyyəti istədiyi kimi yönləndirə, hətta idarə edə bilmir. Zənnimizcə, jurnalist təhsilində də bu mövzuya daha geniş yer verilməli və ictimai rəy institutlarının media ilə birgə işi daha da möhkəmləndirilməlidir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHID

## Azərbaycan və türkcə olan ədəbiyyat


1. Abadan N. Kitle Haberleşme Vasıtaları, SBFD, 15 (1) . 1974. - S.132-156
2. Alankuş K.S. Temsili kamuoyu. -Ankara, 1995Ağayev T. Sosiologiya. -Bakı, 2013. -S.352
3. Anık C. Kamuoyu oluşturan araçlar. -1994. -S. 59
4. Atabek N. Kamuoyu: Basında kamuoyu araştırmaları. -Türkiye, Kurgu Dergisi, 2002, S: 19, s. 223-238
5. Babayev F. Azərbaycanda vətəndaş inteqrasiyası və KİV: məqalələr toplusu. -Bakı, 2011. -S.100
6. Babayev Z., Vahidov F. Jurnalistika və Sosiologiya, -Bakı, 2008. -S.192
7. Bektaş A. Kamuoyu, iletişim ve demokrasi. -Ankara, 2000. ISBN: 9789757696865. -S. 272
8. Chomsky N. Medya gerçeği. -İstanbul, 2012. - S. 522
9. Ertem C. Uçkan Ö. Wikileaks: yeni dünya düzenine hoş geldiniz. -İstanbul, 2011. -S. 361

10. Girgin A. Yazılı basında haber ve habercilik etik'i. -İstanbul, 2003. ISBN 9 751016207. -S.343
11. Kapani M. Politika bilimine giriş. -Ankara, 2015 ISBN:9786054665259.- S. 253
12. Keane J. Medya ve demokrasi. -İstanbul, 2000. Çeviri: Haluk Şahin ISBN: 978-975-539-030-7 – S. 182
13. Millburn A.M. Sosyal psikolojik açıdan kamuoyu ve siyaset. Çevirmen: Veli Duyan, Prof. Dr. Ali Dönmez. ISBN 9755332308. -Ankara, 2017. - S. 302
14. Neumann E.N. Kamuoyu Suskunluk sarmalının keşfi. -Ankara, 2000.
15. Özgen M. Gazetecinin etik kimliği. -İstanbul, 2006. ISBN 9752800416 - S. 288
16. Özsoy O. Geçmişten günümüze yöntem ve uygulamalarıyla propagandave kamuoyu oluşturma. -İstanbul, 1998. - S. 418
17. Ramonet İ. Medyanın zorbalığı. İstanbul, (Çevirmen: Aykut Derman) 2000. -S. 168
18. Rousseau J.J. Toplum sözleşmesi. -İstanbul, 2013. -S. 136
19. Sezer D. Kamuoyu ve dış politika. -Ankara, 1972. -S. 584
20. Tökgoz O. Temel gazetecilik. -İstanbul, 2017. - S. 492

**İngilis dilində olan ədəbiyyat**

21. Adam Augustyn, Patricia Bauer et al: (Editors The Editors of Encyclopaedia Britannica) Cold War. International Politics, Jan 22, 2019. https://www.britannica.com/event/Cold-War#ref91468
22. Abraham Tesser: Self-generated attitude change, University of Georgia, Athens, Georgia. Advances in Experimental Social Psychology, Vol. 11, pp. 289-338

23. Allport G.H. Toward a science of Public opinion. -1992. Public Opinion Quarterly, 1 (1937): pp. 7-23.
24. Althaus, S. L.: False starts, dead ends, and new opportunities in public opinion research. Critical Review, 2006. 18, pp. 75–104
25. Bernays E. Crystallizing public opinion. -England, 2011. ISBN: 978-19354392-6-4. -P. 208
26. Bernays E. Propaganda. -England, 2004. IG PUBLISHING; New Ed edition (1 Sept. 2004). -P. 175
27. Boudreau, C., & MacKenzie, S. A.: Informing the electorate? How party cues and policy information affects public opinion about initiatives. American Journal of Political Science, 58(1), 2014. pp. 48–62
28. Diane J. Heith: St. John's University, Politicians Use Polls to Adjust Their Message, The New York Times, November 30, 2015 https://www.nytimes.com/roomfordebate/2015/11/30/does-polling-undermine-democracy/politicians-use-polls-to-adjust-their-message
29. Dietram A. Scheufele and William P. Eveland Jr: "Perception of "public opinion" and "public" opinion expression", International Journal of Public Opinion Research Vol. 13, No.1, pp. 26-44
30. Gabriel Michaela and Colin Agurb: The Bully Pulpit, Social Media, and Public Opinion: A Big Data Approach, Journal of Infromation Technology & Politics, 2018, Vol. 15, No. 3, pp. 262–277
31. Edward M. Bloek: HowPublic Opinion Is Formed, Public Relations Review, New York City, N. Y., pp. 1-16
32. Eitan Hersh: "Long-Term Effect of September 11 on the Political Behavior of Victims' Families and Neighbors." Proceedings of the National Academy of Sciences of the United States of America, 2013. 110 (52): 20959–63

33. Hans Speier: Historical Development of Public Opinion, American Journal of Sociology, Vol. 55, No. 4 (Jan., 1950), Published by: The University of Chicago Press, p. 376-388
34. Harwood L. Childs: Public Opinion: Nature, Formation and Role (Princeton, N. J.: Van Nostrand, 1965, pp . 12-28
35. Herbert Golhamer: “Public Opinion and Personality”, American Journal of Sociology, Published by: The University of Chicago Press, Vol. 55, No. 4 (Jan., 1950), pp. 346-354 (https://www.jstor.org/stable/2772295)
36. Hyman, H. H.: Toward a theory of public opinion. Public Opinion Quarterly, no. 21,1957, pp. 54–60
37. Iyengar, S.: Experimental designs for political communication research. In E. P. Bucy & R. Lance Holbert (Eds.), The sourcebook of political communication research, New York, NY: Routledge.2011, pp. 129–148
38. John Milton Cooper: Thomas Woodrow Wilson, Real time, Jan 30, 2019. https://www.britannica.com/biography/Woodrow-Wilson
39. Key V.O. Public opinion and American democracy. -New York. -P.566
40. Kimball Young: (Review): Communications in Modern Society: Fifteen Studies of the Mass Media Prepared for the University of Illinois Institute of Communications Research. by Wilbur Schramm, American Journal of Sociology, Published by: The University of Chicago Press, Vol. 55, No. 4 (Jan., 1950), pp. 416-417 (https://www.jstor.org/stable/2772306)
41. Lee, E. J. (2013). Effectiveness of politicians’ soft campaign on Twitter versus TV: Cognitive and experiential routes. Journal of Communication, 63(5), 953–974
42. Lipmann W. Public opinion. -London, 2008. -P.284

43. Mascaro, C., & Goggins, S. P. (2012) Twitter as virtual town square: Citizen engagement during a nationally televised Republican primary debate. SSRN Scholarly Paper ID. 2108682, Social Science Research Network, Rochester, NY. Mc.Combs M. Setting the agenda. -UK, 2014. - P. 208
44. Noida Uttar Pradesh: Role of media in public opinion formation. International Journal of Management Research and Development (MIJMRD)Volume II, Issue III, March, 2014, pp. 136-143. ISSN: 2347-9043
45. Oriola, M. Oluwakemi, Ogbemi, Ogbiten Brickins: News Analysis as a Media Content for Public Opinion Formation and Moulding, Benin Mediacom Journal, No. 10, 2016, p. 77-90
46. Ryberg J., Roberts J.V. Popular punishment: On the Normative Significance of Public Opinion. -England, 2014. -P. 272
47. Rosenau J. Public opinion and foreign policy. -New York, Random House, 1961. - P.118
48. Price V.R. Public opinion. -New York, 1992. Print ISBN: 9780803940239 - P.124
49. Randi Deguilhem, Hélène Claudot-Hawad: Words, Actions and Images for Shaping Public Opinion: Introduction. Oriental Archive, 2012, 80 (II), pp.125-135 https://halshs.archives-ouvertes.fr/halshs-0811669/document
50. Rui Jorge da Silva Antunes: Instituto Politécnico de Coimbra Theoretical models of voting behavior, Exedra no 4, January 2010 pp. 145-170
51. Rune Slothuus: "Assessing the Influence of Political Parties on Public Opinion: The Challenge from Pretreatment Effects", Political Communication, Routleg Taylor & Francis Group, LLC, 2015, pp. 1-26

52. Sabine Trepte and Katherina J. Reynolds: Self-Categorization Theory, Handbook of Theories of Social Psychology, January 2012, London, pp. 399-417
53. Stan A. Kaplowitz and Edward L. Fink: Dynamics of Attitude Change, USA, Springer, 1992, Volume 2, Methods and Applications Pages, pp. 341-369
54. Tetsuya Matsubayashi: "Do Politicians Shape Public Opinion?", British Journal of Political Science, Volume 43, Issue 02, April 2013, pp 451- 478
55. Vincent Price: History, Philosophy of Public Opinion and Public Opinion Research, Part 1, Donsbach: Public Opinion Research (SAGE Handbook) pp. 7–24
56. Vincent Price: Social identification and public opinion. Effects of communicating group conflict, Public Opinion Quarterly Volume 53, pp. 197-224 by the American Association for Public Opinion Research Published by The University of Chicago Press, 1989
57. Warren, M.: Democratic theory and selftransformation. American Political Science Review, 1992, No 86, pp. 8–23

**İstifadə olunmuş internet və elektron kitabxana resursları:**

- www.wikipedia.org
- www.wwnorton.com
- www.oxfordhandbooks.com
- www.washingtontimes.com
- www.journalism.com
- www.laits.utexas.edu
- www.ccrweb.ca

- www.britannica.com
- www.seffaflik.org
- www.acarindex.com
- www.iletisimblog.blogspot
- www.fikirinfo.blogspot
- www.infoplease.com
- www.wikileaks.com
- https://www.jstor.org/stable/2772306
- https://www.jstor.org/stable/2772295
- https://www.researchgate.net/publication/320487265_News_Analysis_as_a_Media_Content_for_Public_Opinion_Formation_and_Moulding
- https://halshs.archives-ouvertes.fr/halshs-0811669/document
- https://www.nytimes.com/roomfordebate/2015/11/30/does-polling-undermine-democracy/politicians-use-polls-to-adjust-their-message
- http://ps.au.dk/fileadmin/Statskundskab/Dokumenter/subsites/Forskersider/runeslothuus/Dokumenter/PoliComm2015.pdf
- https://www.researchgate.net/publication/293162479_Self-categorization_theory
- http://ps.au.dk/fileadmin/Statskundskab/Dokumenter/subsites/Forskersider/runeslothuus/Dokumenter/PoliComm2015.pdf
- https://www.jstor.org/stable/2772306